www.BayBak.com üçün PDF formasına salınmışdır

Güntay Gəncalp

Yağız qarışqalar

Oğlumla ormanlıqda gəzirdik. Qarışqanı ilk dəfə olaraq görən oğlum “Ata, bu nədir?” deyə sordu. “O, qarışqadır oğlum. Ana dilimizdə ona qarışqa deyirik” dedim. Gecələr yatdığımızda qarışqalar haqqında ona nağıl söyləməmi istədi. Oğluma uydurub söylədiyim nağıl böyüyüb kiçik bir roman oldu.

Alpərənliyin yeddi quralı: 1- Dözgə. 2- Ərgə. 3- Sezgə. 4- Bilgə. 5- Birgə. 6- Sevgə. 7- Çözgə.

www.BayBak.com üçün PDF formasına salınmışdır

Biri var idi, biri yox idi. Biri az idi, biri çox idi. Biri ac idi, biri tox idi. Limli adında bir qarışqalar ölkəsi var idi. Limli ölkəsində boyuz qarışqalarla yağız* qarışqalar bir yerdə yaşayırdılar. Limli ölkəsini boyuz qarışqaların seçkinləri yönətməkdəydilər. Min il yağız qarışqalar Limli ölkəsini yönətmişdilər. Yağızlar Limli ölkəsini yönətdikləri zaman boyuzların yaşam biçiminə toxunmamışdılar. Onlar öz dillərində danışır, öz dillərində şərqilər söyləyir, öz musiqiləri ilə rəqs edirdilər. Ancaq necə olmuşdusa, yönətim əl dəyişdirərək, boyuz qarışqaların əlinə keçmişdi. Boyuz qarışqalar yönətimi ələ keçirdikdən sonra yağız qarışqalara özgü[1] dəyərləri yasaqladılar. Boyuzlar yağızların şəhərlərini sömürür, öz şəhərlərinə daşıyırdılar. Yağız qarışqaların anbarları qışın sərt günlərində boş qaldığından boyuz qarışqaların xidmətçilərinə çevrilirdilər. Zaman keçdikcə öz dillərini unudub boyuzların dilində danışırdılar. Yağız qarışqalar gecə-gündüz boyuz qarışqaların anbarına taxıl daşıyırdılar. Həm də sürəkli olaraq uyğun olmayan sözlərlə aşağılanırdılar. Yağız qarışqaların düşüncə və davranışları get-gedə boyuzlaşırdı.

Yağızların içində oğlu ilə bir yerdə yaşayan bir ana var idi. Ana yağızın Ülgən adında bir oğlu var idi. Ana yağız oğlu Ülgəni də yanına alıb yuvadan çıxıb yem daşımağa gedərdi. Ancaq ana qarışqa çox səssiz idi. Kimsə ilə danışmadan oğluna göz-qulaq olaraq, yağız qarışqalarla bir yerdə boyuzların anbarına arpa-buğda, ya da başqa yeyəcək daşıyardı. Yağız qarışqalar yorulduqlarında boyuzların saldırılarına uğrardılar. Boyuzlar yorğun yağızları yorulmadan çalışmağa zorlardılar. Boyuzların taxıl anbarları dolub-daşardı.

Bir gün yanında balaca Ülgənlə ana yağız yük daşımaqda idi. Balaca Ülgən ilk kəz[2] olaraq üzərinə bir buğda parçası almış anası ilə bir yerdə yuvaya doğru gedirdi. Qarışqalar ölkəsi Limlinin arxasında Qəcəl adında bir uçurum var idi. Qəcəl uçurumundan keçərkən Ülgənin ayaqları sürüşdü. Ana yağız üzərindəki yükünü buraxıb oğlu Ülgənin yardımına qoşdu. Ülgəni boynuna alıb uçurumdan keçməsinə yardımçı oldu. Limlinin arxasındakı Qəcəl uçurumunu keçdikdən sonra yağız ana oğlu Ülgəni qarışqalar yoluna

* Yağız- torpq rəngi, qara, buğdayı, əsmər.
"Nə türlük, nə yaslıq kişi qopdu gör
Yağız yer olarıq yedi, **opdu** yer" (Qutatqu bilik)
Nə türlü, nə çeşid insan dünyaya gəldi. **Qara** torpaq hamısını **utdu**.

[1] Özgü- məxsus.

[2] kəz- dəfə.

buraxdı. Bu zaman boyuz qarışqalardan üçü ana yağızın üzərinə gəlib ”Hanı sənin yükün?” deyə bağırdılar. Ana yağız ”oğlum Ülgən, Qəcəl uçurumundan devriləcəkdi az qala... Yükümü buraxıb ona yardım etmək zorunda qaldım” dedi. Boyuz qarışqalar ana qarışqanın üstünə bağıraraq ”xərçə!” deyib aşağıladılar. ”Xərçə” ən aşağılayıcı söyüş idi. Ana yağız başını aşağı saldı. Heç bir söz söyləmədi. Birdən gözləri oğlu Ülgənə sataşdı. Ülgən ilk kəz idi anasının aşağılandığını görürdü. Üzərindəki yükü yerə buraxıb boyuz qarışqalara qarşı yürüyərək ”Siz nədən mənim anamın üstünə bağırdınız, aşağıladınız?” dedi.

Boyuzlardan biri: Sənin anan tənbəlin biridir. Bütün qarışqalar yük daşımaqda ikən, sənin anan başıboş dolaşmaqdadır ortalıqda, hanı bunun yükü?

Ülgən: Ancaq anam uçurumdan keçmək üçün mənə yardımçı oldu. O, olmasaydı, mən Qəcəl uçurumundan dərəyə yuvarlanacaqdım.

İkinci boyuz: Bax balaca yağız, sənin dərəyə yuvarlanıb-yuvarlanmamağının heç bir önəmi yoxdur. Önəmli olan anbarları yeməklə doldurmaqdır.

Ülgən: Sizin üçün önəmsiz ola bilər. Ancaq mənim sağlığım anam üçün çox önəmlidir. Nəyin önəmli olub-olmayacağını yağızlara sizmi bəlli edirsiniz?

Ana yağız: Oğlum Ülgən, gəl gedək...

Üçüncü boyuz: Dur bir. Balaca yağız, sən başından, boyundan böyük sözlər danışırsan. Əlbəttə ki, nəyin önəmli olub-olmadığını biz bəlli edirik.

Ülgən: Siz bəlli edə bilməzsiniz. Sizin bu davranışınız sayqısızlıqdır.

Birinci boyuz: İndi sənə göstərərik sayqısızlığın nə olduğunu.

Ana yağız səsini yüksəldərək: Ülgən, gəl gedək, yetər artıq, — üzünü boyuzlara tutub və sanki yalvararcasına— o, bir çocuqdur. Nələr olduğunu bilmir.

İkinci boyuz: Nələr olduğunu bilmirsə, anladarıq bilər.

Ana yağız oğlunu arxasında gizlətməyə çalışaraq ”Balama toxunmayın!” dedi.

Üçüncü boyuz əlindəki çırtdıq kötüyü sopa ilə ana yağızın təpəsinə bir zərbə endirdi. Ana yağızın başından qan fışqırdı. Bədəni titrəməyə başladı. Ülgən anasını tutmaq istərkən, boyuzlar əllərindəki çırtdıq kötüyü sopaları ilə ona da saldırdılar. Ülgənlə anasını acımasızca döyüb uzaqlaşdılar. Ülgənin bədəni yaralanmışdı. Ancaq ağrı hiss etmirdi. Gözlərinin önündə anasının döyülüb aşağılanmasını içinə sindirə bilmirdi. Ülgən çox aşağılanmışdı. O an ölüb yerə girmək istəyirdi. Anasının üzünə axmış qanı

sildi. Heç bir şey söyləmirdi. Anası da susqun idi. Limlinin batısında Qaravul təpəsinin arxasında günəş batmaq üzrə idi. Ana-bala aşağılanmış ruh halları ilə yerin altındakı yuvalarına doğru susqunca yürüdülər.

Gecə yarısı idi. Bütün qarışqalar yatmışdı. Yağızlar da yorğunca yatmışdılar. Qarışqalar ölkəsi Limlinin meydanlarında boyuz gözətçilər dolaşırdı. Ana-bala ağrıdan yata bilmirdilər. Ülgən anasının yanında uzanıb fikrə dalmışdı. Səssizcə anasının qulağına ”Ana, mənim atam kimdir? Atam hardadır?” deyə pıçıldadı. Anası eşitsə də, özünü eşitməzliyə vurdu. Ülgən səsini yüksəldib ”Ana, səndən atamın kim olduğunu sordum. Nədən bizi savunmasız buraxmış?” dedi. Yenə də anasından bir cavab gəlmədi. Ülgən yerindən qalxıb ”Ana, mənim sorularımı cavablamazsan, özümü öldürəcəyəm. Mənim atam kimdir? Mənim kimliyim haqqında danış!” dedi.

Ana yağız diksinərək qalxıb yerində oturdu. Oğlunun boynuna sarılıb ”Ülgənim, özünü niyə öldürürsən? Mən gerçəkləri gec-tez sənə deyəcəkdim. Düşünürdüm ki, zamanı gəlməlidir. Sənin öz atanı tanıman haqqındır. Necə namuslu bir yağızın oğlu olduğunu bilmən sənin haqqındır oğlum” dedi.

Ülgən: İndi tam zamanıdır. Söylə ana can, söylə! Kimdir mənim atam? Nədən aramızda deyil? Nədən bizi boyuzlar qarşısında savunmasız buraxmış? Hardadır?

Ana yağız: Yaxın gəl, qulağına söyləməliyəm bunları. Boyuzlar duymasınlar. Yaxın gəl oğlum, atanın kim olduğunu bilmə zamanın gəlmişdir demək.

Ana yağız Ülgəni bağrına basıb yaralarını oxşayaraq, atası haqqında gündoğana qədər böylə danışdı:

Sevgili oğlum, sənin atan çox namuslu yağızdır. Atanın adı Bilaydır. Atan, yağızlar tarixində olan alpərənlərdən biridir. Alpərənlik yağız törəsində bir çox özəllikləri özündə barındırmaqdadır. Bilgəlik, ərənlik və doğruluq yolunda savaşçılıq kimi üstün əxlaq özəllikləri alpərənlərə özgüdür. Sənin atan da bir alpərən. Limlidə qarışqalar arasında barış var idi. Boyuzlarla yağızlar barış içində dostca yaşardılar. O dönəmdə ölkənin yönətimi yağızların əlində idi. Nə olduysa, Limlinin yönətimi yağızlardan boyuzlara keçdi. Boyuzlar yağızlara özgü nə varsa, hamısını yox etməyə başladılar. Əskilərdən qalma bütün yazıtlarımızı, uyqarlıqlarımızı sildilər. Atan Bilay da yağızların alpərən savaşçısı idi. Özəlliklə alpərənləri təkləyib orda-burda öldürürdülər. Onlarca alpərən yağızın cəsədləri Limlinin Genbaca, Qoşabaca, İşıqçıxmaz, Başbaca, Sulubaca kimi örüşlərində tapıldı. Atanın çox yaxın dostlarını öldürmüşdülər. Yağızların da düşüncəsini, duyğularını dəyişik yöntəmlərlə boyuzlaşdırırdılar. Bütün alpərən yağızlar

gözətim altına alınmışdı. Atanı da gözətləyirdilər. O zaman mən sənə gəbə[3] idim. Atan "Balamızın kölələr kimi böyüməsini istəmirəm" deyirdi. Bir gecə atan mənə "Biz yenildik. Bütün alpərən yağızları təkləyib öldürdülər. Bunlar məni də öldürəcəklər. Alpərən yağızlar öldürüldükçə, yağızların tarix bilinci də yox olacaq. Mən Limlidən qaçmaq istəyirəm. İdəli ölkəsi ilə Limli arasında Çərənbil adında bir dağ var. Orda gedib yaşayacağam. Oğlum dünyaya gəlib böyüdüyündə mənim orda yaşadığımı ona söylərsən. Boyuzların aşağılamalarına uğradığında məni axtarıb tapsın. Təkbaşıma savaşsam da yeniləcəyəm. Yağızların qurtuluş düşüncəsi olan alpərənlik, soyumuzdan silinsə, boyuzlaşıb yox olacağıq. Çərənbil dağında alpərənlik düşüncəsini yaşadacağam. Yağız gənclərin gəlib məni arayıb tabacaqlarına əminəm. Oğlumuz olduğunda adını Ülgən qoy. Əski yağız törəsində ülgən qutsal ad olmuş. Ulu Tanrının adlarından biri olmuş. Ülgən böyüdüyündə yağızların tarixdən silinməsini önləmək üçün böyük savaşa qatılmalıdır. Ülgənə söylərsən atan böylə istəmişdi. Böylə olmazsa, atalıq haqqımı ona bağışlamaram söylədi atan" dedi.

Ülgən anasının qoynuna girmiş, anasının pıçıldayaraq söylədiklərini diqqətlə dinləyirdi. Dinlədikçə, içində sanki ildırımlar çaxırdı. Böylə atasının olduğunu öyrəndikçə, içində qürur duyğuları dalğalanırdı. Gənc Ülgənin, sanki dili tutulmuşdu. Öyrənməsi gərəkən nə qədər bilgilər var imiş. Atasını görmə istəyi içini yaxırdı. Yaralarının ağrılarını unutmuşdu. Atası haqqında daha da geniş bilgi öyrənmək istəyirdi. Anasının boynuna sarılıb qulağına "Ana, atamdan danış. Sonra nə oldu?" dedi.

Ana da oğlu Ülgənə atası Bilay haqda danışmaq istəyirdi. Sanki ananın içindən bir səs "Oğluna atasını anlat!" deyirdi. Bu üzdən də ana, Ülgənin atası haqda dərin ilgi ilə danışırdı. Ana davam etdi: Atan bilirdi gec-tez onu da tutuqlayıb öldürəcəklər. Çünkü boyuzlar yağızların tarixi anılarını bilən bütün aydın alpərənləri öldürməyi ağıllarına taxmışdılar. Atan savaşçı alpərənliyini buraxıb boyuzlara yük daşıyan kölə ola bilməzdi. Buna onun alpərənlik bilinci və ərdəmi[4] izn verməzdi. Bu üzdən də Limlidən uzaqlaşıb daha uzaqlarda yaşamaq istəyirdi. Ancaq Limlidən necə uzaqlaşacağını bilmirdi. Çünkü bütün yolları boyuzlar gözətməkdəydilər. Alpərənlik törələrini bilən yağızları gözətirdilər. Boyuzların Başalan adında başçıları alpərən yağızların öldürülməsinə buyuruq vermişdi. Bir çox yağızın başını qopardığından dolayı ona "başalan" ləqəbi taxılmış. İndi də Başalan alpərənlərin oğullarını, torunlarını öldürməkdə. Boyuzlar düşünürlər ki,

[3] Gəbə- hamilə.
[4] ərdəm- fəzilət.

alpərənlik anısı yağızlarda yenidən baş qaldıra bilər. Ona görə də alpərən soyundan olanları gözətim altında saxlamağa çalışırlar. Bu üzdən də gözəl oğlum sənin də yaşamın təhlükə altında.

Ülgən: Ana, atamdan danış, daha çox danış.

Ana: Əvət oğlum, atan bir gecə Limlidən uzaqlaşmağa qərar verdi. Qılıcını alıb səssizcə, qaranlıqdan yararlanaraq yuvadan çıxdı. Limlinin doğusunda Bayquşyuvası adında qorxunc bir dərə var. Atan Bayquşyuvasına çatdığında ay doğmuş. Aydınlıqda boyuz gözətçilər atanı görmüşlər.

Ana qarışqa köks ötürüb bir az susdu. Səbirsizliklə olayların axışını bilmək istəyən Ülgən "Söylə, daha nə oldu, anlat ana can, anlat. Atamın başına Bayquşyuvasında nələr gəldi?" dedi.

Ana: Bayquşyuvasında boyuzlar atana "Yağız Bilay, qılıcını burax təslim ol!" demişlər. Atan da "alpərən yağızlar təslim olmazlar. Gücünüz yetərsə, gəlin təslim alın" demiş. Boyuzlar atana saldırmışlar. Atan böyük savaşların uğurlu başçısı olmuşdu uzun zamanlar. Bayquşyuvasında savaş başlamış. Boyuzlar atana saldırmışlar. Atan üç gün üç gecə boyuzlarla savaşmış. Limlinin ortasında Başalan boyuzları toplayıb onları atanla savaşa göndərdi. Limlidə olağanüstü[5] durum oluşdurmuşdular. Bayquşyuvasından qılıc səsləri Limlidə eşidilirdi. Yağızların alpərənlik inancında boyuz bilə olsa, qarışqa öldürmək doğru deyildir. Ona görə də atan, yalnız boyuzları yaralayır, onların qılıc və süngülərini vurub salırmış. Yüzlərcə yaralı boyuzu Limlinin orta yuvalarına daşıyırdılar. Yaralananlardan ölənlər də olurdu. Limlidən Bayquşyuvasına boyuz əsgərlər aparılırdı. Bayquşyuvasında savaşın üçüncü günündə atanın arxa ayağını yaralayırlar. Alpərənlik savunmasında, yalnız ölümünü önləmək[6] üçün qarışqa öldürmək olar. Atan bu dəfə boyuzlarla ölüm-dirim savaşına girir. Yaralanmış atan boyuzlardan yüzlərcəsini öldürür. Ancaq atanın yarasından qan axdıqca gücsüzləşirmiş. Üçüncü günün son idi. Gün Limlinin Qaravul təpələrinin arxasında batmaq üzrə ikən, Doğudan da qara buludlar göylərdə yayılırdı. Qorxunc ildırımlar çaxdı. Bayquşyuvasında savaş davam edirdi. Ancaq ildırımların şaqqıltısı qılıc səslərinin eşidilməsini önləmişdi. Sərt yağmur yağmağa başladı. Limlinin hər tərəfində qarışqalar yuvalarına soxuldular. Bayquşyuvasındakı savaş da durmuşdu. Daha sonra nə olduğunu bilmirəm. Atan bu yağmur tufanından yararlanaraq, ortadan çıxıb Çərənbil qayasına getmiş. Mən böylə duydum. Necə çıxması, Çərənbil qayasına yaralı oalaraq, necə çatması ilə bağlı bilgim yoxdur. İndi atan orda yalnız yaşayır. Deyilənə görə

[5] Olğanüstü- fövqəladə.
[6] Önləmək- əngəlləmək.

sarıtikanlardan qutsal qılıclar düzəldirmiş. Boyuzların da tək qorxduqları atandır. Çünkü alpərənlik törəsinin nə olduğunu ən doğru bilən odur. Bax böylə bir kişidir sənin atan Ülgənim.

Ana, Ülgənin atası haqda gərəkən bilgiləri oğluna vermişdi. Ülgən sabaha qədər yata bilmədi. Gözləri qaranlıqda parlayan Ülgən sürəkli Çərənbil qayasında yalnızbaşına yaşayan atasını düşünürdü.

***

Aylar keçdi. Ülgən atası haqda başqa bilgilər də öyrəndi anasından. Ülgən bir gənc yağız olmuşdu. Boyuzlar yağız gəncləri çalışdırır, ağır yük daşıtdırırdılar. Ülgən isə, yük daşıya-daşıya Limlidən qaçmanın bir yolunu axtarırdı. Limlidən qaçmağı usuna[7] taxmışdı. Bütün gözətimlərə baxmayaraq, güvəndiyi yaxın yağız gənclərlə danışıb Limlidən ayrılma haqqında danışırdı. "Yağızları Gözətim Qurumu"nun başqanı Asar adında boyuz idi. Asar, gənc Ülgənin gözətimi üçün özəl tapşırıqlar vermişdi. Ülgən gözətim altında olduğunu bilirdi. Ancaq durum gərginləşdikçə, yağızlar üzərinə basqı artdıqca yağız gənclərin arasında dirəniş duyğusu oyanmaqda idi. Havalar qarışıb ildırımlar çaxdığında boyuzların gözətimi çətinləşirdi. Bu zaman Ülgən gənc yağızlarla Limlidən qaçıb Çərənbil dağına varmaları haqda danışır, yağızları qurtamaq üçün alpərənlik törəsini atası Bilaydan öyrənmə düşüncəsini onlarla paylaşırdı.

Bir gün qarışqalar Limlinin orta yuvalarına yük daşıyarkən, duman hər tərəfi sarmışdı. Yavaş-yavaş sırsıra yağmur yağırdı. Qarışqalar artmaqda olan su birikintisinin sellərinə qapılmasınlar deyə alaqların, bitkilərin və ağacların budaqları altında daldalanmışdılar. Çoğanın yarpaqları altında bir neçə yağız gənc ilk gizlin toplantılarını keçirdi. Ülgən, gənc yağızlarla uyğun fürsətlərdə ilişkiyə girib bu gizlin toplantını oluşdurmuşdu. İlk kəz yağız gənclər yağızların qurtuluşu üçün toplanmışdılar. Aralarında ən güclüsü və ən olqunu Ərtay idi. Ülgən Ərtaydan toplantını yönətmək üçün istəkdə bulundu. Ülgənin ən yaxın arxadaşı olan Günal da Ülgənin söylədiyini onayladı və "Ərtay, sən bizim hamımızdan daha böyüksən. Arxadaşların etirazı yoxdursa, toplantını sən yönət!" dedi. Ərtay "Toplantılarımızda Savunal, Sevilay, Güvənal, Özay, Xamut, Dural və Yağıl da bulunmaqdadır. Sizlərin fikriniz nədir?" dedi. Onlar da hamısı bir yerdə "Zamanımız azdır Ərtay. Heç bir saqıncası yox. Nədən toplandığımızı anlayalım. Davam et!" dedilər.

[7] Us- ağıl.

Ərtay: İstəkli dostlar, öncə bilməlisiniz ki, bizim bu gizlin toplantını boyuzlar bilsələr, hamımızı öldürəcəklər. Ona görə də öncə bu qonuda bilgili olmamızda yarar var. Kimsə bu işə girişmənin qolay olduğunu sanmasın.

Bu zaman Yağıl və Xamutun içləri ürpərdi sanki. İçlərində qorxu hissi oyanmışdı. Ancaq özlərini ələ alıb dinləmək zorunda qaldılar. İçlərində bir tək yağız qız olan Sevilay "Böylə toplantılarla nəyi amaclayırıq?" dedi.

Ərtay: Amacımız yağızların qurtuluşudur. Yağızlar gün keçdikçə, soysuzlaşır boyuzlaşırlar. Dilimiz aşağılanmaqda, kültürümüz və bizə özgü nə varsa, yox edilməkdədir. Yağızlar necə qurtula bilər? Sorun və soru budur. Düşüncəmiz və varlığa baxış biçimimiz boyuzlaşmaqdadır. Boyuzlara kölə olmamızın ötəsində bir də yağız kimliyi olaraq yox olmaqdayıq. İstəkli yağız dostlarım, bu biçim yaşamaq doğru deyildir. Biz qurtuluşumuz üçün bir işlər görməliyik. Ancaq necə? Bütün tarix bilgilərimiz və bilincimiz boyuzlaşmaqdadır. Öz soyumuzdan qaynaqlanan qurtuluş bilgiləri gərkir. Gerçəkdən biz kimik? Bu sorulara yanıt[8] bulmadığımız sürəcə, biz qurtula bilmərik, boyuzların köləsi olamağa məhkum olarıq. Bu haqda aranızda düşüncəsi olan varmı?

Sevilay barmağını qaldırıb danışmaq istədi

Ərtay: Buyur Sevilay!

Sevilay: Bizi gündoğandan günbatana qədər çalışdırmaqdadırlar. Düşünməyə vaxt qalmır. Daşıdığımız yüklər boyuzların anbarlarında birikir. Qışda da ac gündə yaşayırıq. Buna bir çözgə[9] bulmamız gərək.

Savunal: Yağızlarda özgüvən yoxdur. İllər boyu kimliyimiz aşağılandığından qurtuluş inancı itirilmiş. Həm də könüllü olaraq boyuzlaşma əyilimi[10] ortaya çıxmış.

Xamut: Gerçəkdən biz niyə böylə aşağı qarışqalarıq?

Günal: Yağızların oyanışı çox zordur. Ancaq zor da olsa, çox şərəfli işdir. Bu yaşam biçimindən qurtarmalıyıq.

Yağıl: Necə qurtulacağıq. Hansi bilgilərlə? Hansı inancla? Yağızlar batmaq üzrədirlər.

Özay: Yağızların əski inancları olmuş. Ancaq necə olduğunu bilmirik. Bunu bilsək, ona görə davrana bilərik. Bizlər gözümüzü açdığımızda boyuzların inancını görmüşük. Onların törələrinə görə böyümüşük. Özgələşmişik.

[8] Yanıt- cavab.
[9] Çözgə- çarə.
[10] Əyilim- təmayül.

Günal: Ülgənin atası Çərənbil dağında yaşamaqda imiş. Bizim kimliyimiz və əski inancımız haqda onun bilgiləri varmış. Həm də savaşçı bilgə imiş. Ona varmanın bir yolunu bulmalıyıq.

Güvənal: Yağızlarda özünəgüvən duyğusunu oluşdurmalıyıq. Tək yol budur. Özgüvən olduqdan sonra biz çoxluqdayıq. Boyuzları yenə bilərik.

Ülgən: Alpərənlik törəmiz olmuş. Bizlər onun nə olduğunu bilmirik. Bilməliyik. Yağızları qurtarmaq üçün özverili[11] yağızlar ortaya çıxıb örnək olmalıdırlar. İçimizdə, ruhumuzda alpərənlik kök salarsa, yenilməz olarıq.

Ərtay: Buraya toplaşan yağız gənclər olaraq, soyumuzun köləlikdə yaşadığı inancındayıq. Yaşlı analarımız, dədələrimiz heç bir güvəncə olmadan ömürlərinin sonlarına qədər boyuzlar üçün çalışmaqdadırlar. Xəstələndiklərində gizlincə öldürülürlər. Öldürülürlər ki, anbarlardakı taxılın hamısı boyuzlara qalsın. Bizlər də yağız gənclər olaraq, duruma seyirci qalmaqdayıq. Böylə əxlaq ola bilməz. Bu durumu ortadan qaldırmaq yağız gənclərin görəvidir. Baxınız dəyərli yağız gənc dostlarım. Hamımız durumumuzun çox çətin olduğunun bilincindəyik. Ancaq bu durum qonuşmaqla dəyişməz. Mənim somut[12] önərim var. Bu önərimi diqqətlə dinləmənizi istəyirəm. Önümüzdə bir söyüd ağacı var. O söyüd ağacından bir budaq, kiçik bir budaq gəmirib qoparmalıyıq. O budağı gizlincə sürükləyib Limlinin arxasındakı Qəcəl uçurumuna yerləşdirməliyik. Sonra da uyğun fürsət bəkləməliyik. Yağmur yağdığında bu budaqdan yapışıb özümüzü fırtınalara, sellərə buraxmalıyıq. Sellər bizi Limlidən, boyuzların gözətimindən uzaqlaşdıra bilər. Daha sonra uzaqlarda boyuzların gözətimi olmayan yerlərdə sellərdən ayrılıb Ülgənin atası bügü[13] Bilay dədəni araya bilərik. Anlaşılan budur ki, Bilay dədəsiz bu işlər yürüməyəcək. Ona varmağımızın da tək yolu özümüzü sellərə buraxmaqdır. Ona görə də bu çətin yollara düşmək üçün yaxşıca düşünün. Yalnız böyük acılara, ağrılara qatlaşa biləcək olanlar gəlsinlər. Biz Limlini və Limlidəki yağızları qurtamaq üçün Limlidən ayrılıb, yenidən qurtuluş düşüncəsi ilə geri dönməliyik. Bu qonuda düşüncələriniz nədir?

Arxadaşlarının qonuşmalarını diqqətlə dinləyən Dural səssizliyini pozub dedi: Məncə, çox təhlükəli işlərlə uğraşmaqdasanız. Sizin amacınızı boyuzlar bilsələr, hər tək-təkinizi ortadan qaldırar və yağızlar üzərinə də basqıları artıra bilərlər. Ayrıca, diqqətli olmalısınız. Çünkü boyuzlarla əməkdaşlıq edən yüzlərcə yağız var. Sizləri ələ verə bilərlər. Mən sizlərə başarılar diləyirəm. Ancaq böylə çətin bir yolun yolçusu ola biləcəyimi

[11] Özverili- fədakar.
[12] Somut- konkret, müşəxxəs.
[13] Bügü – filosof, bilgə. (Kaçqarlı sözlüyü)

sanmıram. Nağıllarda, dastanlarda bu yolların çox çətin olduğunu duymuşuq. Duyğulara qapılmadan bu yola girməyə qərar vermənizi istərdim. Daha sonrakı peşmanlıq ihanət doğura bilər. Mən sizlərlə gəlməyəcəyəm. Sizin eyləmlərinizin[14] ayrıntıları haqda bilgilənmək də istəmirəm. Bilməsəm, daha yaxşıdır. Bu üzdən də izninizlə aranızdan ayrılmaq istəyirəm.

Dural çox təmkinli biçimdə ayrılmaq istərkən, Ərtay üzünü ona tutub "Dural, böylə dürüstcə davrandığın üçün çox sağ ol. Mən səni anlayıram. Yalnız inanclı və güclü yağız gənclər bu səfərə çıxmalı. Sənin bu tutumuna görə səndən inciyə bilmərik. Heç bir yağıza qarşıolma haqqımız yoxdur. Başqa arxadaşlarımız da diqqətli olsunlar. Çox çətin yollardır. Ölümlü-itimli yollar. Boyuzlara taxıl daşıyaraq daha uzun sürəli yaşamaq mümkün ola bilər. Ancaq bu yol qolay yol deyildir. Qərar vermədən öncə yaxşıca düşünməniz gərəkir" dedi.

Dural ayrılıb gedərkən, Yağıl və Xamutun gözləri ona zilləndi. Dural çox kədərli görünüşü ilə onlara "Umarım başarılı olursunuz" deyib ayrılıb getdi. Yağıl və Xamutun içində sanki bəlirsizlik var idi. İçlərindəki bəlirsizlik sifətlərində görünürdü. Xamut içindəki bəlirsizliyi bir biçimdə ört-bas edib səsində heç bir tutarlılıq olmadan "Hər halda ömür boyu kölə kimi yaşayası deyilik" dedi. Daha sonra Yağıl sanki öz-özünə qonuşarcasına "Burdakı türdeş[15] yaşamdan bu səfərə çıxmaq daha yaxşı olar" dedi.

Güvənal: Mən bu görüşə tam olaraq və bütün ürəyimlə qatılıram. Tək özgürlük yolumuz bilgə Bilay dədəyə varıb gerçəkləri öyrənməkdir.

Ülgən: O zaman fürsəti itirmədən söyüd ağacından bir budaq qoparalım. Nə deyirsiniz arxadaşlar?

Günal: Məncə də.

Yağıl: Bir az ehtiyatlı olmalıyıq.

Xamut: İşin sonu haqda yaxşı düşünməliyik.

Sevilay: Sonrakı düşüncələri yollar özü doğurar.

Özay: Doğru, işin sonrasını varacağımız sonrakı evrələr[16] bəlli edər. Mən bu düşüncəyə qatılıram.

Xamut: Qorxunc işdir. Ona görə də yüz ölçüb bir biçməliyik.

Ərtay: Anlaşılan odur ki, mənim önərimi burdakı gənc yağızlar qəbul etmişlər. O zaman fürsəti qaçırmadan söyüddən bir budaq qoparıb uçurumun kənarına yerləşdirəlim. Dumanlıq və sırsıra yağmur bunun üçün yaxşı fürsətdir.

[14] Eyləm- fəaliyət.
[15] Türdeş- monoton, bir-birinə bənzər.
[16] Evrə- mərhələ.

Yağız qarışqalar söyüdə dırmaşıb yaşıl bir budağın ağaca bitişik yerini gəmirməyə başladılar. Çox qısa bir sürədə budağı qoparıb uçuruma yerləşdirdilər. Budağı uçuruma yerləşdirib dağıldılar. Fırtınalı havanı bəkləyəcəkdilər. Fırtınalı, yağmurlu bir gündə bütün qarışqalar yuvalarına qoşarkən, onlar uçuruma qoşub, bu budaqdan yapışaraq özlərini sellərə buraxacaqdılar. Böylə olduğunda boyuzlar onların Limlidən uzaqlaşmalarını önləyə bilməzdilər.

***

Boyuz gözətçilərin səsləri yüksəlmişdi. “Tez olun, Doğudan qara buludlar Limlinin üstünə gəlməkdə. Bərk yağmur yağacaq. Yüklərinizi yuvalara daşıyın!” deyə bağırırdılar. Ərtay üzərində bir arpa dənəsi ətrafındakı yük daşıyan arxadaşlarını süzdü. Gözləri ilə bir-birlərinə işarə edirdilər. Ülgən üzərindəki yükü bir an yerə qoyub arxasına, Doğuya baxdı. Qara buludlar yaxınlaşırdı. Bu zaman gözətçi bir boyuz Ülgənə tərəf “Xərçə!” deyə bağıraraq “Görmürsənmi fırtına yaxınlaşmaqdadır, nədən durmuşsan yerimirsən?” dedi. Ülgən artıq bu aşağılamadan üzülmürdü. Sanki eşitmirdi bu aşağılayıcı sözləri. Bütün diqqəti az sonra varmaları gərəkən uçuruma doğru yürüşlərinə yönəlmişdi. Tək-tək yağmurcuqlar yağmağa başlamışdı. Boyuzların əlində çırtdıq kötüyündən sopaları “tez olun!” bağırtıları davam edirdi. Bəzən də hansısa yorğun yağıza əllərindəki sopa ilə vururdular. Ərtay sopalar altında aşağılanıb inləyən yağızların ağrılı fəryadlarını eşidirdi. Yağmur get-gedə artırdı. Öncədən yapdıqları hazırlığa görə göydəki ilk qorxunc ildırım çaxmasıyla yağızlar Qəcəl uçurumuna doğru qoşmağa başladılar. Üzərlərindəki taxıl yükünü buraxıb uçuruma tərəf qoşmağa başladılar. Ərtay “Arxadaşlar, fırtınalı yaşama doğru irəli!” deyə bağırdı. Boyuz gözətçilər öncə şaşırdılar. Yağızların hara qaçdıqlarını anlaya bilmədilər. Çünkü fırtınanın başlamaqda olduğu bu anda bütün qarışqalar yuvalarına qoşmalıydılar. Yağız gənclər tam tərsinə edirdilər. Doqquz yağız gənc uçuruma doğru qoşurdular. Boyuzlar arxalarınca “Hara qaçırsınız? Durun!” deyə bağırdılar. Aldırış edən olmadı. Yağmur sərtcə yağmağa başlamışdı. Boyuzların komutanı “Onların önünü kəsin, qoymayın qaçsınlar” deyə buyuruq verdi. Əllərində çırtdıq sopası olan boyuzlar yağız gəncləri izləməyə başladılar. Çiynində ağır yük daşıyan Ülgənin anası gənclərin Qəcəl uçurumuna doğru qaçışlarını görüb göz yaşlarını tutamayaraq, öz-özünə “Yolunuz açıq olsun balalarım” deyə pıçıldadı. Boyuzların “Durun, qaçmayın!” bağırtılarına aldırış etmədən yağızlar

uçuruma doğru qoşurdular. Daha öncədən bir qayanın altında gizlətdikləri söyüd budağına çatmışdılar. Hamısından daha iri gövdəli olan Ərtay ağzı ilə budağı dartışdırıb hər an güclənməkdə olan selə tərəf yaxınlaşdırırdı. Başqa yağız gənclər də ağızları ilə budağı sürükləməyə başladılar. Boyuzlar çatmaq üzrə idilər. Yağız gənclər budağın yarısını selin içinə soxmuşdular. Tam bu zaman qorxunc ildırım çaxdı. Arxadan güclənməkdə olan sel daşıb öz yatağından çıxdı. Daşqın sel, budağı bağrına alıb yox etdi. Boyuzlar heyrətlə yağız gəncləri izlədilər. Yağızlar selin daşdığı dərədə yox oldular. Boyuzlar tələm-tələsik geri döndülər. Tanıq olduqları olaylar haqqında ayrıntılı bilgi yazıb "Yağızları Gözətim Qurulu" başqanı Asara göndərdilər. Limlidə özlərini sellərə buraxmış yağız gənclər haqqında ayrıntılı araşdırma başlatıldı.

***

Sel budağı burub-buruşdurub ora-bura çırpa-çırpa irəliyə doğru aparırdı. Yağız gənclər ilk kəz böylə qorxunc seldə yaşamağı denəməkdəydilər. Budaqdan bərk-bərk yapışmışdılar. Budaq bəzən qarşıda bir əngələ, bir dik qayacığa sərtçə toxunub havaya sıçrayırdı. Bu zaman yağızlar selin dışında dərindən nəfəs ala bilirdilər. Hamısından daha iri gövdəli olan Ərtayın "Arxadaşlar, qorxmayın, dözməliyik. Biz başaracağıq" hayqırtısı eşidilirdi. Budaqdan bərk-bərk yapışmış yağızlar bir-birinə ürək-dirək verirdilər. Zaman keçdikçə, fırtınaya alışırdılar. Fırtınada yaşamağa alışırdılar. Ölüm-dirim savaşı idi. Çətin bir ortamda yaşam savaşı. Duruma alışdıqca böylə bir yaşamın əsarətdən daha üstün olduğunu hiss edirdilər. Bu, onları gücləndirirdi. Öz istəncləri[17] ilə yaşamaqdaydılar. Boyuzlar başlarının üstündə deyildi. Ölümlə boğuşaraq olsa da, özgürcə yaşamın köləlikdən daha üstün olduğunu bütün varlıqları ilə özümsəyirdilər. Sel, budağı başqa bir qayaya çarpdı. Budaq yenə də havaya sıçradı. Yenidən selin içinə düşmədən, aralarında tək qız olan Sevilayın incə hayqırtısı eşidildi: "Yaşasın özgürlük. Arxadaşlar, güclü olalım. Biz uğur qazan…" Sözünü tam olaraq bitirə bilmədi. Budaq yenidən selin içində gömüldü və Sevilayın son sözləri duyulmadı. Ancaq Sevilayın hayqırışları başqa yağızları umutlandırmış, daha da gücləndirmişdi. İldırımlar çaxır, kürşad* yağmur durmadan yağırdı. Başqa dərələrin də selləri ana dərəyə qovuşub dağların arasındakı seli daha da gücləndirirdi. Bayquş yuvasında dərənin

[17] İstənc- iradə.

* Kürşad- sərt yağış türü.

ağzı genişlənirdi. Daha geniş olan dərə də sellərin tərpədə bilməyəcəyi dağların köksündən qopub gəlmiş qayalar var idi. Sel bu böyük qayalıqlara çırpılıb geri dönürdü. Yenidən qayaların yanlarından burulub irəliyə doğru qoşurdu. Budaq dərənin ortasında ən böyük qayaya çarpıldı. Havada fırlana-fırlana dərənin kənarına, dağın köksündə bir az irəli gəlmiş sal qayalığa düşdü. Burada qayalıq bir az irəli gəlmiş barınaq kimi olmuşdu. Yağmur bu barınaq kimi yerə girə bilməsə də, üst tərəfdən dağın başından süzülüb gələn sular barınağın yan-yörəsindən axıb gedirdi. Yağızlar artıq bərk-bərk yapışdıqları budağı buraxmışdılar. Barınaq kimi bu yerdə hər yağız bir tərəfdə sanki bayqınca düşüb qalmışdı. Selin təlatümlü və coşqulu səsi beyinlərinin içindəydi. Bir sürə hər bir yağız düşdüyü yerdəcə hərəkətsiz qaldı. Ətrafda qorxunc ildırımlar çaxıb yağış yağsa da, orası qup-quruca barınacaq kimi idi. Bir az zaman keçdikdən sonra özlərinə gəldilər. İri gövdəli Ərtay ətrafa baxdı. "Ülgən, Günal hardadır?" dedi. Hamı bir-birinə baxdı. Günal aralarında yox idi. Ülgən barınacaqdan irəliyə doğru yeriyib dərədə gurlayan selə baxdı. Arxasınca da başqa yağızlar dərəyə baxırdılar. Günal təkbaşına sellə boğuşurdu. Sel Günalı bir qayaya çarpdı. Günal havaya sıçradı. Üzünü ona baxan arxadaşlarına tutub "Məni sellər apardı. Siz yolunuzdan qalmayın. Bəlgə Bilay dədəyə uğrayın. Əlvidaaaa arxadaşlarım. Yaşasın özgürlük, yaşasın yağız…" söylədi. Son sözlərini bitirə bilmədi. Sel Günalı suların coşqun dərinliklərində yox etdi. Çarəsiz yağız gənclər bir yerdə "Gü…naaaa…l" deyə bağırdılar. Günaldan bir səs çıxmadı. Sevilay hönkürtü ilə ağlamağa başladı və boğazı tutula-tutula "Ah Günal qardaşım, Günal, Günal. Səni unutmayacağıq Günal" söylədi. Yağızlar Günalın batdığı dərinliyə baxa-baxa qalmışdılar. Günaldan xəbər çıxmadı. Ərtay "Arxadaşlar, Günal yaşamını yağızların özgürlüyü yolunda fəda edən ilk savaşçımız oldu. Bu gündən sonra "Günal" sözü qutsallaşacaqdır. Aramızda onun qutsallığına and içiləcəkdir. Günalın özgürlükçü ruhu heç bir zaman bizdən ayrı olmayacaqdır" dedi.

Ülgən Günalın batdığı sellərin qaynaşmasından gözlərini çəkməyərək o anki duyğularını əzbər bildiyi qoşuqla anlatdı:

Fırtınalar qoynunda, ölən savaşçı dostum
Silinməz könlümüzdən, özgürlük xəyalların
Özgülük düşlərinə, sağlanacaqdır uyum
Özgür ruhun aydınlıq, gətirər bizə yarın

*

Fırtınalar qoynunda, ölənlərin sevgisi
Sönməz, uzanıb gedər, sürəkli sonsuzluğa

Ölümlərlə sarsılmaz, qurtuluşun sezgisi
Ölüm bir cığır açar, günəşli aydınlığa.

Buludlar göylərdən çəkilmək üzrə idi. Yağmur dayansa da, Bayquşyuvasındakı sellərin coşqulu axışı davam edirdi. Günaldan umut kəsilmişdi. Yağızlar barınaqda Günalın ölüm acısını yaşayırdılar. Yola girişlərinin ilk başında arxadaşlarından biri yağızların qurtuluşu yolunda ölmüşdü. Günalın ölümü qurtuluşçu yağızları dərdə batırsa da, onların istəncini qırmamışdı. Özay "Tanrı, arxadaşımız Günalı öz yanına alsın. Düşünürəm ki, Günalın ölümü bizi sarsıtmamalıdır. Onun inancı yolunda daha da böyük bir istənclə yürüməliyik. Günalın ölümü yağızların qurtuluşunun nə qədər önəmli olduğunu göstərməkdədir. Bu qurtuluş yolunda Günal kimi gənc yağızlar ölümü gözə alırlarsa, o zaman inancımızı itirməməliyik. Qurtuluşun yaxında olduğuna inanmalıyıq" dedi.

Güvənal: Məncə də. Yas tutmağımızın bir anlamı yox. Hər bir yağızın özgürlük yolunda ölməsi savaş istəncimizi daha da yenilməz etməlidir.

Savunal: Milyonlarca yağızların qurtuluşu üçün yola düşmüşük. Birey olaraq yaşamımızı genəl yağız yazqısına bağladığımızı düşünürüksə, heç bir olay bizi sarsıda bilməz. Fırtınalar qoynunda ölmək boyuzların köləsi kimi yaşamaqdan daha üstündür, daha şərəflidir.

Xamut: Mən bu qədər çətinliklərlə rastlanacağımızı bilmirdim. Hələ yolun tam başlanqıcında ikən, başımıza bu qədər çətinliklər gəldi. Az qala boğulacaqdım. Bir neçə kərə Ərtay məni qurtardı. Yoxsa boğulub öləcəkdim.

Yağıl: Böylə anlaşılır ki, hələ qarşıda daha çox fəlakətlər var. Ən önəmlisi də budur ki, biz bilmirik Ülgənin atası Çərənbil dağında yaşayır, yoxsa yox. Tutalım ki, biz Çərənbilə çatdıq və gördük ki, bügü Bilay dədə yoxdur, ölmüş. O zaman nə edəcəyik? Nədən bu haqda yola düşmədən öncə heç düşünmədik?

Yağılın bu sözləri Ülgəni çox üzdü. Ancaq Ülgən susmağı tərcih etdi. Buludlar çəklmiş, göy üzü dərin maviliyə bürünmüşdü. Günəşin batmaqda olan ışınları yağızların belini isidirdi. Ərtay "Burda dincələk bir az. Yarın erkəndən yolumuza davam etməliyik" dedi. Dərədə selin səsi get-gedə azalmaqda idi. Ülgən üçün bulunduqları yer çox önəmli bir məkan idi. Atası Bilay burda, Bayquşyuvasında boyuzlarla savaşmışdı. Bu üzdən də Bayquşyuvasının hər tərəfinə diqqətlə baxırdı. Atasından bir iz görə bilir deyə hər yanı diqqətlə seyr etməkdə idi. Bayquşyuvasının arxasında Balaxanbacası adında uçurumlu enişlər var idi. Yarın yağızlar

Balaxanbacasından Çərənbil dağına tərəf yola düşəcəkdilər. Gün batmışdı. Yağızlar barınaqda yuxuya dalmışdılar.

Gecəyarısı idi. Gənc yağızlar yatmışdı. Sevilay gecəyarısı yuxudan oyandı. Soyuqdan yata bilməmişdi. Bir az öz-özünə düşündü. "Yəqin başqa yağızlar üçün də soyuqdur" deyə öz-özünə pıçıldadı. Yan-yörəyə baxdı. Daşlara suvanmış qollu-budaqlı sarmaşığa gözü sataşdı. Sarmaşığın yarpaqlarını saplaqlarından gəmirib qopardı. Sonra da gətirib uyumuş olan yağızların üstünə sərdi. Ərtayın da üstünə sarmaşıq yarpağını örtmək istərkən, Ərtay yuxudan oyandı. Heç bir söz söyləmədən üzündə gülücüklər olan Sevilaya baxdı. Sonra ətrafında yatan yağızlara baxdı. Sevilay hamısının üstünü örtmüşdü. Ərtay bir az susqunca öncə Sevilaya baxdı. Daha sonra "Sağ ol, çox sağ ol Sevilay" dedi. Sonra üstündəki Sevilayın sərdiyi sarmaşıq yarpağından yorğanı bir yana çəkib Sevilayın yanına gəldi. "Arxadaşlarımız yaxşıca yatmışlar. Gəl bir az barınaqdan dışara baxıb görəlim nə var, nə yox?" dedi.

Sevilay: Gəl baxalım. Hava çox gözəl olmuş. Göydə ulduzlar parıldayır. Ay da dolunaylaşmış[18]. Ağ-appaq bir gecə.

Barınağın önündən Bayquşyuvasının qorxunc uçurumları görünürdü. Artıq güclü sellər yox olmuşdu. Dərədə incə bir arx axmaqda idi. Keçən gün Günalın boğulduğu yerdə kiçik bir gölməçə var idi. Ay gölməçədə görünürdü. Yavaşça əsən yel gölməçənin suyunu titrədirdi. Gölməçənin suyu titrədikçə, ay gölməçədə rəqs edirdi. Çevrədə cır-cıralar da mahnı söyləməkdəydilər. Ərtay "Varlıq nə qədər də gözəl" dedi. Ancaq sərt öskürək sözünün davam etməsini önlədi.

Sevilay: Ərtay, mən səni tanıyalı sürəkli öskürürsən. Nədir sənin dərdin?

Ərtay: Uzun bir macəradır. Başqa bir zaman anladaram. Ancaq bu öskürək kimi kəz[19] canımı çox sıxır. Umarım ki, amacımıza ulaşarıq və bu öskürək sağlığıma zərər verməz. Böylə çətin gündə sağlığı yerində olan savaşçı yağızlar lazım.

Sevilay: Sanki az öncə sellərin ortasında yaşam savaşı vermirdik. Sanki Günal ölmədi, yaşamaqdadır. Yaşam nə qədər də ilgincliklərlə doludur!

Ərtay: Əvət, öylədir. Yaşamaq gözəldir. Bəlkə bizim yaşamımızın da gözəlliyi bu savaş üçündür. Günal çox anlamlı biçimdə öldü. Böylə ölümlər yaşama daha da anlam qazandırır.

[18] Dolunay- tam dairə ay, 14 gecəlik ay.
[19] Kimi kəz- bəzən.

Sevilay: Keşkə ölməsəydi. Biz böyük qurtuluş sevdası ilə yenicə yola girmişkən, Günal çox erkəndən öldü. Geri döndüyümüzdə anasına nə deyəcəyik?

Bu zaman Sevilayın gözləri doldu. Içini çəkib ağlarkən, Ərtay onun başını köksünə tərəf çəkib bağrına basdı. Sevilayın içini çəkməsi Ülgəni də oyatmışdı. Ülgən oyanmışdı, ancaq oyandığını bildirmədi. Ərtayla Sevilayın söhbətlərini eşidirdi.

Ərtay köksünü ötürüb dedi: Bilirsənmi Sevilay? Mutlu ölməyi başarmaq gərək. Gerçəkdən də hamımız öləcəyik. Ölümdən qorxmamaq lazım. Qorxarsaq, bir kərə deyil, bir neçə kərə ölərik. Günal mutluca öldü. Gördünmü son nəfəsində nələr söylədi? Son anlarında ölümdən qorxmadığı bəlli idi. Son anında da yağızların qurtuluşunu düşündü. Soyumuzun qurtuluşunu. Onun bu biçim ölməsi məni çox dərindən etkilədi. "Yardım edin!" çağrıları yerinə "Yaşasın özgürlük" deyib selin dərinliyində yox oldu. Önəmli olan bu inancın bağrımızda barınmış olmasıdır. Bu inancımızı gerçəkliklə uyumlu duruma gətirirsək, soyumuzun qurtuluşu kəsinləşəcəkdir. Bu bir sevgi savaşıdır Sevilay!

Sevilay, başının Ərtayın köksündə olmasından çox mutlu idi. Aylı-ulduzlu gizəmli[20] gecədə Sevilay sevgi ilə qurtuluş inancı qonusunda bir erkək yağızdan sözlər duymasından çox xoşlanmış görünürdü. Özünü daha da Ərtayın qoynunda yerləşdirib "Sevgi nədir səncə Ərtay?" dedi.

Ərtay: Sevginin nə olduğunu bəlkə bilgilərimizlə anlada bilmərik. İçimizdə sönməyən bir gücdür sanıram. Bizi dürüst olmağa, özverili olmağa yönləndirən odur. Gizəmli biçimdə içimizdə varlığı, özəlliklə yağızları sevmə bilincini oluşdurar. Ancaq biz o saytalman[21] sevgini bir yağız bireyi[22] üzərində odaqlanmış[23] olaraq gördüyümüzdə içimizin yandığını hiss edərik. Sevgi budur məncə. Özümüzü tinsəl[24] açıdan varsıl[25] sanmağa başlarıq.

Sevilay: Çox gözəl anladırsan. Anlatmağa davam et!

Ərtay: Sevgi, yenidən doğuşdur məncə. Bir inanc və əxlaq düzəninə uyum sağlama sürəcidir. Özverilikdə bulunmamız üçün içimizdə geniş olanaqlar[26] sağlayan gizəmli gücün adı sevgidir. İçimizi kötü duyğulardan arındıran da odur. Düşünürəm ki, gerçək sevgi dar ortamlara sığmaz, sığamaz. İçimizdə haqqında danışdığım sevgi olmasaydı, böylə qorxulu

[20] Gizəm-sirr, gizəmli-sirli.
[21] Saytalman- möhtəşəm.
[22] Birey- fərd.
[23] Odaqlanmış- mərkəzləşmiş.
[24] Tinsəl- ruhi.
[25] Varsıl- zəngin.
[26] Olanaq- imkan.

yollara girməzdik. Gerçək sevgi gəldiyində ödləklik[27] yağızın içini tərk edər. Bunun üçün sanıram bir sürü çətin yollardan keçmək, bir çox denəmələrdən uğurla çıxmaq gərəkir. Çünkü ödləkliklə yağızın içini genişlədən böyük sevgi ikisi bir yerdə olamaz. Günal, sevgisindən vaz keçmədən öldü. Böylə öldüyü üçün də ölmədi. Yağızların tarixində sonsuzluğadək yaşayacaqdır. Bizi sonsuzluqla özdeşləşdirən[28] gücün adı sevgidir.

Sevilay Ərtayı dinlədikçə, içi sanki dərindən-dərinə aydınlanmaqda idi. Bu gizəmli gecədə yağız bir erkəkdən sevgi haqqında sözlər duymaq içini böyük bir güvənlə doldurmaqda idi. Ərtayın öskürtüləri arasıra qonuşmasını kəsirdi. Arxada Ülgən də onların aralarında keçən qonuşmaları onlardan xəbərsiz eşidirdi. Ülgən Ərtayı dinlədikçə, ona içdən-içə dərin bir güvən duyğusu hiss edirdi. Düşünürdü ki, böylə bir yağızla qorxunc yollarda yol yoldaşı olmaq olar. Ancaq Ərtayın ara-sıra qorxunc öskürəkləri Ülgəni də üzməkdə idi. Bu güclü yağız gənc nədən böylə sərt öskürürdü? Sevilay, damarlarında sevginin qaynayıb daşdığını hiss edirdi. İçindəki sevgini Ərtaya açmaq istəyirdi. Damarlarında tamurları[29] sərtçə çırpınmaqda idi. Bütün[30] varlığını sevgi sarmışdı. Ərtayın öskürəklərini eşitdikçə bu güclü yağıza sevgisini söyləmə və onu gücləndirmə duyğuları keçirdi içindən. Sonunda gözləri Günalın batdığı yerə baxaraq və dodaqları titrəyərək "Ərtay, sənin anlatdığın kimidir. Çox haqlısan sevgi ilə ilgili söylədiklərin doğrudur. Tam anlatdıqların kimi səni sevirəm" dedi.

Ərtay susmuşdu. Onun da gözləri Günalın boğulduğu dərəyə dikilmişdi. Köksünü ötürdü. Sevilayın boynuna sarılıb "Yurdumuzu qurtardıqdan sonra hər şey yaxşı olacaq. O zaman bütün yağızlar ağrılara qatlaşmadan sevib-seviləcəklər. Sevgimizin amacı özgürlüyümüzdür" dedi. İkisi də bir-birinə sarılıca Günalın boğulduğu dərəyə baxırdılar. Ülgən onları səssizcə dinləyirdi. Bu qutsal sevgi qonuşmaları qarşısında duyğulanmışdı. Gənc Ülgən göz yaşlarını tutamadı. Kimsə görmədən için-için və səssizcə, göz yaşları axıb gedirdi. İlk kəz idi iki yağızın böylə dərin sevgilərinə tanıq[31] olurdu. Ancaq oyaq olduğunu bildirmədi. Onların qonuşmalarını, onların bir-birinə sarılmalarını önləmək istəmədi.

Ərtay Sevilayın əlindən öpərək "Yarın erkəndən yola çıxmamız gərəkir. Bir az uyumamız lazım" dedi. Sevilay Ərtaydan ayrılmaq istəmirdi. Bir az duruxdu. Düşündü ki, yarın qızmar günəş altında uzun yolçuluğa

[27] Ödlək- Hər şeydən qorxan, hürkək.
[28] Özdeş- eyni, bənzər. Özdeşləşdirmək- eyniləşdirmək.
[29] Tamur- Nəbz (Qutatqu Bilik sözcüyü).
[30] Barça- bütün, tam (Altun yaruq sözcüyü).
[31] Tanıq- şahid.

çıxacaqlar. Ərtayın da dinlənməsi gərəkirdi. Bu üzdən "Əvət, bir az uyusaq, yaxşı olar" dedi.

***

Yağızlar erkəndən oyandılar. Günəş doğmaq üzrə idi. Dünkü bərk yağmurdan sonra torpaq yeni nəfəs almış, yaşıllıqlar səhər yelləri ilə dalğalanmağa başlamışdı. Yıpar[32] hər tərəfi sarıb doldurmuşdu. Yağızlar Bayquşyuvasında gecələdikləri barınaqdan dağın arxasına tərəf dırmaşmağa başladılar. Dağın arxası Balaxanbacası adlanırdı. Balaxanbacasından Çərənbil dağının göründüyünü eşitmişdilər. Ərtay iri gövdəsi ilə dağın doruğuna[33] doğru dırmaşırdı. Arxasınca da başqa yağızlar yavaş-yavaş dırmaşırdılar. Ən arxada Ülgənlə Sevilay bir yerdə dırmaşırdılar. Onların önündə Xamut və Yağıl yürüməkdəydilər. Ülgən və Sevilay Xamutla Yağıl arasında keçən söhbətləri duyurdular. Xamut sanki kimsənin duymasını istəmədən yavaşça Yağıla "Bu qədər uzun yolu getdikdən sonra bir də bunun geri dönüşü var. Çərənbil dağında bizi nələrin bəklədiyini də bilmirik" dedi.

Yağıl: Sanıram yola çıxmadan öncə nələrisə, doğruca ön görməmişik. Bir azdan yandırıcı günəş bizi bu sal qayalıqlarda yaxacaq. Sellərdən canımızı qurtarsaq da, qızmar günəşdən qurtara bilməyəcəyik.

Xamut: Sən nə düşünürsən? Geri dönmək qolay[34] olar, yoxsa irəliyə doğru yürüməkmi?

Yağıl: Bilmirəm. Başımızı dərdə soxduq. Geri də dönsək, bu kəz boyuzlar bizi tutuqlayacaqlar. Tutuqlayıb qaranlıq tünəklərə[35] atacaqlar.

Xamut: Düşünürəm də, bəlkə başımıza öylə qorxunc olaylar gələ bilər ki, tünəklərdə qalmaq ondan daha yaxşı olar.

Ülgən və Sevilay Xamutla Yağılın arasında keçən qonuşmaları dinləyib bir-birinə baxdılar. Səslərini çıxarmadan onların arxasındakı qayalıqdan dırmaşırdılar.

Ərtay doruğa ulaşmış arxasınca gələn arxadaşlarını bəkləyirdi. Tam bu sırada Xamutun "Yardım edin, yardım edin, düşürəm" fəryadı yüksəldi. Xamutun ayağı qaymış[36] düşmək üzrə ikən, bir turşəng* budaqcığına yapışıb sallanmaqda idi. Oradan qopsaydı, dərənin dərinliyinə düşücəkdi. Ərtay

[32] Yıpar- xoş qoxu (Altun yaruq sözcüyü).
[33] Doruq-zirvə.
[34] Qolay-asan.
[35] Tünək- zindan. (Kaşqarlı sözlüyü)
[36] qaymaq- sürüşmək.
* Turşəng- turş dadı olan yeməli bitki.

onun yardımına qoşdu. Əlini uzadıb Xamutun əlindən yapışıb qurtarmasına yardım etdi. Xamut qurtulub zirvəyə ulaşdıysa da, Ərtaya bir "sağ ol!" da demədi. Xamutun üzündə qorxunc peşmanlıq və güvənsizlik duyğusu var idi. Ərtay heç bir söz söyləmədi. Zirvədə bir yerə toplaşdılar. Balaxanbacası daha qorxunc bir dərəyə doğru uzanmaqda idi. Onlar bu qorxulu yollardan keçəcəkdilər. Çox uzaqda Başı dumanlı bir dağ çətinliklə görünürdü. Ərtay yanında duran Güvənala "Görürsənmi? Oraya gedəcəyik biz" dedi. Güvənal yanıtlamadan öncə Yağıl "Çox uzaqdır. Aylar sürəcək oraya varışımız" dedi. Xamut üzünü Ülgənə tutaraq "Bügü Bilay dədə də çox uzaqlara getmiş. Bu yaxınlarda bir yerdə gizlənə bilməzdimi?" dedi. Ülgən heç bir şey söyləmədi. Ərtay araya girib "Bilay dədə ən doğru olanı etmiş. Ən doğru yerə yerləşmiş" söylədi. "Burda bir az dincəlib yola düşəcəyik" deyə davam etdi.

Güvənal Yağılın və Xamutun davranışlarından incik idi. Ancaq danışmamağı, susmağı seçmişdi. Günortaya doğru hava aşırı biçimdə isinməkdə idi. Güvənal bərk susamışdı. Dağın zirvəsində su bulunmayacağını bilirdi. Bir az kənarda əvəliyin geniş yarpaqları üzərində dünkü yağmurdan qalan su damlaları var idi. İçmək istərkən, arxadaşlarına "Susamış olanlar varmı? Bir azdan su bulunmayacaq. Otların üzərindəki suları qullanmalıyıq" dedi. Xamut və Yağıl əvəliyin üzərində birikmiş suyu içməyə qoşdular. Güvənal geriyə çəkilib onlara yol verdi. Əvəliyin üzərindəki su birikintilərini başqalarının susuzluqlarına aldırış etmədən içdilər. Xamutla Yağılın bu davranışları yağızları incitsə də, kimsə bir söz söyləmədi. Çətinliklərlə qarşılaşdıqca yağız bireylərin gerçək kimlikləri ortaya çıxırdı. Bu an yağızların diqqəti Ərtaya yönəldi. Ərtay Sevilaya söykənmiş sərtçə öskürürdü. Savunal və Güvənal Ərtayın durumunu sordular. Sevilayın üzündə dərin kədər görünürdü. Ərtay özünü toparlayıb "Arxadaşlar, zamanı itirmədən yola çıxmalıyıq. Içinə düşdüyümüz çətinliklər bizim görəvimizi unutdurmamalıdır. Unutmayalım ki, soyumuz, boyuzların basqısı altındadır" dedi. Yağızlar Balaxanbacasından Çərənbil dağına tərəf yola düşdülər. Xamut və Yağıl ən arxada qalmış danışırdılar. Onların yaxşı qonular danışmadıqlarını yağızlar bilirdilər. Ancaq qarışmaq istəmirdilər. Daha öndə gedən Ərtayın dərin rahatsızlığı olsa da, bunu bəlli etməməyə çalışırdı. Özay Ərtayın arxasınca yürüməkdə idi. Birdən Ərtay halsızlaşıb bayıldı. Özay Ərtayı tutmasaydı dərəyə yuvarlanacaqdı. Ərtay bayılmışdı. Yağızlar yardımlaşıb Ərtayı Balaxanbacasının kiçik bir təpəsinə daşıdılar. Xamut bayqın Ərtaya baxıb "Bir-bir hamımız bu qızmar günəşin altında öləcəyik. Yaxşısı budur ki, geri dönəlim" dedi.

Yağıl: Məncə də. Ərtayı da alıb geri dönəlim. Bizim içimizdə ən iri gövdəli Ərtaydır. Ərtay sayrulaşırsa[37], biz də gec-tez sayrulaşıb öləcəyik.

Özay: Nə danışırsınız? Nə geri dönmək? Geri dönüb boyuzların qaranlıq tünəklərində ölməliyikmi? Bizlər geri dönmək üçünmü yola çıxdıq? Günalı bunun üçünmü itirdik?

Sevilay çox gərgincə "Arxadaşlar, bu an biz Ərtayın sağlığını düşünməliyik" dedi.

Savunal: Əvət, Ərtayın sağlığı çox önəmli.

Güvənal: Ərtay üçün özəl daşıyacaq düzəldəlim. Onun içinə qoyub çiyinlərimizə alıb Çərənbil dağına tərəf yürüyəlim.

Ülgən susqunca durmuşdu. Gözlərini çox uzaqlarda görünən Çərənbil dağına dikib "Ərtayı Çərənbilə çatdıra bilsək, bəlkə atam onun sayruluğunu da gedərə bilər. Anamdan alpərənlik törəsində "yağızçarə" adında sayruluqları sağaltma bilgisinin də olduğunu duymuşdum. Alpərənlərdə ataçlıq[38] da olurmuş. Atam məncə, Ərtayın sayruluğuna bir çözgə[39] qılar" dedi.

Bu zaman Ərtay bir az özünə gəlmək üzrə idi. Sevilay Ərtayın başını qucağına almışdı. Ərtayın gövdəsi tir-tir titrəyir, bərk də öskürürdü. Ərtayın özünə gəlməsini görən Yağıl "Ərtay, Xamutla mənim düşüncəmiz geri dönməkdən yana. Sən nə deyirsən? Bu sayru durumunla səni Bilay dədəyə çatdıra bilmərik" dedi.

Xamut: Geri dönüb boyuzlardan bağış diləyəlim. Düşlərimiz[40] bizi aldatdı deyəlim. İnanın ki, bizim abartdığımız kimi, boyuzlar çox da kötü deyillər.

Ərtay başını Sevilayın qollarından qaldıraraq "Siz hansı inanc və duyğu ilə yola çıxdınız? Bir az çətinliklərlə rastlanmışsınız deyə geri dönmək istəyirsiniz! Geri dönərsək, bütün yağızlarda düşqırıqlığı oluşar. Sonsuzluğadək köləliyə məhkum edilərik. İnanın ki, bu an milyonlarca yağızın umutları bizik. Alpərənlik bilgiləri ilə geri dönüb onları qurtaracağımızı bəkləyirlər. Ayrıca, geri dönərsək, tək alpərən olan Bilay bügünü də bir dəfəlik itirə bilərik. Çünkü O da yaşlanmış olmalı. Ölürsə, artıq bizim alpərənlik keçmişimizlə bütün bağlarımız qobacaq, qırılacaq. Böyləcə də qurtuluş düşüncəmiz tarixdən silinər" dedi.

---

[37] Sayru- xəstə. Sayrulaşmaq-xəstələnmək (Füzuli qəzəlləri sözcüyü):
"Qəm yolunda mən qalıb getdiysə, məcnun yox əcəb
Sayruya düşvar imiş, yoldaşlıq etmək sağilə"
Günümüzdə gözün **sayruma**sında daha sıx qullanılır.

[38] Ataç- doktor. Ataçlıq-doktorluq. (Qutatqu bilik sözlüyü).

[39] Çözgə- çarə.

[40] düş- xəyal.

Özay: Çox doğrudur. Biz yalnız irəliyə doğru getməliyik.

Güvənal: Zaman itirmədən Ərtayı omuzlayıb[41] gedəlim.

Savunal: Ərtayı mən omuzuma ala bilərəm. Daşıyacağa gərək yox məncə.

Ərtay: Dəyərli arxadaşlar, sizə çox önəmli qonu ilə ilgili danışmaq istəyirəm.

Ülgən: Buyur Ərtay!

Ərtay: Siz mənim sayruluğumla ilgi bilgisizsiniz. Sanıram mənim yaşamım sona ərməkdədir.

Sevilay: Öylə qonuşma Ərtay! Sən yaşayacaqsan.

Ərtay: Hər tək-təkimiz alpərənlik haqqında bir şeylər duymuşuq. Nə olduğunu tam bilməsək də. Örnəyin bilirik ki, alpərənlikdə günəşə və qılıca and içilir.

Özay: Doğrudur.

Ərtay: İndi sizlərdən istəyirəm ki, bu yoldan dönməməniz üçün başımızın üstündə parlayan günəşə and içəsiniz.

Yağızlar bir yerdə and içdilər. Ancaq Xamut və Yağılın səsləri içdən deyildi. Yağızların and içməsindən sonra Ərtay "Məni omuzlarınıza alıb, ya da bir daşıyacaqda daşısanız, Çərənbil dağına varmamız çətinləşəcək, ya da heç mümkün olmayacaq. Yağızların qurtuluşu mənim yaşamımdan daha önəmli. Məni burda buraxıb Çərənbil dağına doğru böyük istənclə yürümənizi istəyirəm" dedi.

Sevilay ağlayaraq: Ərtay, səni burda necə buraxa bilərik?

Güvənal: Səni burda buraxıb getməmiz yoldaşlıq ilkələrinə ayqırıdır[42]. Doğru olmaz.

Ərtay: Mən bir yağız qoşuğu əzbərləmişdim çocuqluğumda. Bəlkə sizlər də əzbər bilərsiniz. Böylə idi:

"Ol uzaqlıqlardakı min türlü gizlər səslənir,
Yaş keçir, köksümdə ancaq türlü sirlər bəslənir
Bu dağılmış hislərim, məndən qaçıb hər kəslənir
Möhkəm ol kim bu çətinliklər səni heç yıxmasın,
Yoldaş oldur kim, qaraa günlərdə yoldan çıxmasın."

Bu şeiri mən çox sevərdim. Bəzi yağızlar bu qoşuğu mahnı olaraq söylərlər. Ancaq bu şeir, sanki bizim yoldaşlıq sevgimizi anlatmaqdadır. Sizlərin Çərənbil dağına varmanızı istəyirəm. Geri dönüb yurdumuzun və yağızların qurtuluşu yolunda savaşmalısınız. Çox şərəfli bir yaşam biçimidir

[41] Omuz- çiyin. Omuzlama-çiyinə almaq.
[42] Ayqırı- tərs, zidd.

bu. Mən də sizinlə olacağam. Günal da. Biz yağızların qurtuluşu üçün yola çıxmışıq. Ölümümüz də bu qurtuluş üçün olmalıdır.

Yağızlar səssizcə, Ərtayı dinləyirdilər. Ülgən və Özay göz yaşlarını çətinliklə tuta bilmişdilər. Sevilayın göz yaşları durmadan axıb Ərtayın köksünə damlayırdı. Güvənal köks ötürüb "Ərtay, sən olmasaydın, biz bu yola çıxa bilməzdik. Sən bizi ürəkləndirdin" dedi.

Savunal: Doğrudur. Sən gerçək bir yağızsan. Bizim böyüyümüzsən. Səni buraxıb getmək doğru olmaz.

Ərtay: Məni buraxıb getməyəcəksiniz. Mən yalnız ölmək istəmirəm. Sizlərdən başqa bir istəyim olacaq.

Güvənal: Buyur söylə Ərtay!

Ülgən: Ərtay, sənin sayruluğun bu qədərmi ağır. Tusu[43] bulmazsanmı?

Özay: Əvət, sənin sayruluğun nə? Nədən böylə öskürüb titrəyirsən?

Xamut: Bizim yanlış yola girməmiz Ərtayın başını dərdə soxdu. Çətin yollar Ərtayı sayrulaşdırdı.

Yağıl: Ərtayı da alıb geri dönəlim. Geri dönüş yolumuz daha yaxındır.

Ərtay: Sevgili Xamut və Yağıl, Sizlər bu gücsüz istəncinizlə yağızların köləliyini onaylamaqdasınız. Geri dönmək istərsəniz, dönün. Ancaq irəliyə doğru getmək istəyənlərin istəncini etkiləməyin. Mənim tusu bulmam olanaqsız. Sizlər Bilay bügüyə varmalısınız. Yalnız sizlərdən bir istəyim olacaq.

Sevilay: Nədir istəyin Ərtay?

Ərtay: yalnızca qalıb gücsüzləşib, gücümü itirib ölmək istəmirəm.

Ülgən: Nə etməmizi istəyirsən?

Ərtay dərənin dərinliklərində çağlayan suları göstərib "O çağlayanın[44] çağlar dərinliklərində ölmək istəyirəm. Günal kimi, fırtınaların qoynunda. Ölümün məni aşağılamasını istəmirəm. Mən özgürlüyümüz yolunda savaşıb ölmək istəmişdim. Bu böyük mutluluq mənim yazqımda[45] yox imiş. Sizlər böylə edərsiniz" dedi.

Yağızlar Ərtayın sözlərini diqqətlə dinləyirdilər. Ərtay tir-tir titrəyir, sərtcə öskürürdü. Öskürəyinə ara verildiyində özünü toparlayıb danışırdı. Yağızlar Ərtayın ölüm biçimini seçməsi qarşısında şaşqın idilər. Ərtay bir az kənarda bir günəbaxana sarılan sarmaşığı göstərib "O sarmaşığı qırıb gətirə bilərsinizmi?" dedi. Sevilay Ərtayın başını qucağına almışdı. Erkək yağızlar sarmaşığı torpağa bağlandığı yerdən gəmirib qopardılar. Uzun sarmaşığı sürükləyib gətirdilər. Daha sonra Ərtay bir daşa işarə edərək "O yumuru daşı

[43] Tusu- şəfa (Kaşqarlı sözcüyü).
[44] Çağlayan- şəlalə.
[45] Yazqı- aqibət, taleh.

da gətirin!" söylədi. Yağızlar yumru-yuvarlaq daşı da gətirdilər. Ərtay "Sizdən istəyim budur ki, məni sərtçə sarmaşıqla sarıyıb bu daşa bağlayın. Öylə bağlayın ki, açılma olasılığı[46] olmasın" dedi.

Yağızlar Ərtayı dinləməkdən başqa çözgələri yox idi. Səssizcə Ərtayın dediklərini edirdilər. Ərtayı Sevilayın qucağından alıb titrək gövdəsini yumru-yuvarlaq daşa sarmaşıqla bərk-bərk sarıdılar. Ərtay son sözlərini yoldaşlarına bu şəkildə söylədi: "Arxadaşlar, mən gücsüz yağız deyiləm. Mən güclü ölməyi seçdim. Hər bir yağız güclü ölməlidir. Ölüm bizim istəncimizi söndürə bilməz. Qurtuluş və özgürlük yağızların haqqı. Mən gerçək bir yağız kimi ölmək istəyirəm. Ölümün məni aşağılamasına izin verməm. Sizlər əsən qalın. Məni unutmayın. Hər zaman sizinlə olacağam. İndi sizdən istəyirəm ki, bu daşı dərənin dibinə, çağlayanın çağladığı yerə yuvarladasınız."

Yağızlar o an Ərtayı öz komutanları kimi görürdülər. Onun dediklərini buyuruq olaraq qəbul edib uyqulayırdılar. Səssizcə daşın altına girib yuvarlatmaq istədilər. Bu zaman Ərtay "Sevilay, səni sevirəm. Unutma, sən sevilməyə layiq yağız qızısan. Əsən qal Sevilay" dedi. Sevilay artıq ağlamırdı. Şaşqınlıq içində durumu izləməkdə idi. Öz-özünə "Alpərənlər böylə ölürlər. Sən bir alpərənsən. Mən də səni sevirəm. Ruhumda sürəkli yaşayacaqsan Ərtayım" pıçıldadı.

Daş yuvarlanmağa başlamışdı. Dərənin diblərinə doğru yuvarlandıqca arxasında toz-torpaq yüksəlirdi. Yağızlar çağlayana doğru yuvarlanan yuvarlaq daşa şaşqınca baxırdılar. Yuvarlaq daş bir qayaya sərtcə toxunub havaya fırlandı. Fırlana-fırlana dərənin dibində çağlayanın tam ortasına düşdü. Su, yuvarlaq daşı bağrına alıb görünməz etdi. Yağızlar durduqları təpənin başından bir sürə çağlayana baxdılar. Ərtaydan xəbər çıxmadı.

***

Ərtayın ölümü yolçu yağızları sarsıtmışdı. İçlərində ən irisi, ən güclüsü Ərtay idi. Onun ölümü ilə yolçuluq bir çox çətinliklərlə rastlanacaqdı. Xamut və Yağıl Ərtayın ölümündən sonra öz quşqularına[47] daha da yenildilər. Limlidən daha çox uzaqlaşmadan geri dönmələrini düşünürdülər. Yağızlar onların arxada nələr danışdıqlarına aldırış etmədən irəliləyirdilər. Onlar isə, öbəkdən[48] arxada qalmış geri dönmələrini

[46] Olasılıq- ehtimal.
[47] Quşqu- şübhə.
[48] Öbək- dəstə.

danışırdılar. Ülgən geriyə dönüb baxdı. Xamutla Yağılın geriyə dönüb Limliyə tərəf getdiklərini görüb arxadaşlarına "Onlar geri döndülər" dedi.

Özay: Geri dönmələri daha yaxşı.

Güvənal: Heç də yaxşı deyil. Onları boyuzlar bizimlə yoldaşlıqlarından dolayı basqı altına alacaqlar.

Savunal: Bəlkə bir sürə basqı altında qala bilərlər. Ancaq böylə ərəksiz[49] və istəncsiz[50] yağızlar boyuzlarla işbirliyinə girib yağızları əzməkdə yardımçı olarlar.

Ülgən: Bu yalqular[51] yararsız yaradılış. Onlardan yağızlara yarar gəlməz.

Sevilay: Əvət, onlar qurtuluşa olan inanclarını itirdiklərindən dolayı hər tür işbirliyinə və kəndi soylarına qarşı çıxmağa yatqındırlar.

Özay: Xamut və Yağıl yavlaqla[52] işbirliyi yabacaq türlər.

Yağızlar sarsılmaz istənclə Çərənbil dağına doğru irəliləməkdəydilər. Çətin yollardan keçdikçə, arxadaşlıqları da denənmiş[53] olurdu. Yağızlar kimikəz[*] ölümünədək bir-birləri üçün özverilikdə bulunur, canlarını bir-birləri üçün təhlükəyə atırdılar. Çətin yollar onların yoldaşlıqda necə güvənilir olduqlarını üzə çıxarırdı. Beş yağız bu qorxunc yolçuluqda inanılmaz özverilik göstərərək, uçurumlardan, qorxunc dərələrdən keçərək, Çərənbil dağına doğru yürüyürdülər. Bu irəliləyiş onları birər savaşçı düzeyinə yüksəldir, inanclarını sarsılmaz etməkdə idi.

Çərənbil dağının ətəyinə varmışdılar. Çərənbil dağından qopub dərənin dibində yerləşən bir neçə böyük qaya var idi. Dəvədən yüksək olduğu üçün bu daşlara dəvədaşı deyilirdi. Yazın ən qorxunc yağmurlarından oluşan sellər də dəvədaşlarını yerlərindən tərpədə bilməmişdi. Daşın üzərində çox əski yağızların yazıtları var idi. Başqa ölkələrə köçən yağızlar dəvədaşının üstünə anılarını yazıb ayrılmışdılar. Gənc yağızlar dəvədaşının üstünə dırmaşdılar. Əski xətlərlə yazılan yazıtları oxuya bilməsələr də, bu yazıların önəmli tarix bilgilərini içərdiklərini[54] içdən-içə sezirdilər. Bilay bügüyə yaxınlaşmışdılar. Bilgə dədənin bu yazıtlarla ilgili bilgisinin olacağına inanırdılar. Bəlkə də dəvədaşlarının üzərindəki yazıtlarda onların öyrənmək istədikləri alpərənlik quralları[55]

[49] Ərək- hədəf.
[50] İstəncsiz- iradəsiz.
[51] Yalqu- axmaq (Kaşqarlı sözlüyü).
[52] Yavlaq- düşmən (Altun Yaruq sözlüyü).
[53] Denənmiş- təcrübədən çıxmış.
[*] Kimi kəz- bəzən.
[54] İçərmək- ehtiva etmək.
[55] Qural- prinsip, qayda.

yazılı idi. Yağızlar yayın qızmar günəşi altında dəvədaşının üstündə bir az dincəlib yola çıxmaq istədilər. Sıldırımlı sal qayalardan Çərənbil dağının zirvəsinə doğru dırmaşacaqdılar. Günəşin sıcaqlığı yorğun yağızları yuxuya apardı. Yorğunluq üzündən dadlıca yuxuya daldılar. Qısa sürə keçmişdi. Sevilay mahnı səsinə oyandı. Dəvədaşının üstündən boylanıb ətrafa baxdı. İnsan evladları olan qızlar yarpız, bulaqotu yığıb mahnı oxuyurdular. Sevilay arxadaşlarını oyadıb "Arxadaşlar, oyanın. Oyanın görün insanlar necə gözəl mahnı söyləyirlər" dedi. Yağızlar oyandılar. Qızlar arxın kənarlarında və içində yarpız və bulaqotu dərib mahnı söyləyirdilər. Qızlar ağız-ağıza bu mahnını birlikdə söyləyirdilər:

"Sən mənim könlümdə unudulmadın
Dağları, daşları aşıb gələrəm.
Hər zaman qutsaldır qəlbimdə adın
Mən səni düşünüb coşub gələrəm.

*

Geciksəm, üzülmə, yollar çox uzaq
Uzaqlar bağrında ürəyim tutsaq
Duraqlamaz könlüm, yorulmaz ayaq
Sel olub dərinlər aşıb gələrəm.

*

Sən incə duyğulu güldən incəsən
Ruhum qaranlığa batar, incisən
Əgər gəlməz olsam, məndən inci, sən
Güntayam, yollara düşüb gələrəm."

Yağızlar qızların birlikdə söylədikləri mahnılara zövqlə qulaq asdılar. Günəşin ışınları[56] Batıya doğru əyilmişdi. Qızlar mahnı söyləyə-söyləyə uzaqlaşıb getdilər. Yağızlar da dəvədaşının üstündən enib Çərənbil dağının zirvəsinə doğru dırmaşmağa başladılar.

***

Yatsı[57] vaxtı idi. Yağızlar dağın zirvəsinə varmaq üzrə idilər. Dolunayın gizəmli işığı hər tərəfi sarmışdı. Doğuya tərəf uzaqlarda üfüqlər yerə enib qovuşmuşdu. Bəyaz gecənin dərinliyində bir qartal qanad çalmadan süzüb gedirdi. Çərənbil dağının doruğundan dolunayın işığında

[56] Işın- şüa´.
[57] Yatsı- gün batışından iki saat sonra.

çox uzaqlarda Limli görünməkdə idi. Yağızlar artıq tam olaraq dağın doruğundaydılar. Bu zaman bir çögür[58] səsi duydular. Çögür səsinin gəldiyi yönə doğru yavaş-yavaş yürüdülər. Qocaman bir yağız qılıcını yanına buraxmış, çögürünü bağrına basmış "irfani" havası çalırdı. Bilay bügü idi. Ülgən atasını görmək üçün tələsirdi. İrəliyə atılıb "ata!" demək istərkən, sağdan Özay, soldan da Güvənal əlləri ilə Ülgənin irəliləməsini durdurdular. Savunal yavaşca "Ülgən, dur!" dedi. Sevilay da səssizcə Ülgənin qulağına "Arxadaşlarımız doğru söyləyirlər, bəkləyəlim Bilay dədə Tanrı ilə söyləşisini bitirsin sonra" pıçıldadı.

Güvənal: Bilay bügü özünə və çögürünə dalmış. İndi yanına varsaq da bizi görməz ola bilər bu durumu ilə.

Savunal: Bəkləyəlim Bilay dədə çögür çalmağı bitirsin sonra.

Özay: Bəkləməliyik. Bilay dədəni bu ruh halından ayırmaq doğru olmaz. Görürsünüzmü? O, bütün varlığı ilə özünü çögürə vermiş. Ən doğrusu onu dinləməkdir, dinləyəlim.

Savunal: Dinləyəlim. Bir alpəräni bu ruh halı ilə görmək də bir fürsətdir. Baxalım görəlim Bilay dədə nə edəcək?

Güvənal: Əvət, arxadaşlar, səssizcə dinləyəlim Bilay dədəni.

Ülgən arxadaşlarının söylədiklərini usluca[59] gördü. Səssiz qalıb Bilay dədəni dinləmək istəyirdilər. Bir az daha səssizcə irəliləyib Bilay alpərəni yaxından görmək istədilər. Bilay alpərənin qılıcı yanında dolunayın işığı altında parlayırdı. Çögürünə kəndisini qapdırmış coşqu ilə "irfani" havasını çalırdı. Bilay alpərənin üzü də açıqca görünürdü. Yaşlı alpərənin gözləri ay işığı altında ara-sıra açılıb parlayırdı. Bilay alpərən gözlərini qapamış çögür çalmaqda idi. "İrfani"[60] havasının ən coşqulu yerində Bilay alpərən qoşuq[61] söyləməyə başladı. Çaldığı "irfani" havasını övürdü. Bilay alpərənin olqun bəm səsi irfani çögür havası ilə bir yerdə bəyaz gecənin səssizliyini qırırdı:

"Çağlayıb içimi işıqla doldur
Məni özlüyümə bağla İrfani
Yaşam aşırımlı, sonsuz bir yoldur
İçimdə özgüvən sağla İrfani.

*

Baxdım da göylərə, sonsuz uzaylar
İçimdə yüksəliş həyəcanı var
Dolub dalğa—dalğa içərimi sar

[58] Çögür- saz, bağlama.
[59] Usluca-ağıllıca.
[60] İrfani- ünlü Azərbaycan saz havalarından biridir.
[61] Qoşuq- şeir.

Sirli fəryadınla çağla İrfani.

*

Hardan qaynaqlanır bu sevda səsi?
Kükrəyib yüksələn eşqin nəğməsi?
Bu duyğu yükümlü sirli nəfəsi
Bütün çağlar üçün saxla İrfani.
Məni özlüyümə bağla İrfani."

Bilay alpərənin etkiləyici səsi bütün varlığı sarmışdı. Sözlərdəki anlam dərinliyi səssizcə dinləyən yağızları şaşqına çevirmişdi. Özəlliklə Bilay alpərənin səsindəki güc və etkiləyicilik yağızların ruhlarının dərinliyinə uzanırdı. Hər yağızın içində böylə bir soru dolaşırdı: "İllər boyu yalnız başına yaşamış Bilay dədənin səsindəki bu mutluluq gücü hardan qaynaqlanır? Uzun sürəli yalnızlıq onun ruhunu sarsıtmamışmı?" Yağızlar səssizcə, dinləməkdəydilər. Bilay alpərən İrfani havasında oxuduğu qoşuğu bitirmişdi. İrfani də bitmişdi. Bir sürə səssiz durdu. Daha sonra çögürünü qılıcının yanına buraxıb ayaqları üzərində qalxıb əllərinə göydəki dolunaya tərəf uzadaraq yüksək səslə başqa bir qoşuq söyləməyə başladı:

"Alpərənlik halları, içərimə töküldü
Ərənlər tərəfindən doğru yola qoyuldum
İçərimdə mutluca, bir danyeri söküldü
Ərmişlik sevgisindən, inancından yoğruldum

*

Köksündə fırtınalar, daşıyan alpərənlər
Addım-addım böyüklük, zirvəsinə qoşarlar
Önləyəməz onları, yalnızlıqlar və kədər
Çünkü inanclarında, böyük sorumluluq var.

*

Alpərənlər üstünə, qorxar gələməz ölüm
Ölüm çəkingən olur, bilər kəndi yerini
Alpərənlər yaşamaz, yaşamı bölüm-bölüm
Kəndiləri seçərlər, ölüm biçimlərini

*

Alpərənlik bir yağız, savaşçının halları
Onlar mutlu ölməyi, başaran qəhrəmanlar
Sonsuzluqda dolaşar, onların xəyalları
Onlar üçün ölüm yox, əbədi yaşamaq var."

Bilay bügünün etkiləyici səsi və söylədiyi qoşuğun sözləri gənc yağızları yerlərindəcə, şaşırdıb yerə mıxlamışdı sanki. İllər boyu yalnız yaşamış Bilay alpərənin duruşunda yenilgə[62] və umutsuzluq sezilmirdi. Yağızların içini gizəmli bir güc sarmışdı. Nə edəcəklərini bilmirdilər. Bilay alpərən sonsuz evrənlə qonuşmasını bitirmiş, qılıcının və çögürünün arasında oturmuşdu. Yağız gənclər Bilay alpərənlə necə rastlanacaqlarını bilmirdilər. Bir sürə səssizlik bu biçim sürdü. Birdən Ülgənin "Ata!" söyləməsi gecənin səssizliyini qırdı. Ülgənin bu səsi Bilay dədənin sanki yeddi qatından keçdi. Bilay dədə öncə başını qaldırmadan içini sarmış olan bu dadlı səsin zövqünə daldı. İllər boyu bu sözü oğlunun səsi ilə duymaq diləmişdi. Bilay dədə dalğın idi. Ülgən özünü toparlayıb var gücü ilə yenə də "Ataaaa!" deyə bağırdı. Bu an Limlidə bir neçə yağız yatdıqları yerdə ilginc yuxu görürdülər. Yuxularında bir hayqırtı səsi duyub diksindilər. Yuxuları qaçdı.

Bilay alpərən yavaş-yavaş geri dönüb baxdı. Dağlarda yanqı[*] bulan Ülgənin "Ata!" fəryadı dərin dərələrdə dolaşırdı. Ülgən onun yaxınlığında durmuşdu. Ulduzlar göydə par-par parıldayırdı. Aydınlıq gecənin gizəmli ortamında[63] ata ilə oğul qarşı-qarşıyaydılar. Ülgən "Ata, ata can" deyib Bilay alpərənin qucağına təpildi. Bilay dədə əllərini açıb heç bir söz söyləmədən oğlunu bağrına basdı. Bu duruma seyirci olan gənc yağızlar göz yaşlarını tuta bilmədilər. Ata ilə oğul heç bir söz söyləmədən bir sürə bir-birlərinə sarılı qaldılar. Savunal "Bir az bəkləyəlim ata-oğul yalnız qalsınlar. Daha sonra Bilay dədəyə vararıq" dedi. Başqa yağızlar onun bu sözünü onaylamaq anlamında səssizcə başlarını aşağıya doğru tərpətdilər. Ancaq içlərində o günədək yaşamadıqları ilginç hallar doğmuşdu. Özay "Gəlməkdə nə qədər haqlı olduğumuz anlaşılır" söylədi. Başqa üç yağız Özayın düşüncəsini gücləndirmək üçün bir yerdə gizəmlicə köks ötürüb "Əvət, çox doğruca etmişik gəlməkdə" pıçıldadılar. Bir sürə daha bəklədilər. Bilay dədə ilk kəz gördüyü oğlunu yaxşıca qoxlamışdı. Yağız gənclər yerlərindən qalxıb Bilay bilgəyə doğru yavaş-yavaş yürüdülər. Oğluna sarılı olan Bilay bügü yağız gənclərin ona doğru gəldiklərini gördü. Oğlunu buraxıb gələn yağızlarla da qucaqlaşıb görüşmək istədi. Yağız gənclər Bilay dədənin önündə baş əyib sayqılı duruş sərgilədilər. Bilay bügü yaxınlaşıb yağız gəncləri bir-bir bağrına basıb və bəm səsi ilə "Balalarım, çox yaxşı edib gəlmişsiniz. Gəlişiniz məni çox sevindirdi. Uzun illər boyunca, yalnız yaşamıma baxmayaraq, sürəkli yağız gənclərin bir gün gələcəklərini düşləmişəm. Bu

[62] Yenilgə- məğlubiyət.
[*] Yanqı- əks səda.
[63] Ortam- mühit.

düşlər məni yaşatmış, məni güclü qılmışdır" dedi. Yağızlar yaşlı yağız alpərənin üzündə böyük düha və aydınlıq görürdülər. Alpərən Bilayın davranışları, qonuşma biçimi, anlamlı baxışları gənc yağızları dərindən etkiləmişdi. İlk andan gənclərin içi olumlu[64] güclərlə dolmağa başlamışdı. Bilay dədənin üzündəki işıq gənc yağızların könüllərində yeni umut uçları[65] açmışdı. Bilay dədə içlərində devrimci güc barındıran yağız gənclərin gəlişlərini uzun illər boyu düşləmişdi. Yaşlandıqca ara-sıra umutsuzluğa qapılmışdı. Çünkü yağızlar dünyasında o, son alpərən idi. Ölsə idi, alpərənlik düşüncəsi, alpərənlik törələri onunla birlikdə torpağa gömüləcəkdi. Yağızların alpərənlik törəsinin tarixdən silinməsindən qorxurdu. Artıq Bilay dədənin bu gəncləri eyitdikdən, onlara alpərənlik törələrini, bilgi və davranışlarını öyrətdikdən sonra ölümdən qorxmasına heç bir gərəkçə[66] qalmayacaqdı. Bügü yağız Çərənbil dağının zirvəsində yalnız yaşamı üçün bir yuvacıq qurmuşdu. Gənc yağızlarla bir yerdə bir dəliyə doğru yollandı. Dəlikdən içəriyə, dağın başında yerin altına girdilər.

***

Yorğun gənc yağızlar gecəni dadlı-dadlı yatdılar. Sabah yuxudan oyandıqlarında Bilay dədəni yatdığı yerdə görmədilər. Bilay dədə erkəndən oyanıb dışarı çıxmışdı. Dəlikdən içəriyə girən günəş ışınları yuvanı aydınlatmaqda idi. Yağızlar gözlərini ovalaya-ovalaya yuxudan oyandılar. Bilay dədənin yuvasını diqqətlicə izləmək istədilər. Yuvanın bir yerində Bilay dədənin taxıl anbarı var idi. Divarlara yağız dilində bəzi sözlər yazılmışdı. Yağızlar yuvanın bir yerində divara yazılan yazıları oxudular. Bilay dədənin yuvasının divarlarına yağızların törələri və kimlikləri ilə ilgili sözlər yazılmışdı. Ülgən bir cümləni yüksək səslə oxudu: "Ey yağız soyu, göy çökmədikçə, yer dəlinmədikçə, sənə çöküş yoxdur." Bir başqa yazını Savunal oxudu: "Ey yağız soyu, sən kəndin olduğunda böyük olursan. Kəndinə dön, kəndin ol, böyüklüyünü bulmuş ol!" Bu sözlər gənc yağızları iliklərinə qədər etkiləyirdi. Bir-birinin üzünə baxıb susqunca divar yazılarını oxuyurdular. Yuvanın dışarıya çıxışına yaxın bir yerdə bir silah anbarı var idi. Par-par parıldayan qılıclar. Bilay dədə sarıtikandan yüzlərcə silah düzəldib yuvasının bir yerində anbarda düzənlicə düzmüşdü. Qılıclar o qədər çəkici görünürdü ki, yağızlar anbara girib qılıcları əllərinə alıb toxunmaq istədilər. Sevilay "Arxadaşlar, Bilay dədədən izinsiz girməzsək, yaxşı olar"

[64] Olumlu- müsbət, pozitiv.
[65] Uç- üfüq.
[66] Gərəkçə- səbəb.

söylədi. Yağızlar Sevilayın düşüncəsini qəbul edib anbara girməkdən vaz keçdilər. Bu an dışarıdan Bilay dədənin səsi eşidildi. Sanki biri ilə savaşır, qılıclaşırmış kimi, səsi duyulmaqda idi. Yağızlar tələm-tələsik dışarı qoşdular. Bilay dədə Çərənbil dağının zirvəsində erkəndən oyanıb qılıc oynatmaqda idi. İki qılıcla savaş məşq edirdi. Gənc yağızlar bir az utandılar ki, Bilay dədə erkəndən oyanıb savaş məşq etməkdə ikən, bunlar yuxuya qalmışlar. Ancaq daha sonra utanmaq duyğusunun yerini başqa duyğular almaqda idi. Onlar bu son alpərənin qılıc oynatması qarşısında şaşqına dönmüşdülər. Bilay dədə iki qılıcla savaş denəməsi yapırdı. Günəş Doğudan Güneyə doğru yüksəldikçə, hava isinirdi. Bilay dədə tərləmişdi. Saatlarca qılıc çalıb savaş fənlərini denədi. Sonunda yüksək səslə bağıraraq qılıcları ilə bir vuruşla önündəki qanqalı vurub ikiyə bölüb aşırdı. Yağız gənclər içdən-içə son alpərəni alqışlayırdılar. Tövşüyə-tövşüyə nəfəs alan Bilay dədə "Yarından düzənli olaraq dərslərimizə başlayacağıq. Bu gün də gəzib dolaşın. Bu çevrəni yaxşıca tanıyın. Daha sonra boş vaxtımız olmayacaq" dedi. Yağızlar Çərənbil dağının çevrəsini o gün yaxşıca gəzib dolaşdılar. Dağın zirvəsindən uzaqlarda iki ölkə görünürdü. Doğuda İdəli ölkəsi, Batıda da Limli ölkəsi. Onlar yenidən Limliyə geri dönmək, Limlini qurtarmaq, azad etmək üçün bu çətin yolçuluğa çıxmışdılar.

***

İkinci gündən yağızların alpərənlik eyitimindən keçmələri başladı. Uzun sürə Çərənbil dağında qalacaqlarından dolayı günün bir qismini bərabərcə yuvaya taxıl daşıyır, günün qalan bölümlərində də alpərənlik bilgiləri və davranışları haqqında dərs alırdılar. Alpərənliyin davranış eyitimi qılıc qullanma öyrənimi ilə bir yerdə sürməkdə idi. Bilay dədə özü də, sanki onlardan biri imiş kimi davranırdı. Alpərənlik törəsində özünü başqalarından fərqligörmə, fərqligöstərmə əyilimi söz qonusu ola bilməzmiş. Bilay dədə birlikdə bulunduqları bütün ortamlarda yağızların hər bir davranışını alpərənlik baxış açsından dəyərləndirirdi. Ortaya çıxan durumlara görə alpərənlik törələrindən yola çıxaraq, açıqlamagətirmə Bilay dədənin eyitim işlərini qolaylaşdırırdı. Bilay dədə alpərənlik dünyagörüşünü hazır bilgilər bütünü kimi, yağız gənclərə sunmaq[67] istəmirdi. Birlikdə yaşama ortamında gerçək yaşamı alpərənlik ilkələri ilə açıqlamağa çalışırdı. Amaclarına daha tez ulaşmaq istəyən gənc yağızlar üçün alpərənlik eyitimindən keçmək bə´zən yorucu olabilərdi. Ancaq böyük istənclə yola

[67] Sunmaq- təqdim etmək.

çıxmış olan yağız gənclərin Bilay dədənin eyitimindən keçməkdən başqa çözgələri[68] yox idi. Bilay dədə gün keçdikçə, daha sərt eyitim quralları uyqulayırdı. Bir gün saatlarca qılıc eyitimindən sonra Bilay dədə "Yarından oruc tutmağa başlayacağıq" dedi. Güvənalın "Ac qarınamı eyitim və öyrənim görəcəyik?" sorusuna Bilay bügü "Əvət, ac qarına çalışacağıq" söylədi.

Sevilay: Bilay dədə, bunun bir anlamı varmı, nədən oruc tutmalıyıq?

Bilay bügü: Siz böyük bir amac üçün yola çıxmışsınız. Özünüzü fəda etməyə hazır olduğunuzu sanmaqdasınız. Ancaq bunun üçün hazırlıq işləri etməlisiniz. Öz nəfsinizin istəklərini sınırlamağı başarmalısınız. Gündə, yalnızca bir kərə yemək yeyərək, bədəninizi ruh istəklərinizə uyumlu duruma gətirməlisiniz. Oruc tutmaq, yalnızca yemək yeməmək anlamında deyildir. Baxışlarınız, duymalarınız da oruc tutmalıdır. Böyük qurtuluş savaşına girmək istəyirsinizsə, nəfsinizin diləklərini sınırlamalısınız. Öncə sınırlamalısınız, daha sonra yox etməlisiniz. Çünkü, ancaq bədən istəkləri bizi suçlu davranmağa zorlar. Bədən istəklərimizi nə qədər sınırlarsaq, bir o qədər mutlu oluruq. Ruhlu və güclü oluruq. Güclülüyün təməlində bədən istəklərini sınırlama durmaqdadır. Unutmayın, bizim savaşımız iki yöndə olmalıdır.

Savunal: Bilay dədə, bu iki yön nə imiş, açıqlarmısınız?

Bilay bügü: Birinci savaşımız bədən eyitimidir. Bədən eyitimi, yalnızca yaxşı qılıc qullanıb savaşçı olmaq anlamında deyildir. Bunun yanı sıra bədənimizin istəklərini sınırlamaq da gərəkir. Yoxsa bu eyitim sürəcindən keçmədən və bu tür əxlaq alqılayışını[69] davranışımızda sərgiləmədən boyuzlarla savaşmanın bir anlamı olmaz. Boyuzları yensək də, bu kəz öz içimizdə boyuzluq baş qaldırar. Bu kəz də biz, boyuzlara saldırmağa, onlara zülm etməyə başlarıq. Ya da yağızlar bir-birinə saldırar. Bu nədənlə alpərənlik törəsində savaşlar eşitlik və ədalət yolunda olmalıdır. Qarışqa öldürmək alpərənlik törəsində yoxdur. Istər boyuzlardan olsun, istər yağız. Öldürmə dürtüsü qarışqaların içində vardır. Boyuzlar da bu üzdən bizi öldürməkdədirlər. Bu dürtünü kəndi nəfsimizdə gözətim altına almazsaq, biz də onların yerinə olsaq, içimizdəki öldürmə dürtüsü baş qaldıracaqdır. Alpərənlik başda qarışqalar olmaq üzərə bütün canlılara sayqı ilə yanaşmaqdır. Başqasını əzərək, başqasının haqqını əlindən alaraq güc göstərisində bulunmaq, doğru deyildir. Buna güclülük deyilməz. Bu tam olaraq gücsüzlük və qorxaqlıqdır. Əzən və öldürən öz içində qorxu duyğusu

[68] Çözgə- çarə.
[69] Alqı-idrak. Alqılayış- idrak etmə.

daşımaqdadır. O qorxu duyğusunu ört-bas etmək üçün əzməkdə, öldürməkdədir. Öldürmə, ən son və ən son edimdir.[70] Başqalarını qorumaq üçün, bəzən öldürmək zorunda qala bilərik. Ancaq bu, ən son edim olmalıdır, ilk başda olmamalı.

Güvənal: Anlaşılan alpərənlik törəsini öyrənib davranışlarımızda ona görə davranmamız illərcə zamanımızı alacaq. Bu zamana qədər yağızlar boyuzların əsarətində yox olmazlarmı?

Bilay dədə: Yox olmazlar. Ayrıca, doğruluq yağızların da varlığından önəmlidir. Yağızlar tarixdən silinsələr də mən doğruluğu heç bir biçimdə fəda etmək istəmərəm. Yalanlarla qurtuluş olmaz. Yağızlar boyuzların əsarətindən qurtulub öz əsarətlərində yaşamamalı. Ya da boyuzları əsarətdə saxlamamalı. Alpərənliyin amacı eşitlik[71]. Ortalıqda fədakarlıq gərəkirsə, fəda olması gərəkən alpərən olmalıdır. Çünkü alpərən yağız fəda olmaqdan çəkinməz. Şübhəsiz ki, bunu bütün yağızlardan bəkləmək doğru deyildir. Ancaq böyük tarixi görəvliliyin bilincində olan yağızlar, ancaq böylə davrana bilərlər. Mən də sizlərin birər alpərən olmalarınızı istəyirəm. Yağızlar sizi örnək alacaqlar. Bu çətin yollardan keçib gəlmişsinizsə, alpərən olmaq sizin haqqınız. Ancaq bilməlisiniz ki, alpərənlik zövq üçün deyil. Alpərənlik acı çəkmək və əzablara könüllü olaraq qatlaşmaqdır. Başqalarının da acı-ağrılarını alpərən öz üzərinə almalıdır. İştə alpərənliyin yeddi ilkələrindən birincisi dözgədir.[72]

Alpərənliyin birinci ilkəsi dözgədir. Heç bir durumda duyğularınızın yönləndirməsi ilə tələm-tələsik davranışda bulunmayacaqsınız.

Dözümlülük ağrıverici olsa da, bireysəl tutum və davranışda törənizə dönüşməlidir. Dözgəsiz davranışlarımız genəldə təpliklər bütünüdür. Dözgəli davranış bir etkinlikdir[73]. Dözgəçiliyin də təməlini etkinlik oluşdurar. Dözümsüz davranışlar bədənimizin təpkiləri. Dözgəlik isə, bilincimizin və ruhumuzun etkinliyidir. Güclü bir yağız olmaq istəyirsinizsə, dözgəciliyi sürəkli denəmək zorundasınız. Çünkü biz yalnız ruhdan oluşmamaqdayıq. Bədən və tin istəkləri bir yerdə olduğundan çəlişkili[74] varlığıq. Yağızların qurtuluş savaşında bir görəv üstlənmək istəyən hər bir yağız dözüm örnəyi olmalıdır. Bunu denəmənin ən uyğun yolu oruc tutmaqdır. Çünkü nəfsimizin zorlamalarını bu yolla önləyə bilərik. Ayrıca, başqaları haqqında xəta etdiyiniz durumlarda da öz nəfsinizi

[70] Edim- əməl.
[71] Eşitlik- bərabərlik.
[72] Dözgə- dözüm, səbr.
[73] Etkinlik- əməl, fəaliyət.
[74] Çəlişki- təzad.

cəzalandırmalısınız. Bir yağız xəta etdiyində və bu xətasından başqası az da olsa, inciyib zərər gördüyündə, ən doğru yol xəta edən yağızın oruc tutaraq nəfsini cəzalandırmasıdır. Həqiqətə ulaşmanın yolu yağızların bədənlərinə xidmət etməkdən keçməz. Nəfs istəklərini gözətim altında tutaraq, içimizdəki sonsuz tinsəl[75] olanaqlarımızı üzə çıxarmaqla mümkün olur. Bu nədənlə də dözgəcilik yetənəyimizi gəlişdirmənin yollarından biri oruc tutmaqdır. Ancaq bu oruc tutmaq, yalnızca yeməklə sınırlı bir qonu deyildir. Bir də dözgəciliyi dərinləşdirmək üçün "qonuşmama orucu" var. Hər ağlınızdan keçəni dilinizə gətirməmək üçün bir də "qonuşmama orucu" tutmalısınız. Bilmiş olun ki, mən qonuşmama orucu tutduğumda sizin sorularınıza sözlü deyil, yazılı olaraq cavab verəcəyəm. Qum zərrələri ilə sorularınızın yanıtlarını kaldarların və əvəliklərin yarpaqları üzərinə yazacağam. Qonuşmama orucu düşüncənin dərinləşməsi və öz-özünə ələşdirəl[76] yanaşması üçün böyük fürsətdir. Bu duyduqlarınız alpərənliyin birinci ilkəsi olan dözgə haqqında bigilərdir. Duyduqlarınızı qarşımızdakı həftələr, aylar və illər içində öz yaşamınızda denəmli, gerçək yaşamınızda alışqanlıq halına gətirməlisiniz. Bir yerdə edəcəyik. Alpərənlik əxlaq düzəni, yalnızca bilgilər deyildir. Bilgi, davranış və ülkü bir yerdə alpərənlik əxlaq düzəninin iç tüzüyünü[77] oluşdurar. İndi yenə də savaş və qılıc eyitiminə keçəlim.

Bilay dədənin bu söyləvi[78] gənc yağızların bilinclərini devindirmişdi.[79] Uslarında min bir soru oluşmuşdu. Ancaq soru sormağı buraxıb Bilay dədə ilə qılıc eyitiminə keçdilər. Bilay dədə yağızların ağlından keçnləri bilərcəsinə "Soru sormaq düşünməyi və düşüncəni devindirən etkəndir[80]. Çəkinmədən sorularınızı sorun. Sorduğunuz sorular mənim də yardımcım olacaqdır. Sorulara qılıc eyitimi sürəcində də yanıt[81] vermək mümkündür. Savaş denəyimində soru-yanıt ola bilər" dedi.

Qılıclaşa-qılıclaşa gənc yağızlar soru sorur, Bilay dədə də qılıc qullanımını öyrədə-öyrədə yanıtlayırdı. Günlər, həftələr, aylar böyləcə axıb gedirdi. Gənc yağızlar gündən-günə alpərənləşirdilər.

***

[75] Tinsəl- ruhi.
[76] Ələşdirəl- tənqidi.
[77] Tüzük- məramnamə, məramnamə.
[78] Söyləv- nitq.
[79] Devinmək- hərəkət etmək, devindirmək-hərəkətləndirmək.
[80] Etkən-amil.
[81] Yanıt- cavab.

Daşıdıqları taxılı yuvanın içindəki anbarda yerbəyer edib dincəldikdən sonra yenə də dışarıda dağın zirvəsində beyin və bədən eyitiminə çıxmışdılar. Güvənal "Bilay dədə bir neçə kərə yağızların "oyanış"ından söz etdiniz. Bu oyanış sözünün dərinliyini bizə anladarmısınız?" dedi. Bilay dədə sağ əlindəki qılıcını günəşə doğru uzadıb sol gözünü yumub sağ gözü ilə qılıcın kəsərli tərəfinin parıldaq yerlərinə baxırdı. Qılıcını geri çəkib Güvənala dönüb "Əvət, "oyanış" çox önəmli və dərin bir qavram.[82] Yağızlarda bu oyanış olayı baş qaldırmazsa, qurtuluş savaşımız amacına ulaşa bilməyəcək" dedi.

Ülgən: Necə olacaq bu iş, ata?

Savunal: "Oyanış" deyildiyində genəldə biz nəyi anlamalıyıq?

Bilay dədə bir az kənarda bir-biri ilə danışan Sevilay və Özaya işarə edərək "Siz də gəlin yaxına dinləyin!" söylədi.

Özay: Tamam.

Sevilay: Gəldim Bilay dədə.

Bilay dədə: Yaşamaq, yalnızca var olmaq anlamında deyildir. Var olanın varlığının bilincində olması düşüncədə oyanışın başlaması deməkdir. Biz yağızlar olaraq varlığın bir parçasıyıq. Ancaq varlığın bir parçası kimi dağlar, gəzəgənlər[83], başqa canlılar da var. Qarışqaların başqa varlıq və canlılardan fərqi var. Örnəyin bir aslan uzaq gələcəyini düşünməz. Ya da bir balıq. Bu üzdən də qarışqalardakı toplumsal düzən, toplumsal yardımlaşma və dayanışma başqa canlılarda yoxdur. Qarışqalar daha sonrakı günlərinə taxıl birikdirirlər. Bu, doğanın qarışqalara tanıdığı düşünmə özəlliyidir. Qarışqaları başqa canlılardan fərqləndirən önəmli özəllik də budur. Qarışqalar düzənli bir yaşamın qurucularıdır. Bunu da düşüncələri üzündən sağlaya bilməkdədirlər. Bu düşüncə onların kimliklərini anlamağa yönəldiyi andan sonra "oyanış" evrəsi başlar. Oyanış, düşüncənin özünə doğru yürüməsidir. Düşüncənin qonusunun bəlli edilməsidir. Bu, yalnızca yağızların qurtuluşu kimi, toplumsal bir devəngənlikdən oluşmaz. Yağızların öz dillərində kimliklərini və varlığı anlama çabasının adını "oyanış" olaraq söyləyə bilərik. Çünkü biz, varlığı yalnız və yalnız dil dolaysıyla anlayırıq. Dilimiz olmasaydı, bizdəki toplumsal yaşam biçimi də olmazdı. Tarixdən silinişimiz də dilimizin yox olmasına bağlıdır. Boyuzların da təməl amacı dilimizi yox etmək. Çünkü biz qarışqa türü olaraq tarixdən silinmərik. Ancaq yağızlar olaraq tarixdən silinə bilərik. Nədən? Çünkü yağızlığımızı sağlayan tək etkən dilimizdir. Dil, minillər boyunca sürüb gələn evrimin[84]

[82] Qavram- məfhum.
[83] Gəzəgən- planet, səyyarə.
[84] Evrim-təkamül, inkişaf.

ürünüdür. Tarixi anılarımızı öz gizəmli qatmanlarında[85] barındıran tək varlığımız dilimizdir. Hər bir sözcük sanki canlı bir yağız kimidir. Bir yağız öldüyündə üzülərik. Dilimizdən bir sözcük itirildiyində, bəlkə o üzgünlüyü hiss etmirik. Ancaq yağız dilində bir ağrı və sancı hiss olunar. Bu sancılar düşüncələrimizin yanlış yola yuvarlanmasına nədən olur. Biz bunun bilincində olmuruq. Yağızların dili boyuzlaşırsa, yağız düşüncəsi də qaranlıqlara gömülər. Bu qaranlığa gömülüş, yavaş-yavaş olduğundan hiss etmirik. Boyuzlar bunun bilincidələr. Minlərcə yağız boyuzlaşır. Boyuz dilinin vurğunu olurlar. İştə, o sancının ürətdiyi toplumsal sayruluq budur. "Oyanış" demək öz dilimizin, yağız dilinin önəmini anlayaraq, yağızcanın açısından varlığa baxmaqdır. Bu oyanış da ərgəlik və qorxmazlıq istər.

Bilay dədə bir az duruxub sonra davam etdi: Alpərənliyin ikinci ilkəsi ərgədir. Ərgəlik, yəni qorxmazlıq. Qorxu bütün kötülüklərin qaynağıdır. Qorxudan qurtulmuş, qorxunu yenmiş olan yağız artıq özgür bireydir, ərmişdir. Ərgə yağız qorxu duyğusundan qurtulmuşdur. Sürülər yaşamında qorxu ola bilər. Sürünün qorxu anlayışı var. Çünkü ərgəlik sürüyə özgü deyil, bireyə özgüdür. Ərgəlik və ərginlik doruğunda kötü duyğuların yerini ərdəmli və bahadırlıq duyğuları doldurar. Sürünün ötəsinə yüksəlmiş olan yağız, qorxusunu yenmişdir və o, özgür bireydir. Tarixdə böyük iş görmüş olan bütün yağızlar, bütün alpərən yağızlar qorxunu içlərindən silmişlər. İçimizdə qorxu varsa, böyük işləri gerçəkləşdirə bilmərik. İhanətin, köləliyin tək qaynağı qorxudur. Ölümdən qorxmaq. İçindən qorxunu yox edə bilməyən bir yağız, alpərən ola bilməz. Bu üzdən də alpərənlik bütün yağızlara özgü bir olay deyildir. Alpərənləşən yağızların örnəyində yağız kütləsi də qorxudan qurtula bilər. Qorxudan qurtuluş bizim özgürlük savaşımızın ana amacıdır. Ölüm hər bir yağızın yazqısıdır. Ölüm olamasa idi, biz kəndimizi məhv edərdik. Ölüm kötü bir şey deyildir. Kötü olsaydı, olmazdı. Yaradılışın özündə ədalət və eşitlik var. Bu da ölümlə sağlanmış olur. Yəni ölüm, həyatda dəngə və ədalət sağlayan tək güclü etkəndir. Ondan kiminsə qaçışı ola bilməz. Demək ki, ölüm yeni yaşamlara bir yol açmaqdadır. Ölüm olmasaydı, nə tarix, nə evrim, nə də bir yenilik olardı. Ölümdən qorxmamaq, hətta ölürkən də mutlu ölməyi başarmaq qurtuluşun tək yoludur. Böylə bilincə ərmiş olan yağızlar üçün ölüm əsarətdə yaşamaqdan daha şərəflidir. Ancaq bunu bütün yağız kütləsindən bəkləmək doğru olmaz. Bütün yağız kütləsindən bəklənilməsi bir olqu olsaydı, o zaman alpərənlik adında bir törəmiz olmazdı. Alpərənləşən yağızların ərginliyinə[86]

[85] Qatman- lay.
[86] Ərginlik- kamillik.

güvənən yağız kütləsi bəlli tarixi dönəmlərdə qorxudan qurtulmuş ola bilərlər. Bax bu dönəm toplumsal[87] yağız qurtuluşunun olacağı dönəmdir. Yağızların tinsəl oyanışı və ruhsal dirilişi olaraq bunu tanımlaya bilərik. Böylə bir dönəmdə yağız alpərən öndərlərin, yəni sizlərin istəncinə, şərəfinə güvənən ən qorxaq yağız da birər qəhrəmana dönüşəcək. Bizim qurtuluş savaşımızın zirvə tarixi bu dönəm olacaq. Bu savaşı sizlər yönləndirəcəksiniz. Yönləndirə bilməniz üçün də içinizdən ölüm qorxusunu tam olaraq silməlisiniz. Yoxsa bütün yağızları yanlış yönləndirib qırğına verə bilərsiniz.

Özay: Bu savaş üçün qorxu duyğusunu yenməmiz yetərlidirmi?

Bilay dədə: Yağızlar tarixi görəvliliklərinin bilincinə varırlarsa, buna tarixi yağız toplumu deyə bilərik. Hər olqu kəndi tarixsəlliyi içində açımlanmalıdır. Bunu sezmək gərəkir. Alpərənliyin üçüncü ilkəsi sezgəçilikdir. Bir tür iç bilgi axışı. Sezgəçilik varlığı və toplumsal olquları sırf ussal[88] alqılanım* olaraq görməz. Bunu varlığı özümsəmə şəklində tanımlaya bilərik. Buradakı alqılama ussallıqla yanaşı həm də bir uzutçuluq[89] olaraq bəlirlənir. Sənət yolu ilə varlığı anlayıb açıqlama. İçdən-içə varlığı özümsəyiş. Örnəyin bir şeir parçası yağızların ruhuna dərindən-dərinə xitab edə bilər. Bir yağızın çox da dərincə bilgili olmasına gərək yox. Bir şeir parçası ilə onun ruhi sezişini sağlaya bilərsiniz. Ruhi coşqu olmadan tarix yaranmaz. Çünkü tarix inanc qaynaqlı güclərlə yaranır, bilim isə us qaynaqlı güclərlə. Yəni tarixin yaradıcısı inanc, elmin yaradıcısı ağıldır. Bilimlə uğraşanlar toplumsal coşqunun oluşumunda etkili olamazlar. Bunun üçün sezgisi güclü olan öndərlər gərəkməkdədir. Çünkü bir yağız öndər[90] həm də yağız soyunun simgəsidir. Diqqət etsəniz, boyuzlar bizim inancımızı çalmışlar. Bilimi başqa dillərdə də oxumaq olar. Ancaq yağız inancının daşıyıcısı yağızcadır. Yağızcanın dışında yağız inancını aramanın heç bir anlamı yoxdur. Bizim sezgi gücümüz yağız dilində olmalıdır. Sezgəcilik yağızcanın dərinliyinə enməklə mümkündür. Bu üzdən də yağız dilini dərinliyinə bilməlisiniz. Yağızcanın bütün əski qaynaqlarındakı sözcüklərinə yaşam qazandırmalısınız. Böylə tarixi bir savaşa girməyə hazırsınızmı?

Yağızların içində coşqu dalğalanırdı. Hamısı tək səslə "Əvət, hazırıq Bilay bügü, bu amac üçün sizə vardıq" söylədilər.

---

[87] Toplum- camiə, ictima. Tolumsal- sosial, ictimai.
[88] Ussal- əqli.
* Alqılanım- zəif.
[89] Uzut-sənət. Uzutçuluq-sənətçilik.
[90] Öndər- rəhbər.

Bilay dədə sözləri çox aydın və anlaşılır biçimdə söyləyir və danışdıqca da coşurdu. Dinləyici gənc yağızlara həm bilgi verir, həm də etkiləyici bəm səsi ilə içlərini olumlu yaradıcı güclə doldururdu. Bilay bügü coşqulu qonumuyla[91] sözlərinə davam etdi:

Alpərənliyin dördüncü ilkəsi bilgəlikdir. Bilgə alpərən dözümü, qorxmazlığı və sezgiciliyi ilə içində bulunduğu durumları ən doğru biçimdə dəyərləndirib toplumunun yararı üçün doğru yöntəmlər seçər. Bunun əsasında doğruluğa olan kəsin və sarsılmaz inanc durmaqdadır. Bilgəlik doğruluğa xidmət etmənin yüksək düzeyidir.

Sevilay: Doğruluq nədir?

Bilay dədə: Doğruluq sürəkli açıqlanmaya ehtiyacı olan inanc hökümləridir. Örnəyin özgürlük kimi anlayışların açıqlanmaya ehtiyacı var. Özgürlük nədir? Kəsin hökmlər içərən inanc qurallarının ussalığa dayandırılışı həqiqətə doğru devinimimizi yönləndirər. Bu da yağız bilgələrinə özgü bir davranış. Həqiqəti sənət türləri ilə açıqlamaq ən doğru yoldur. Bu açıdan savaş kəndisi də bir sənətdir. Savaş məhv etmək deyil. Savaşın amacı kötüləri yox etməyə deyil, kötülükləri yox etməyə yönəlməlidir. Bu açıdan boyuzlar da bizim düşmənimiz deyil. Boyuzları sayrulaşdıran düşüncəni ortadan qaldırmalıyıq. Bunun üçün böyük savaşlara da girə bilərik. Bunu içində bulunduğumuz durumlar bəlirlər. Ancaq bizim savaşımız həqiqət üçün olmalıdır. Doğruluq üçün. Yoxsa amacı doğruluq olmayan savaş kəndiliyindən kötülüyü yayqınlaşdırar. İştə, savaşın amacı "birlik"ə yönəliş olmalı.

Ülgən: Savaş çəlişkilərin toqquşması deyilmi? Savaşla necə birlik yarana bilər?

Bilay: Alpərənliyin beşinci ilkəsi birgəlikdir. Həqiqət sonsuzdur. Sonsuz isə "bir"dir. Bir olan çoxluq biçimində görüntülənmişdir. Varlıq sonsuz uzayda birliyə doğru qoşmaqdadır. Düşüncənin də təməli birdir. Ancaq bu "bir" çox qarmaşıq[92] və sonsuzdur. Sonsuz isə birdir. Çünkü iki sonsuzluq olamaz. Başlanğıc və son bir nöqtədir, "bir"dir. İrəliyə, sonsuza doğru hərəkət, əslində başlanğıca dönüşdür. Çünkü başlanğıc və son "bir"dir. Bir tək sonsuzluq var. Yaşam bu bir olanın musiqisinə, ahənginə uyum sağlamalıdır. Uyum sağlama türlərin kəndi doğrularını yaşamaqla ola bilər. Bizim doğrumuz soysal[93] anlamda yağızcılıqdır. Bütün qarışqaların və canlıların evrənsəl[94] doğruları var. Bu evrənsəl doğrunun adını birgəlik

[91] Qonum- mövqe.
[92] Qarmaşıq- mürəkkəb.
[93] Soysal- irqi.
[94] Evrənsəl- cahanşümul.

olaraq alpərənlik törəsində tanımlamışlar alpərən yağızlar. Minillər boyunca bu biçimdə tanımlar,[95] yağız alpərənliyində davranışa dönüşmüş, alpərənlik törəsini oluşdurmuşdur. Boyuzların tutum və davranışları birgəlik ilkəsinə tərsdir. Çünkü doğanın oluşdurduğu, tarixsəl evrimin ortaya qoyduğu çeşidlilikləri ortadan qaldırmağa yönəlmişlər. Varlığın birliyini alqılamanın yolu türlü-türlü və çeşidlidir. Həqiqət bir olsa da, onu anlama yolları sonsuzdur. Bir olanı anlamanın yolu bir deyildir. Yağız dilində öylə anlama yöntəmləri var ki, bu yöntəm və olanaq boyuz dilində yoxdur. Boyuzlaşmaq və yağızsızlaşmaq varlığın birgəlik yasasına ayqırıdır. Mənim anlatmaq istədiyim birgəlik daha geniş bir anlayışdır. Onun yağız toplumsal devnimindəki örnəyi üzərində daha sonra ayrıntılı biçimdə duracağıq. Bir sözlə yağızcılıq bütün qarışqaların varlığını da qəbul edər.

Özay: Çox maraqlı və dərin qonular.

Bilay dədə: Alpərənliyin altıncı ilkəsi sevgədir.[*] Sevgi yaşamımıza anlam verən gücdür. Sevginin gücü olmasaydı, mən burda illər boyu təkbaşıma yaşaya bilməzdim. Məni hər zaman canlı və güclü qılan içimdəki sevgi olmuşdur. Bütün olanın varlığını anlamaq hər kəsin yazqısında olmaz. Tanrı və ya bütün olan kəndisi seçər kimi kəz[*]. Qarışqaların iki tür batinləri var: Dar batin və geniş batin. Sürəkli içimizi genişlətmək istərik. Bu genişləmə istəklərimizdə yenilməz olursaq, irəliləmə ona görə sağlanır. Bu sağlanma sevgi ilə olur. Sevgisiz olamaz. Bütünün parçada kəndisini tanımlama adına sevgə deyirik. Sönməyən odlu bir güc. Sevgi budur. Bütünün parçada kəndisini göstərməsidir. Bu üzdən də yaxıcıdır, yandırıcıdır. Yaxıcıdır, çünkü dar içimizi genişlətmək istər. Dar iç dünyamızın genişləməsi sancı doğurar. Sancılı olur. Bunun üçün çox bilgili olmaq gərəkməz. Ancaq bilgili olmaq sevginin olanaqlarını genişlədər. Sevgə öyrənilməz. O, özü gələr. Gələcəyi və girəcəyi iç məkanı da özü bəlli edər. Varlıq sevgi ortamında özünü bizə göstərər. Sevgi üçün "son" yoxdur. Son olaraq sandığımız, sevgidə yeni başlanışdır. Gücsüzlük sevgi üçün yabancı bir anlam. Sevgə güc və umut deməkdir. Damarlarımızda sürəkli coşub sönməyən güc. Varlığı bütün olaraq içdən-içə özümsəməni sevgədə denəyə bilərik. Bütün olan kəndisini bir batində göstərər. O batin o bütünə uyumlu olmazsa, bütün olan o uyumsuz məkanı tərk edər. Bu, sevgənin bizi tərk etməsi deməkdir. Durum böylə isə, sevgə bizi tərk etmiş olar. Sevgə üçün hazırlıqlı olmaq gərəkir. O, hər yerdə bizi yaxalaya bilər. Kəndisini göstərdiyi parçanı tərk də edə bilər. Sevgə savrum-savrum savrulub, zərrə-

[95] Tanım- tərif.
[*] Sevgə-eşq.
[*] Kimi kəz- bəzən.

zərrə başqasında bulunmaqdır. Sevgə, yağızın fədakarlığa hazırolma sənətidir. Gerçək qurtuluş da bundan sonra ortaya çıxar.

Gənc yağızların içində sevgə dalğalanırdı. Bilay dədə yağızların sifətində sevgənin necə dalğalandığını açıqca görürdü. Gördükcə də coşub əngin düşüncələrini anlatmağa davam edirdi. Yağızlar bayqınca bir-birinin sifətinə baxıb, sanki bir-birlərini tanıyamaz kimi oldular. İçlərindəki coşqu üzlərində dalğalanırdı. Bilgi, sevgi, inanc və güvən duyğuları onların ruhlarını bir-birinə qarışdırmışdı. Yağız gənclərin içlərindəki oyanış üzlərini aydınlatmışdı. Sanki səsləri də dəyişmiş və zaman keçdikçə, səsləri də Bilay alpərənin səsinə bənzəməkdə idi. Səslərinin dəyişməsini Güvənal soru sorduğunda hiss etdilər. Güvənal özü də bunu hiss etdi. Soru sormaq istərkən, sanki boğazı tutulmuş kimi, hiss etdi özünü. Arxadaşları onun səsinin necə də bəmləşdiyini, olqunlaşdığını gördülər. Güvənal özünü toparlayıb "Bilay dədə, alpərənlik bu altı ilkədənmi oluşmaqdadır?" deyə sordu.

Bilay dədə: Alpərənliyin yeddinci ilkəsi çözgədir. Çözgə, yəni çarə, çarə bulmaq. Çözgə evrəsində alpərən birikdirdiyi bilgisini, sevgəsini, inancını öz toplumunun qurtuluşu üçün qullanmalıdır. Çözgə evrəsinə, yağızlaşmaq, yağız toplumuna yararlı olmaq və çarə bulmaq da deyə bilərik. Çözgə bulmaq qolay deyildir. Haqqında danışdığım daha öncəki ilkələri öz nəfsində yaşamamış, bu yaşantı sürəcində denəyimi olmayan yağız, alpərən olamaz. Alpərənlik, yalnızca güclü birey olmaq deyildir. Yağız toplumuna yararlı olmaq, onların zorluqlarına çözgə bulmaq anlamındadır. Çözgə də qolayca bulunmaz. İç evrimlə bir yerdə yağız toplumunu dərindən tanımağı gərəkdirər.

Özay: Çox gözəl, Bilay dədə. Bütün bu anlatdıqlarınızın işığında bizim boyuzlarla savaş biçimimiz necə olmalıdır?

Bilay dədə: Alpərən gerçək bir savaşçıdır. Onun qılıcı doğruluq yolunda qınından çıxmalıdır. Ancaq alpərənlikdə istisna durumlar dışında savaşda qarışqa öldürmək yasaqlanmışdır. Alpərən savaşçı qarşı tərəfi silahsızlandırmalıdır. Bu zaman qarşı tərəfi yaralaya bilər. Ancaq öldürməməlidir. Bu yaradan bir boyuz ölə də bilər. Bu önəmli deyil. Önəmli olan odur ki, alpərən yağız bilincindən və içindən öldürmə dürtüsünü[96] və öldürmə içgüdüsünü[97] silmiş olsun. İçini öldürmə içgüdüsündən təmizləməmiş olan bir yağız, alpərən olamaz. Çünkü alpərənlik törəsində inanc və söz davranışa eşitdir. Sözlə davranış arasında uçurum olmamalıdır.

[96] Dürtü- təhrik.
[97] İçgüdü- instinkt, qərizə.

Savaşın amacı öldürmək deyil, qurtuluş olmalıdır. Bu baxımdan niyyət çox önəmli. İştə, bu üzdən alpərən bir öndər heç bir zaman, heç bir biçimdə yalan danışamaz. Yalan danışsa, alpərənlik onu tərk edər. Iç gücünü itirər.

Bilay dədə susmuşdu. Yağızlar da şaşqınca düşünürdülər. Savunal köksünü ötürüb "Bilay dədə, söylədikləriniz çox çətin sürəcdir. Bizdə bu iç halları yaşayacaq yetənək görürsünüzmü?" deyə sordu.

Bilay dədə: Əvət, görürəm. Ancaq bu, birdən-birə olmayacaq. İllər zaman lazımdır. Öz üzərinizdə çalışıb-çabalayıb yağızların qurtuluşu üçün gerçək alpərənlər olmalısınız. Bunu siz yağız gənclərdən əsarətdə yaşayan yağız soyunuz istəməkdədir. Siz tarixin yaradıcı alpərənləri olacaqsınız, olmalısınız. Sanıram bu günlük alpərənlik öyrənimi yetər. İndi qılıclarınızı gətirin sizlərə iki qılıcla savaşma yöntəmini öyrədəcəyəm.

Yağızlar qoşub qılıclarını gətirdidlər. Qılıc eyitimi başladı. İçləri umut və inancla dolub-daşan yağızlar bədən və qılıc eyitiminə başladılar. İki-iki qılıclaşırdılar. Bilay dədə "Zərbə endirdiyinizdə bütün gücünüzlə bağırmalsınız. Qarşı tərəfə son zərbəni vurduğunuzda bütün gücünüzlə bağırmalısınız" dedi. Savunalla Özay, Bilay dədə ilə Güvənal və Ülgənlə Sevilay qılıclaşırdılar. Qılıcların səsindən ətrafdakı zəmilər tir-tir titrəyirdi. Sevilayın bağırtısının arxasınca həmən Ülgənin qorxunc bağırtısı yüksəldi. Yağızlar qılıclaşmanı durdurub onlara baxdılar. Qorxunc bir görüntü. Sevilay qılıcını Ülgənin sağ qoltuğunun altına saplamışdı. Bir an yağızlar dəhşət içində qaldılar. Sevilay özü də şaşqınca durub Ülgənə baxırdı. Ülgən Sevilaya baxa qalmışdı. Birdən özünü tuta bilməyib düşdü. Sevilay sol əlindəki qılıcı da buraxıb "Yardım edin, Ülgəni yaraladım" deyə bağırdı. Sonra yerə düşərək, bayılmış Ülgənin başını qucağına alıb Bilay dədəni səslədi. Gənc yağızlar özlərini itirmişdilər. Özəlliklə Sevilay bağırıb durmaqda idi. Ancaq Bilay dədə çox soyuqqanlı davranırdı. Bilay dədə yaxınlaşıb oğlunun qılıc saplanan yerinə baxıb "Qoruxulu yerə saplanmamış qılıc" dedi. Sonra da gənc yağızlara "Çevrədən bir az poruq[98] bitkisi yığıb gətirin!" söylədi. Yağızlar həmən poruq yığıb gətirdilər. Bilay dədə poruğu ağzında çeynəyib suyunu qılıcın saplandığı yerə tökürdü. Xeyli poruq çeynəyib suyunu Ülgənin qılıc saplanan qoltuğunun altına tökdü. Sonra "Artıq poruq yaranı keyitmiş olur. Qılıcı çəkib çıxarmaq lazım" dedi. Ülgənin başı Sevilayın qucağında bayqınca qalmışdı. Bilay dədə qılıcı ehtiyatla çəkib çıxardı. Qılıc çıxar çıxmaz yerindən qan fışqırdı. Bilay dədə sürəkli poruq çeynəyib ağzındakı poruq suyunu Ülgənin yarasına axıdırdı. Artıq qan gəlməsə də, Ülgən bayqınca Sevilayın qucağında düşüb qalmışdı.

[98] Poruq- incə və təqribən 4-5 santım uzunluğunda bitkidir. Muğanda diş ağrısı üçün qullanılardı.

Sevilayın rəngi sap-sarı olmuşdu. Gövdəsi titrəyirdi. Bilay dədə Sevilaya "Bir alpərən böylə qorxunc duruma düşməməlidir. Özünü ələ al" dedi. Sevilay, Bilay dədənin üzünə utandığından baxa bilmirdi. Onun oğlu Ülgəni yaraladığından nə deyəcəyini bilmirdi. Onun bu durumunu görən Bilay dədə "Hamınız mənim balalarımsınız. Bizi bir-birimizə bağlayan ortaq alpərənlik törəmizdir" söylədi. Yaralı Ülgəni söyüd yarpağının üstünə qoyub yuvaya apardılar.

***

Payızın orta ayının son günləri idi. Yarpaqlar saralıb yerə tökülmüş, xəzan yelləri yarpaqları uçuşdururdu. Bilay dədənin istəyi üzərinə yağız gənclər yuvada taxılı qarşıdan gələn qışa görə yerbəyer edirdilər. Bilay dədə özü də oğlu Ülgənin baxımı ilə uğraşmaqda idi. Ülgən danışa bilir, başqalarının yardımı ilə yürüyə də bilirdi, ancaq yarası tam olaraq sağalmamış, hələ də baxıma ehtiyacı var idi. Yağızlar yuvanın dibində taxıl işi ilə uğraşırdılar. Ata-bala ilk kəz olaraq bir yerdə qonuşmağa zaman bulmuşdular. Oğlunun yarasını sığallayan Bilay dədə köksünü ötürüb "Sən yaxşı qılıc qullanırsan. Nədən kəndini savuna bilməmişsən anlamış deyiləm" söylədi və bir az düşünüb "Sevilayın da səni yaralayacaq biçimdə saldırmasına inanmıram. Bu, sadəcə sənin diqqətsizliyindən və kəndini savunmamandan olmalı" deyə davam etdi. Ülgənin ağrıları azalmışdı. Ancaq, sanki könlündə bir başqa ağrı varmış kimi davranırdı. Öncə bir az səssiz qaldı. Daha sonra "Bilirsənmi ata?" söylədi.

Bilay dədə: Nəyi oğlum?

Ülgən: Sevilaya aşiq olduğumu düşünürəm.

Bilay dədə səssizliyini qorudu. Oğlunu daha da içdən sığallayırdı. Yuvanın diblərində taxılı yerbəyer edən gənc yağızlara baxdı. Səslərini onlar duymazdı. Oğlunun sevgi haqqında duyğularını duymaq istəyirdi. Köksünü ötürüb "Sevgə böyük gücdür. Devirici. Həm güclü qılar, həm də yıxıb yaxar" dedi.

Ülgən: Sevilay qılıc çaldığında bir an onun varlığında başqa şeylər gözlərimə göründü. Daha öncə heç görmədiyim, hiss etmədiyim. Əvət, daha öncə bu halı yaşamamışdım. Onun davranışları, səsi, gözləri və bütün varlığı bir an içində sonsuz bir ruh halını içimdə oyatdı. İçimdən bir alovun dışarıya püskürmək istədiyini hiss etdim. Artıq gözlərim Sevilayı görmürdü. Onun varlığında içimi yaxan bir atəş görürdüm. Gözlərimə görünən varlığın bütünü idi sanki. Qollarımda, damarlarımın içində başqa bir şey axmağa

başlamışdı. Savrulurdum. Onun baxışları yerə enmiş günəş kimi içimi yaxırdı. Gözlərindən uzanan cazibə ışınları içimi sarmaş-dolaş sarıb yaxmaqda idi. Və ürəyim...

Ülgən əlini ürəyinin üstünə qoyub susdu. Bilay dədə oğlunun ruhunu sevgənin sardığını görürdü. İçdən-içə sevinirdi. Çünkü alpərənlik törəsinin ana ilkələrindən biri sevgə idi. Bilay dədə qucağına aldığı oğlunun başına əlini sürüb "davam et istərsən. İçindəkiləri anlatsan, daha güclü olarsan. Sirlər bir sirdaşla paylaşılırsa, yaxşı olur. Mən sənin həm atanam, həm də böyük bir amacın yolçuları olduğumuz üçün dostuq. Anlat sevgəni oğlum" dedi.

Ülgən: Ürəyimdə böyük bir fırtına oldu. Sanki köksümdən ayrılmaq istərcəsinə ürəyim çırpınmağa başladı. Sevilayın sevgisi ürəyimi çox sərt vurdu, ata. Köksüm ürəyimə darlıq edirdi. Dar köksümü bu sevgi zorla genişlətmək istərcəsinə sancılar dolmuşdu ard-arda içimə. İç dünyam sonsuz varlığa can atarcasına genişləməkdə idi. Bu nədənlə də Sevilayın qılıclarını görmürdüm. Heç bir şey görmürdüm. Gözlərim görməz olmuş, könlümün gözləri açılmışdı. O an gördüklərimi anlada bilməyəcəyəm. Yalnızca sonsuz varlığın tözü[*] içimə axıb doldu sanki bir an içində. Bayılmaq üzrə olduğumu sanırdım. O sevgə dalğasına içim dayanamaz olmuşdu. Sürəkli dalğalar. Durmadan içimi saran sevgə dalğaları. Hər şey öz görüntülüyündən ayrılıb tözü ilə içimdə görünür olmuşdu. Nəsnə ikilikdən qurtulub birliyə vardı içimdə. O an mən və varlıq özdeş olmuşduq. Sən, anam, arxadaşlarım, uzayların sonsuzluğu və hər şey içimdə bir olanla bir yerdə ortaya çıxmışdı. Bu bir olanı cismim qaldıramaz olmuşdu. Sanıram o an Sevilay qılıcını qoltuğumun altına soxmuş. O, mənim içimdəki oluşumları görə bilməzdi. Özümü savunacağımı sanmış. Ancaq sevgə məni savunmasız buraxmışdı. Qılıclarımı tərpədə bilmirdim. Ağlımı ildırım çarpmışdı sanki. Sevilay qılıcını qoltuğumun altına soxmasaydı da mən bayılıb düşmək üzrə idim. Düşünürəm ki, Sevilayın sevgisi içimdə başqa gücləri oyatdı. İçimi anlada bilməyəcəyim olağanüstü[99] güclərlə tanışdırdı. İçim yaxıldı ata can, içim yandı!

Son sözlərini deyərkən, gözlərinin yaşını tuta bilmədi. Bilay dədə oğlunu böyük diqqətlə dinləyirdi. Sevinclə kədər Bilay dədənin içini sarmışdı. Sevinclə kədər və dadlı bir kədər. Oğluna nə deyəcəyini bilmirdi. Oğlunun danışmasını, içini boşaltmasını istəyirdi. Yaşlanmış alpərən, gənc oğlunun içini sarmış olan sevgə atəşinin savrulmalarını duymaq istəyirdi.

[*] Töz- cövhər.
[99] Olağanüstü- fövqəladə.

Bilirdi ki, sevgə sözlərlə anlatılamaz, ancaq yenə də duymaq istəyirdi. Bu duyğular onun üçün çox tanış idi. Yaşlı alpərən bu an boyuzların əsarətində olan Ülgənin anasını böyləsinə sevmişdi. Əski anılarını anımsayırdı. Oğlunun içindəki yanqın və alov dilimləri, sanki onun da içində baş qaldırırdı. Gəncliyini anımsayırdı. Uzaqlarda, çox uzaqlarda qalmış gəncliyini. Köləliyi qəbul etmədiyi üçün öz sevgisindən ayrılmaq və illər boyu yalnızca yaşamaq zorunda qalmışdı. Yaşlı alpərən yalnızlıq illərində öz sevgisindən bir an da ayrılmamışdı. Yuxularında da öz sevgisi ilə bir yerdə olurdu. Yuxularında bə´zən gənclik anılarını görüb diksinərək, oyandığı qaranlıq gecələri anımsayırdı. Bütün bu ağrılı-acılı günlərdə sevgisinin onu güclü tutduğunu, yenilməz etdiyini anımsayırdı. Yaşlı alpərən oğlunun danışmasını istəyirdi. Çünkü oğlu danışdıqca öz gənclik günlərinin sevgi coşquları onun içində oyanırdı. Gözlərinin önündə Ülgənin anasının gənclik gözəlliyi dururdu. Yaşlı alpərən oğlunun danışmasını istəyirdi. Evlad sevgisi ilə başqa sevgiləri də bir-birinə qarışmışdı. Yaşlı alpərən oğlunun danışmasını istəyirdi. Ancaq Ülgən susmuşdu. Ülgən səssizcə, dərin yuxuya dalmışdı. Yaşlı alpərənin düşləri çox uzaqlarda dolaşırdı. Göz yaşlarını tuta bilmədi. Alpərənlər yalnız sevgə və gözəllik qarşısında ağlardılar. Alpərənlik törəsində ağlamaq da güclülükdən, sevgənin doğurduğu gücdən qaynaqlanırdı. Bilay dədənin göz yaşları axıb gedirdi.

***

Qar hər tərəfi sarmışdı. Göz işlədikçə hər tərəf ağ-appaq görünürdü. Yağızlar yerin altına çəkilmiş birikdirdikləri taxıldan qidalanaraq yaşayırdılar. Yuvanın ağzını örtmüş qarı nəfəsləri ilə əridib kiçicik dəlik açmışdılar. Ağ-appaq qarın üstündən yansıyan günəş ışınları dalğalanıb yuvanın içinə dolur, yuvada gizəmli bir aydınlıq oluşdururdu. Yağızlar taxıl dənələrinin qabığını çıxarıb, qabıqsız arpa-buğdanı yuvanın güvənilir bir yerində birikdirmişdilər. Şüvərən yarpaqlarından yumşacıq yataq yerləri düzəltmişdilər. Gənc yağızlar sabahdan gecənin gec vaxtlarına qədər yağız kimliyi, yağız tarixi, yağız uyqarlığı[100] ilə ilgili Bilay alpərəndən dərs alırdılar. Həftələr, aylar, fəsillər keçdikçə, gənc yağızların bilincləri aydınlanmaqda, bilgiləri artmaqda, gövdələri güclənməkdə idi. Bir neçə il arxada buraxmışdılar. Gənc yağızlar bədən görünümü olaraq da dəyişmiş, gəlişmiş, güclənmişdilər. İndi də bir uzun qış gecəsi idi. Çərənbil dağının doruğunda yerin altında gənc yağızlar Bilay alpərəni çevrələmiş onu

[100] Uyqarlıq- mədəniyət.

dinləyirdilər. Bilay alpərən, yağız uyqarlığının tarixi haqqında onlara çoxlu bilgi vermişdi. O gecə yağız musiqisi haqqında həm bilgi verir, həm də öyrətdiyi musiqi türlərini ifa edərək, onlara melodiləri anladırdı. Bilay alpərən çögürünü kökləyib "Mən indi bir "qatar" muğamı oxuyacağam. Siz musiqi bitdikdən sonra istədiyiniz qonu haqqında soru sora bilərsiniz. Çünkü qonular bir-birinə qarışdığında daha yaxşı anlaşılır. Bütün qonuların içdən-içə bir-bir ilə ilişkidə olduqlarını bilməliyik. Bilginin və uzutun[101] qaynağı birdir. Bir olanın türlü biçimdə bilgi və sənət ürətdiyi söz qonusudur. Əvət, mən indi sizə bir "qatar" muğamı oxuyacağam" dedi. Bilay alpərən çögürünü bağrına basıb bir "qatar" muğamı oxumağa başladı:

"Könlümüz təklik əlindən sıxılar olsa da, bil!
Sevgi ummaq kötülərdən yenə də doğru deyil
Dünyanı sarsa qaranlıq biz əyilməz olalım
Doğruluq qarşısına sevgi ilə çıx da əyil!
Bu gözəlliklə dolu varlığı dərk eyləyəlim
Saxta istəklər ilə ömrü hədər eyləmə gil!
Bir uzun yoldu həyat, yolçusuz olmaz ki bu yol
Kəndi sevginlə bu yollarda toxum ol da əkil!
Sevgidir varlığa vardırmış olan könlümüzü
Sevgisiz bir yaşayışdan çox uzaq dur da çəkil!
Güntayın düşləri səndən düşə bilməz ki, uzaq
Məni sarmış xəyalından ürəyim ayrı deyil."

Bilay alpərən oxuduğu muğamı bitrimişdi. Gənc yağızlar dərin sevgə dünyasına dalmışdılar. Sanki hər kəsin xəyalında bir şeylər dolaşmaqda idi. Sevilay da bədəninin ağrısını unutmuşdu sanki. Çünkü Sevilay Ülgəni yaraladığından uzun zaman keçməsinə baxmayaraq, hələ də özünü cəzalandırmaq üçün gecələr gicitikanın üstündə yatırdı. Ülgən bir neçə kərə önləmək istəmiş, ancaq Bilay alpərən "Sevilaya mane olmayın istədiyi kimi etsin. Yalnız sevgili qızım, bilmiş ol ki, nəfsi cəzalandırmanın bir sınırı olmalıdır. Nəfsini çox zorlama, çünkü tərs təpki göstərə bilər. Yanılqıları törədən etkənlər içimizdən silinmişsə, cəzalandırmaya gərək yox. Amac, bizi yanılqılara sürükləyən dürtüləri gözətim altına ala bilməkdir" demişdi. Son kəz olaraq Sevilay gecəni sabaha qədər gicitikan yarpağının üstündə yatmışdı. Artıq ruhunun sərbəst və rahat olduğu sezilməkdə idi.

[101] Uzut- sənət.

Özay dalqınlığından geri dönüb bir şey sormaq istədi. “Bilay dədə, bəlkə bir az fərqli qonu olacaq. Ancaq ağlımda bir soru dolaşmaqdadır. Alpərənlik törəsində inancın yeri və önəmi nədir?” deyə sordu.

Bilay dədə: Çox gözəl sorudur bu, Özay. İnanc, varlığın gizləri qarşısında heyrət anlamındadır. Varlığın içini görmə çabası və duyuların dar saptamalarından[102] qurtulmaqdır. İçgözləm olaraq tanımlaya bilərik. Qəlbin gözü ilə baxış. Inanc denəyimində varlıq, bir giz[103], ya da bir həqiqət, denəyimciyə görünmüş ola bilər. Bütünün özünü göstərməsi, ya da parçanın bütünü görməsi olaraq anlamaq istədiyimiz budur. Gerçəkliyin ötəsinə yüksəliş. Ya da gerçəkliyin özünügörmə. Gördüklərimizin çoxu gerçəklər və gerçəklik deyildir. Gerçəkliyin sanki kölgəsidir. Gerçəyin və gerçəkçiliyin açımlamaları deyəlim.

Savunal: Çox ilginc və dərin qonudur. Bilay dədə çox gözəl anladırsınız. Bu bilgilərə bizim ehtiyacımız var.

Güvənal: Bilay dədə, bunun tarixiliklə nə ilişkisi var?

Bilay dədə: Tarix kəndi ötəsinə yüksəlmək istər. Tarix ötəsinin[104] tarixin içinə girişi onun oluşumunu və anlaşımını sağlamış olur. Tarix ötəsinin tarixə girişi bəlli qoşullar ortamında gerçəkləşər. Bizim düşlərimiz, sonsuzluğa olan inancımızın da gerçək anlamı budur, yəni tarix ötəsinin tarixiləşməsi. Burada “varolan” və “varlıq” qavramlarını yaxşıca açıqlamamız, anlamamız gərəkəcəkdir. “Varolan” və “varlıq” bənzər eşanlamlı[*] qavramlar deyillər. “Varolan” gördüklərimiz və dudyduqlarımızdır. Bir də gördüklərimiz və duyduqlarımızla ilgili ürətdiyimiz bilgilər bütünüdür. Əski çağlardan günümüzə qədər ürətilən bilgilər. Ancaq “varlıq” bir də görmədiklərimiz, duymadıqlarımız və bilmədiklərimizdir. Gələcəkdə onun haqqında bilgimiz arta bilər, yalnız onu tam olaraq biləməyəcəyik. Varolan tarixidir. Varolan tarixilik baxımından dünü və bu günü içərməkdədir[105]. Varlıq isə, dünü, bu günü və gələcəyi özündə barındırdığından zamansızlıq içində. Varlığın öncəsiz və sonrasız[**] oluşu da bu üzdəndir. Biz sonsuz olanı inanc denəyimləri ilə sezməyə çalışarıq. Çünkü sonsuz olanı sonlu us olanaqları ilə anlamaq mümkün deyildir. Sonsuz olanı sonsuz bir yöntəmlə alqılamağa çalışırıq. Bunun da adı inancdır. Yalnız şunu bilməliyik ki, inanc bireysəl qonudur. Tarixi ağılın onun oluşumunda etkisi azdır. Bireyin öz içindəki dəyişimlərin ürünüdür

[102] Saptama- təsbit.
[103] Giz- sirr.
[104] Ötə- fövq.
[*] Eşanlamlı-sinonim.
[105] İçərmək- ehtiva etmək.
[**] Öncəsiz və sonrası- əzəli və əbədi.

inanc denəyimləri. Varlığın özünü bireyə göstərməsi bənzərsizdir. Bir bireyə görünmüş olan varlıq başqa bireyə başqa tür görünmüş ola bilər. Bu nədənlə də inanc özgürlüyü və inanc çoğulculuğu inancın özəlliyi olmalıdır. İnanc bireyin içindən varlığa uzanan özgün[106] alqılaşım[107] türüdür. Tarixin anlamı da budur. Yəni çoğulcu inancın bir tək çatı altında birləşməsi. Onu Tanrı adlandıra bilərsiniz. Ya da istədiyiniz kimi inana bilərsiniz. Önəmli olan bu inancı içimizdə daşıyıb onun ussal dərinliyini oluşduraraq içgüvəninizi sağlamanızdır. Bu inanc bireysəl, gizəmli və gizli olduğundan, iç sıçramalara dayandığından umut və əsin[108] qaynağına dönüşər. İştə zamanla yavaş-yavaş bireysəl olanın toplumsal sahəyə yansımasına tanıq oluruq. Tarixi törələr də bu yansımaların ürünüdür. Toplumsal sahəyə yansıyan bu özəlliklər inancın özünə eşit deyildir, olamaz. Toplumsal dayanışma və yardımlaşmanı sağlayan etkənlər olaraq, inancların törələrə dönüşümünə tanıq olmaqdayıq. Tarixilik dediyimiz də budur. Toplumsal və tarixi törələrin özünəözgü quralları var. Buna uymaq zorunda qalarıq. Ancaq bunlar tarixi sürəc içində evrimə və bəzi dönəmlərdə də devrimə uğrar.

Ülgən: Bireysəl inancla törəsəl inanışın ayrıcalıqları nədir?

Bilay dədə: İnanc bireyə yeni bir kimlik bağışlar. Bu yeni kimliyi kimsə görməyə bilər, ancaq birey öz içində bunu görər. Törələr isə, yeni kimlik bağışlamaz tam tərsinə bə´zən də bu yeni kimliyə qarşı çıxar. Törələrin hazır quralları var. Bireyi bu qurallara uymağa zorlar. İnanc və törələr arasında qarşılıqlı bir ilətişim söz qonusu olur. Bu ilətişim uzun tarixi sürəc içində evirilişə nədən olar. Gələcəkdə diləklərimizin gerçəkləşməsində və işlərimizin uğurlu yazqısı açısından heç bir biçimdə inancsız olmarıq. Baxın gənc yağızlar, bizim gələcəkdə qurtuluşumuzla ilgili düşlərimiz və istəklərimiz qəlbimizin dərinliyindən qaynaqlanan inanc verilərinə dayanmaqdadır. Bu inanc olmazsa, istəncimiz və istəklərimiz sönər. İnancında yenilməz olan yağızlar tarixdə tək başlarına böyük devinimlərə, devrimlərə yol açmışlar.

Sevilay: Bizim qurtuluş savaşımızın bir inanc qonusu olduğunumu söyləmək istəyirsiniz?

Bilay dədə: İnanclar tarixi genişlətmişlər. Bizim qurtuluş savaşımızda bilginin və ussallığın çox önəmi var. Ancaq yağız kütləsini hərəkətə keçirmək üçün güclü bir inanc lazım. Bir inanc və bu inanca bağlı olan əxlaq düzəni. Çünkü kütlələri qəhrəmana çevirən onların ortaq inancları olmuşdur. Bilgi uzmanlara, seçkinlərə özgüdür. Bizim qurtuluş savaşımıza, yalnız

[106] Özgün- orijinal.
[107] Alqılaşım- qarşılıqlı idrak.
[108] Əsin- ilham.

seçkinlər qatılmayacaq. Yağız kütləsi bütünüylə bu savaşa qatılmazsa, biz qurtula bilmərik. Bu nədənlə bütün yağızların ruhuna söylənə biləcək bir inanc yöntəmi oluşdurmalıyıq. Əsarətə alışmış, qurtuluşa olan düşlərini itirmiş yağızları bir inanc çevrəsində yenidən canlandırmaq lazım. Sizin yağızların tarixində edəcəyiniz böyük görəviniz də budur. Köləliyə alışmış yağızların vicdanında qurtuluş inancını oyatmalısınız. Böylə olursa, qurtuluş qaçınılmaz olacaqdır. Bundan sonrakı savaş yağız kütləsinin bütünüylə qatılması gərəkən qurtuluş savaşı olacaqdır.

Gənc yağızlar Bilay alpərəni dinlədikçə, ruhlarında devrim olmaqda idi. Yağızların qurtuluş savaşına qatılmaq əyilimi gün keçdikçə, içlərini yandırıb yaxmaqda idi. Ancaq o böyük savaşa qatılmaq üçün uyğun zamanın gəlməsi gərəkirdi. Bilay alpərəndən öz kimlikləri ilə ilgili bütün bilgiləri, savaş yöntəmlərini öyrənməli idilər. Bilay dədə içlərində sevgi dalğalanan gənclərin üzünə baxdı. Gecənin gec vaxtı idi. “Dincəlməliyik. Qarşımızda öyrənəcəyimiz, edəcəyimiz çox işlər var. İndi yatmaq zamandır. Erkəndən yeni işlərimiz olacaq” söylədi və “gecəniz xeyirə qalsın!” deyib öz yatağına çəkildi. Gənc yağızlar da “Gecəniz xeyirə qalsın, Bilay dədə” söyləyib öz yataqlarına çəkildilər.

***

Beş il idi gənc yağızlar son alpərən Bilay bügüdən kimlik dərsi almaqdaydılar. Beş il zaman içində onlar birər alpərənə dönüşmüşdürlər. Cömərdlik, özverilik kimi anlayışlar davranışlarında açıqca sezilməkdə idi. Özlərinə dərin bir güvən oluşmuşdu. Yaşlanmış Bilay dədə gənc yağızlarda alpərənlik davranışlarını gördükçə, içi özgüvənlə dolub-daşırdı. Artıq ölsə də, alpərənlik kimliyini gənc yağızlar yaşadacaqdılar. Gənc yağızların qonuşma biçimləri, düşünüb danışmaları, olqunca davranışları Bilay dədənin diqqətindən yayınmırdı. Gənc alpərən yağızlarda ölüm qorxusu köküdən yox olmuşdu. Bilay dədə ara-sıra öz-özünə “Yağızların qurtuluşu kəsinləşmişdir” deyə pıçıldayırdı. Beş gənc yağız düşüncədə, davranışda və ülküdə[109] birər olqun[110] alpərən olmuşdular. Özəlliklə onların çox çevik qılıc qullanmaları Bilay dədəni dərindən sevindirirdi. Yağızlar birər qurtarıcı öndərlərə dönüşmüşdürlər. Onların düşüncəsi, duyğuları və nəfsləri bu beş il zaman sürəcində alpərənliyə doğru olqunlaşma evrələri yaşamışdı. Bilay dədə ilə içdən-içə sonsuz dostluq bağları qurulmuşdu gənc yağızlar arasında.

[109] Ülkü- ideal.
[110] Olqun- yetişmiş.

Güclənmişdilər gənc yağızlar. Böyümüşdülər. Həm ruh, həm də gövdə olaraq böyüyüb güclənmişdilər. Güclülükləri doğruluğa xidmət edər yöndə gəlişmişdi. Qılıclarını hər zaman doğruluq yolunda qullanacaqlarını öyrənmişdilər. Alpərənlik eyitimində qural böylə idi. Heç bir alpərən doğru olana qarşı qılıc çəkəməzdi. Yanlışın yanında olub doğruya qarşı savaşacaq olsalar, alpərənlik ruhu onları tərk edərdi.

Bir sürə idi Bilay dədənin canı xəstəlikdən sıxılmaqda idi. Ancaq bunu dilə gətirmir, xəstəliyinin gənclər tərəfindən görülməsini istəmirdi. Bilay dədə həyatının son anlarını yaşadığının bilincində idi. Bir sabah yağızlar yuxudan oyandı. Hər yağızdan daha erkən yuxudan oyanan Bilay dədə hələ yerində idi. Oyanmamışdı. Gənc yağızlar bu beş il zaman dilimində ilk dəfə Bilay dədənin erkəndən oyanmadığını görürdülər. Yatağına qoşdular. Bilay dədə ağır durumda idi. Nəfəsi zorla gedib gəlirdi. Yağızlar bilay dədəyə durumunu həyəcanla sordular. Bilay dədə "Yardım edin dışarıya çıxalım" dedi. Bilay dədəni çiyinlərinə alıb Çərənbil dağının zirvəsinə çıxardılar. Yazın orta ayının ilk günləri idi. Hər tərəfdə yaşıllıqlar, rəngli güllər yavaşça əsən küləyin etkisi ilə dalğalanırdı. Bilay dədəni istəyi üzərinə dağın zirvəsində bir daşın üzərinə qoydular. Bilay dədə uzaqlara baxdı. İllər boyu bu yerlərdə təkbaşına, yapa-yalnız yaşadığı çətin günlər gəldi keçdi gözlərinin önündən. Tövşümələri artmışdı "Mənim yaşamımın sonu gəlmişdir gənc alpərənlər. Sizlər artıq birər alpərənsiniz. Soyumuzun özgürlük düşüncəsini daşıyan alpərənlik, artıq ölməyəcəkdir" söylədi. Gənc yağızlar susqunca dinləyirdilər. Ülgən diqqətlə atasını izləyirdi. Bilay dədə yenidən uzaqlara-yaxınlara göz gəzdirdi. "Həyat çox gözəldir. Yaşamaq, şərəflə yaşamaq çox gözəldir. Yalnız şərəflə yaşayanlar ölümdən qorxmurlar. Qorxacaq bir şey yox. Şərəfli həyat qorxunu ortadan qaldırar. Qorxaqlıq sağlıqlı olmayan həyat biçiminin ürünüdür[111]. Gənc alpərənlər, inanın ki, çox içgüvənlə ölümə doğru qoşmaqdayam. Saqın, mənim ölümüm sizləri sarsıtmasın. Mən sizləri eyitmədən ölsəydim, o zaman ölüm mənim üçün qorxunc olardı. İndi isə, mənim dəyərsiz vücudum torpağa dönüşəcək. Torpaqdan gəlmişik. Torpağa dönüşücəyik gec-tez. Ancaq mənim ruhum sizlərdə və yağız tarixində yaşayacaq. Sizlər qurtuluş savaşına qatılacaqsınız. O savaşda mənim duyğularım, diləklərim yanınızda olacaq. Sizlərə nə yapmanız gərəkir qonusunda heç bir söz söyləmək istəmirəm. Öz ağlınız var. Nə yapacağınızı özünüz bəlli edəcəksiniz, qarşılaşdığınız qoşullar bəlli edəcək" dedi.

[111] Ürün- məhsul.

Bu zaman göylərin dərinliyində qanad çalmadan süzən bir qartala sataşdı arxası üstündə uzanmış olan Bilay dədənin gözləri. Üzünə bir gülücük qondu. Burada yalnız yaşadığı zamanlarda neçə kərə bu qartalı süzərkən görmüşdü. İndi son görəcəyi olacaqdı. Köksünü ötürüb və "Yaşamaq hər qoşulda gözəldir. Son nəfəsə qədər cəsurca və güclücə yaşamaq gərəkir" dedi. Nəfəsi kəsilmək üzrə idi. Yağızlar son kəz olaraq Bilay dədənin əlini öpüb vidalaşmaq istədilər. Öncə Sevilay, Bilay dədənin əlindən öpdü. Bir-bir öpüb yan tərəfə keçirdilər. Ən son Ülgən atasının əlindən öpmək istərkən, Bilay dədə oğlunun əlini əli ilə sıxıb qulağını ağzına tərəf çəkib Ülgənin qulağına "anana söylə ki, heç bir zaman onu unutmadım. Bütün yalnızlıq həyatımda onu ruhumda daşıdım, onunla qonuşub, ona şeirlər oxudum" dedi. Ülgən özünü tuta bilməyib hönkür-hönkür ağlamağa başladı. "Ata, anam da səni sevdi hər zaman. Sürəkli səni anlatdığında sevgi ilə anlatdı..." dedi, ancaq hönkürtüləri davam etməsini önlədi. Bilay dədə son nəfəslərini verməkdə idi. Sözlər ağzından çıxmaqda zorlanırdı. Çox çətinliklə son olaraq "Alpərənlər, öldükdən sonra məni atəşdə yaxarsınız. Külümün Limliyə ulaşmasını istəyirəm. Limli, mənim yurdum, sevimli yurdum" dedi. Susmuşdu. Qonuşa bilmirdi. Bilay alpərən ölmüşdü. Ülgən hönkür-hönkür ağlayırdı. Başqa alpərənlərin də göz yaşları axıb gedirdi. Bir sürə böyləcə zaman keçdi. Bilay alpərənin cənazəsi daşın üstündə ortada idi. Sonunda Özay "İçimiz yanmaqdadır, ancaq böylə ağlayıb durmaqla bir şey olmayacaq" söylədi.

Güvənal: Əvət, Bilay alpərəni yaxmalıyıq.

Savunal: Odun gətirəlim Bilay alpərəni yaxmaq üçün.

Sevilay: Ülgən, arxadaşım, sən istərsən ağlayıb içini boşalt. Biz odun toplamalıyıq. Ağlaya-ağlaya öndərimizi yaxmalıyıq. Bilay dədənin tutsuğu[112] üzərinə davranmalyıq.

Güvənal: Əvət, gerçəkdən də Bilay dədə cism olaraq aramızdan ayrılmışdır. Onun dəyərlər tutruğu[113] bizim yol göstəricimiz olacaqdır.

Gənc alpərənlər odun toplayıb gətirdilər. Bilay dədəni odunun üstünə qoyub yaxdılar. Odun qısa sürədə yanıb kül oldu. Bilay dədənin cismi küllərə qarışdı. Bu sırada Doğudan Batıya doğru külək əsməyə başladı. Külləri alıb savurdu. Limlidə yük daşıyan yağızların üzərinə gizəmli tozlar tökülürdü. Bu günə qədər görmədikləri bir şeylər Limlinin üstündə dolaşırdı.

***

[112] Tutsuq- vəsiyət (Kaşqarlı sözlüyü).
[113] Tutruq- əmanət (Kaşqarlı sözlüyü).

Bilay alpərənin ölümündən sonra artıq gənc alpərənlərin Çərənbil dağında qalmalarının bir anlamı qalmamışdı. Onlar geri dönməli idilər. Geri dönmək üçün gəlmişdilər. Burda olqunlaşıb, yetişib geri dönərək, qurtuluş savaşına girmək üçün bu dağa gəlmişdilər. Bilay dədə yağızların əski anılarını, boyuzlar tərəfindən unutdurulmaqda olan özgün əski anılarını və dəyərlərini onlara öyrətmişdi. Onlar birər alpərən olmuşdular. Gənc alpərənlər. Bu dağda onlar nəfslərini, bədən istəklərini necə sınırlamağı, ən zor qoşullarda dözüm olanaqlarını özümsəmişdilər. Dostluq, vəfa, sevgi, ülkü, yağızcılıq, kimlik qavramları çox dərin və ayrıntılı biçimdə onlara anladılmışdı. Dərin mənəvi dəyərlərlə bir yerdə tikanlardan qılıc düzəltmə sənətini də öyrənmişdilər. Savaşlarının tək amacı eşitlik və dostluq olacaqdı. Qılıcları doğruluq yolunda qınlarından çıxacaqdı. İçləri sevgi, bilgi və inanc dolu alpərənlər geri dönmək istəyirdilər. Beş il boyunca yaşadıları Çərənbil dağı onlar üçün ikinci yurd olmuşdu sanki. Bu dağda onlar dirənişin sirlərini və yöntəmlərini öyrənmişdilər. Bu dağda onlar sevginin, cömərdliyin, varlığın sirlərinə ərmişdilər. Sərt qayaların arasında bərkimişdi inancları və gövdələri. Çərənbil dağından ayrılmanın kədərini içlərində daşıyırdılar. Ancaq keçici kədərlərə görə başladıqları yolçuluqdan və dirəniş savaşından vaz keçəməzdilər. Onlar Çərənbil dağından ayrılmalıydılar. Gənc alpərənlər səssizcə, çevrəni süzürdülər. Kədərli baxışları ilə çevrəni seyr edirdilər. Əski günlər, olqunlaşdıqları günlərin anıları gəlib keçirdi gözlərinin önündən. Sevimli dağın zirvəsindən ayrılmaq zamanı gəlmişdi. Qılıclarını qoltuqlarının altına taxan Özay çox kədərli səs tonu ilə "Arxadaşlar, getməliyik" dedi.

Savunal: Getmədən öncə bir dostluq və arxadaşlıq andı içməliyik.

Güvənal: Məncə də. İçimizdə dalğalanan dostluq və güvənin sözlü tanımı olmalı.

Sevilay: Çox haqlısınız. Böyük bir savaşa girmədən öncə bir-birimizə olan güvənin sözlü anlatımı olmalı. Çünkü bunlar şanlı yağız tarixinin qurtuluş ilkələri olacaqdır.

Dalğın və səssizcə görünən Ülgən bir qayanın altına yürüyüb bir söyüd yarpağı gətirdi. Yarpağın üstündə qum zərrələri ilə kiçik bir hörüt[114] yazılmışdı. "Bir dəfə atamla qonuşurkən, onun danışıqlarından alıntılar alıb bu yarpağın üzərinə yazmışdım. Alpərənlərin arxadaşlıq andıdır" dedi və əklədi: İçimizdə tək xanım Sevilaydır. İstərsiniz Sevilay bu kiçik hörütü oxusun bir yerdə təkrarlayalım.

[114] Hörüt- mətn.

Gənc yağızlar qəbul etdilər. Ülgən söyüd yarpağı üzərində yazılmış hörütü Sevilaya verdi. Sevilay bir kərə hörütü başdan sona qədər oxudu. İndi Sevilayın yüksək səslə söyləyəcəyini gənc alpərənlər təkrarlamalıydılar. Sevilay hörütü oxumadan öncə Savunal "Arxadaşlar, mənim bir önərim var" söylədi.

Güvənal: Buyur söylə, Savunal.

Savunal: Qılıclarımızı çıxaralım. Bilay dədəni yaxdığımız qayanın üstündə qılıclarımızın uclarını birləşdirib and içəlim.

Özay: Çox doğru önəridir. Öylə edəlim.

Ülgən: Əvət, öylə edəlim.

Alpərən yağızlar Bilay dədənin yaxıldığı qayanın üstünə çıxdılar. Qılıclarını çıxarıb ucunu qayanın üstündə bir nöqtəyə dayadılar. Beş qılıcın ucları qayanın üstündə bir nöqtədə burun-buruna gəlib bir-birinə toxunmuşdu. Beş qılıc. Beş parlaq qılıc. Sağ əli ilə qılıcını arxadaşlarının qılıcı ilə bir nöqtəyə dayamış olan Sevilay sol əli ilə söyüd yarpağını tutmuşdu. Sevilay alpərənlərin andını oxumağa başladı. Sevilay söz-söz yüksək səslə oxuyur və dörd gənc alpərən onun söylədiklərini yüksək səslə təkrar edirdilər:

"Biz gənc alpərənlər
Qılıcımıza,
Özgürlüyümüzə
İnancımıza
Şərəfimizə
Alpərənliyimizə
And içirik:
Yağızların
Qurtuluş savaşından
Vaz keçməyəcəyik.
Qılıcımız,
haqsız qan tökməyəcək.
Qılıcımız,
doğruluq yolunda savaşacaq."

Alpərənlərin andiçmə hayqırışları Çərənbil dağında yanqı bulub geri dönürdü. Mavi göyün dərinliyində qanad çalmadan süzən qartal, yağızların andiçmə hayqırışlarını eşidib bir az duruxsayıb onlara baxdı. Çevrədə uçan böcəklər yağızların bu davranışına şaşırmışdılar. Artıq geri dönmə zamanı gəlmişdi. Geri dönmək çətin deyildi, qolay idi. Yolları əzbər bilirdilər. Yağız alpərənlər qılıclarını qınlarına qoyub Limliyə doğru yola düşdülər.

***

Yazın orta ayının orta günü idi. Günorta çağı yağızlar boyuzların gözətimi altında taxıl daşıyırdılar. Limlidə pıçıltılar ağızdan ağıza dolaşırdı. Söyüd yarpaqlarının üstündə yazılmış qısa sözlər ortalıqdaçıqca görünməkdə idi. Yavaşça əsən küləklər yarpaqları Limlidə ora-bura aparırdı. Söyüd yarpaqlarının üstünə yazılmışdı: "Yağızlar, alpərənlər geri dönmüşlər.", "Yaşasın yağızların qurtuluş savaşı.", "Yağızlar, alpərənlərin qurtuluş savaşına qatılın!", "Yağız alpərənlər eşitlik yolunda savaşırlar.", "Boyuzların basqısına son!", "Yağız qurtuluş hərəkəti sizi barışçıl başqaldırıya çağırır.", "Özgülük savaşçılarına qatılın!", "Yağızlar öz yazqılarını özləri bəlli etməlidir.", "Yağızçılıq yağızları yüksəltməkdir."

Yağızlar bir-birlərinə baxıb bu alpərənlərin kimlər olduqlarını baxışları ilə sormaqdaydılar. Boyuzların üst düzeyi yetkililəri tələm-tələsik toplantı keçirmişdilər. Alpərənlərin Limlidə gizlincə yaşayıb yağızlarla ilişkiyə girdiklərini saptamışdılar. Onların bulunması və onlarla ilişkiyə girən yağızların tutuqlanması qərarlaşdırılmışdı. Ancaq boyuzların "Yağızları Gözətim Qurulu" alpərənlərin gizləndikləri yeri tapa bilmirdilər. Gün keçdikçə də alpərənlərin göndərgələri[115] artaraq davam etməkdə idi. Son olaraq həftə başında alpərənlər həftənin duzgünü[116] və təkgünlərində günorta çağı Limlinin ortasındakı suquyusunun çevrəsində barışçıl böyük göstəri düzənləyəcəklərini yaymışdılar. Bütün yağızlar bu göstəriyə çağrılmışdı. Yağızlarda böyük qorxu var idi. Boyuzlar qılıcanın[117] qılcıqlarından düzəldilmiş süngülərlə donatılmışdılar. Yağızlar boyuzların bu qorxunc silahından çəkinirdilər. Ancaq boyuzların basqısından bezmiş olan yağızlar da az deyildi. Onlar bu göstəriyə getməyə qərar vermişdilər. Duzgünü idi. Taxıl daşıyan bir sürü yağız günorta çağını bəkləməkdəydilər. Günəş Limlinin güneyinin tam ortasında idi. Bu sırada bir yağız qızın səsi yüksəldi: "Yaşasın yağızların özgürlük savaşı!" Bu səsi dinləyən yağızların ruhunda bir titrətmə başladı sanki. Sevilay idi. Sevilay Quyunun çevrəsində bir daşın üstünə çıxmış bir neçə yağıza yüksək səslə söyləv[118] söyləyirdi. Bu səsi duyan yağızlar sel kimi quyuya doğru axındılar. Silahlarla donatılmış boyuzlar çalışsalar da, yağız axınının önünü kəsə bilmədilər. Minlərcə yağız

[115] Göndərgə – məsaj.
[116] Muğanda duzgünü bazarertəsinə deyilir. Muğanda qızılbaşlar arasındakı həftə günlərinin adları: Duzgünü, təkgünü, çərşənbə, adınaaxşamı, adına, şənbə, sütgünü.
[117] Qılıca- qara buğda sünbülünə bənzəyən vəhşi bitkidir.
[118] Söyləv- nitq.

qısa bir zamanda quyunun çevrəsində toplaşdı. Durumu bu biçimdə görən Sevilay ruhlanmışdı. Yağızlar çiyinlərindən daşıdıqları taxıl yükünü buraxıb Sevilayın özgürlükçü hayqırtısına doğru yürümüşdülər. Yorğun yağızlar, içlərindən biri olan bu qızın nələr söyləyəcəyini bilmək istəyirdilər. İşçi yağızları görən Sevilay daha da özgüvənlə danışmağa başlamışdı. Onları boyuzların köləliyindən qurtarma duyğusu içində öyləsinə dalğalanırdı ki, bu işçi yağızların hər tək-təkini nə qədər sevdiyini o an anlayırdı. Bu sevgi alovlu söyləv biçimində içindən dışarıya fışqırırdı. Sevilayın çevrəsində başqa dörd silahlı alpərən görünürdü. Sevilay ona zillənmiş yağızların, işçi yağızların yazıqca baxışlarını görürdü. Qurtuluş istəyən baxışlar. Baxışlar sanki səssizcə "Danış alpərən qız, danış! Danış görək nə söyləyəcəksən,? Söylə nə zaman bu əsarətdən qurtulacağıq?" deyə hayqırırdı. Boyuz özəl savaşçıları böyük toplantını quşatmışdılar. Göstərinin necə irəliləyəcəyini gözləyirdilər.

Sevilay içindəki duyğu selini bir tür önləyib qonuşmağa başladı:

Yağızlar, hər şeydən öncə alpərənlik törəsinin ölmədiyini, yağız alpərənlik törəsinin yaşadığını sizlərə duyurmalıyam. Alpərənlər yağız qurtuluş savaşına başlamışlar. Bizim savaşımız yağızları boyuzların köləliyindən qurtarmaq üçündür. Yağızların durmadan boyuzlara taxıl daşımasına son verilməlidir. Yağız dili, yağız kimliyi üzərinə uyqulanan[119] hər türlü basqı qaldırılmalıdır. Bizim savaşımız boyuz kimliyinə qarşı deyil. Kölelik düşüncəsinə, kölelik düzəninə qarşıdır. Boyuzların uyquladıqları bu yöntəm yağızlara daha çox zərər versə də, boyuzları da get-gedə sayrulaşdırmaqdadır. Sayru boyuzlar özlərini üstün soy olaraq görməkdə, bizi aşağılamaqdadırlar. Yağız alpərənlər bu duruma son vermək üçün böyük fədakarlıqla savaşa başlamışlar. Yağız tarixində yeni bir dönəm başlamışdır. Böyük bir devrim gerçəkləşəcəkdir. Bütün qarışqalara eşitlik yolunda savaşacağıq. Yağızlar və boyuzlar dost qarışqalar olaraq bir yerdə, bir ölkədə yaşaya bilərlər. Bunun üçün boyuzların gözətimində olan yönətim devrilməlidir. Eşit biçimdə güc paylaşılmalıdır. Böylə olmazsa, boyuzlar bunu qəbul etməzlərsə, durumun gərginləşməsindən boyuzlar sorumlu olacaq.

Sevilay bir nəfəsə söyləvini söylədi. Sevilayən odlu-alovlu söyləvi yağızları həyəcanlandırmışdı. Yağız kütləsinin ruhunda özgürlük qığılcımları baş qaldırırdı. Sevilay hayqıraraq "Ya... ğız... la... ra öz...gür... lük" söylədi. Bütün yağız kütləsi bir yerdə "Ya... ğız... la... ra öz...gür... lük" deyə Sevilayın söylədiyini təkrarladılar. Limlidən yüksələn "Yağızlara

[119] Uyqulanan- tətbiq edilən.

özgürlük" şüarı İdəli ölkəsində də eşidilirdi. Çevrə dağlardan yanqı* bulub uzayların dərinliyinə yüksəlirdi yağızların özgürlük hayqırtıları. Durum daha da cığırından çıxmasın deyə, boyuz silahlılarına göstərini dağıtma buyuruğu verildi. Boyuz əsgərlər saldırıya keçdilər. Qarşılarına çıxan yağızları qılıca qılcığının süngüsü ilə vururdular. Qalabalıq bir-birinə girməyə başladı. Alpərənlər onların barışçıl göstərilərinin bu biçim dağıdılacağını düşünməmişdilər. Yüzlərcə yağız qanına bulaşdı. Quyunun çevrəsində yağızların qanından kiçik bir arx oluşub axmağa başladı. Alpərənlər Sevilayı alıb ortadan çıxmaq istəyirdilər. Ayaqları yağız qanına batırdı. İlk kəz olaraq yağızların özgürlük yolunda böyləsinə qanları axıb sel olmaqda idi. Bu zaman Sevilayın gözləri Xamuta sataşdı. Bir az kənarda Xamut alpərənləri göstərib "Alpərənlər onlardı, yaxalayın onları" deyə əmr verirdi. Xamut geri döndükdən sonra boyuz yönətimində üst düzeyə yüksəlibmiş demək. Bu günkü yağızlara saldırının komutanlığı Xamutun əlində idi. Alpərənlər bir-birinə baxdılar. Heç bir şey söyləmədilər. Ortadan çıxmalı idilər. Qaça-qaç başlamışdı. Qalabalğın içində bir qadın yağız "Ülgəəən!" deyə bağırırdı. Ancaq Ülgən bu səsi eşitmirdi. Qadın Ülgənə doğru qaçırdı. Qadın, Ülgənin və digər alpərənlərin tam qarşısına çıxmaqda ikən, iki boyuz əsgər iki tərəfdən qadının qabırğasına süngülərini soxdular. Qadın yüksək səslə "Ülgəəəəniiim!" deyə bağırdığında Ülgən dönüb baxdı. Anası idi. "Anaaaa!" deyə anasına doğru yürüdü. Bu zaman boyuz əsgərlər Ülgənə saldırdılar. Ülgən qoltuğunun altından qılıclarını çıxarıb savaşa başladı. Önünə gələn boyuzların süngülərini vurub əllərindən salırdı. Alpərənlik savaşının ilk quralı qarışqa öldürməmək, qarışqaları silahsızlandırmaq idi. Ülgən yüzlərcə boyuzun silahını vurub saldı. Savaşa-savaşa anasına doğru irəliləyirdi. Anası yaralanmış, yerdə uzanmışdı. Oğlunun savaşını yaralı-yaralı seyr edirdi. Öz-özünə "Alpərən oğlum, tam atan kimi olmuşsan, atan kimi savaşırsan" deyə pıçıldadı. Boyuzlar Ülgəni quşatmışdılar. Xamut "Ülgəni və arxadaşlarını yaxlayın!" deyə bağırırdı. Ülgən geriyə dönüb baxdı. Arxadaşları savaşa-savaşa ona doğru gəlirdilər. Ülgəni və yaralanmış anasını quşatmadan* çıxarıb Bayquşyuvasına enmək istəyirdilər. Ancaq boyuz əsgərlərin sayı getdikçə artırdı. Boyuzlar Xamutun buyuruğu üzərinə quşatma dairəsini get-gedə daraldırdılar. Alpərənlər boyuzların silahlarını vurub salmaqla quşatmanı dələ bilməyəcəklərini gördülər. Beş yağız bir-birinə çatmışdı. Quşatmadan çıxa bilməyəcəklərini baxışları ilə bir-birinə anlatdılar. Bu zaman beşi də bir yerdə qorxunc səslə bağırdılar. Bir an boyuzlar

* Yanqı- əksi-səda. Səsin dağdan qayıtması.
* Quşatma- mühasirə.

qorxularından yerlərində duruxub qaldılar. Bu, onların barış üçün deyil, öldürmək üçün savaşmalarının rəmzi idi. Yağızların savunulması üçün öldürmək. Quşatmadan çıxmaq üçün öldürmək. Güvənal ilk başladı. Iki qılıcı ilə boyuzlara saldırdı. Arxasınca Savunal və Özay. Ülgən boyuzları kəsə-kəsə anasına doğru irəliləyirdi. Sevilay da Ülgənin yardımına qoşdu. Ancaq boyuzların axını Sevilayın savaş yönünü dəyişdirdi. Boyuzlar alpərənləri bir-birindən uzaqlaşdırıb, təkləmək istəyirdilər. Ülgən anasına çatmışdı. Anasını çiyninə alıb boyuz birliklərini yara-yara Bayquşyuvasına doğru hərəkət etdi. Özay, Savunal və Güvənal da quşatmanı yarmışdılar. Ancaq Sevilaydan xəbər yox idi. Yüzlərcə boyuz əsgərin qafası getmişdi. Bayquşyuvasında dörd alpərən buluşdu. Bir-birlərinə baxıb və baxışları ilə "Sevilay harda?" deyə sordular. Sevilay yox idi. Geri dönmələri də mümkün deyildi. Sevilayı qapdırmışdılar. Ülgənin anasının yaralarından qan sürəkli durmadan axırdı. Ülgənin yardımına gəlib anasının yarasını sarımaq istədilər. Yaraya baxdıqlarında gördülər ki, iş-işdən keçmiş. İki tərəfindən qabırğalarını süngülər sərtcə dəlmişdi. Ülgənin anasının ölümünü önləyə bilməyəcəkdilər. Ana oğlunun boynuna sarıldı. "Ülgənim, geri döndün demək. Geri dönəcəyini bilirdim Ülgənim. Atan niyə dönmədi oğlum?" dedi. Ülgən anasının solmaqda olan üzünə baxırdı. Bir neçə kərə "Ana, ana can" söylədi. Atası ilə bağlı heç bir şey söyləmədi. Anası dörd alpərənə üzünü tutub "Alpərənlərim, analarınızın südü halalınız olsun, soyunuzu köləlikdən qurta..." demək istədi. Ancaq bitirə bilmədi. Ölmüşdü. Əlləri Ülgənin boynuna bərk-bərk sarılaraq ölmüşdü. Ülgən atasının ölümündə olduğundan da daha sərtcə hönkürtü ilə ağladı. Alpərənlər sayqı ilə Ülgənin qucağında ölmüş olan ananın ruhu qarşında durmuşdular. Bir az səssizlikdən sonra Güvənal "Özgürlüyümüz üçün böyük bədəl ödəyirik. Bu ölümlər bizi yıldırmamalıdır" dedi.

Savunal: Ananı yaxıb amacımıza yönəlməliyik. Bu yolda biz özümüz də fəda ola bilərik. Ülgən, səni anlayırıq, ancaq başqa çözgəmiz yoxdur. Özünə gəl!

Özay: Əvət dostlarım, çox haqlısınız. Bu gün, yalnızca Ülgənin anası deyil, yüzlərcə analarımız, atalarımız, bacı və qardaşlarımız öldürüldü. Onların hamısı bizim üçün dəyərli yağızlar. Hamısı bizim öz soyumuz.

Ülgən özünə gəlmişdi. Anası qucağında səssizcə yatmışdı. Üzünü dostlarına tutub "Haqlısınız alpərən dostlarım. Onların hamısı bizim soyumuz. Hamısı yağız. Yardım edin anamı yaxalım" söylədi.

Yağızlar ananı Ülgənin qucağından almaq istədilər. Ancaq başarmadılar. Ana ölərkən oğlunun boynuna bərk-bərk sarılmışdı. Bir-birinə

sarılıb düyünlənmiş əllərini alpərənlər Ülgənin boynundan qopara bilmirdilər. Sonunda zorla ananın əllərini Ülgənin boynundan aralayıb qopardılar. Ülgən boynunu çəkib çıxardıqdan sonra ölmüş ananın əlləri yenə də boşluqda bir-birinə düyünləndi. Alpərənlər ananın cənazəsini alıb Balaxanbacasına doğru bir daşın üstünə çıxıb burada cəsədi yaxdılar.

***

İlk əməliyatları başarısız olmuşdu. Bir sürü yağız qətl edilmiş, Ülgənin anası öldürülmüş, Sevilay əsir düşmüşdü. Alpərənlər çox gərgin idilər. Bəklədikləri qədər yağızlar onlara qatılmamışdı. Ortaq görüşləri bu idi ki, yağızlar soysuzlaşdırılmışlar. Yağızların oyanışı üçün başqa yöntəm seçmələri gərəkirdi. Ülgən ağır dalğınlığını qırıb "Arxadaşlar, bu yöntəmlə bir iş görə bilməyəcəyəik. Fərqli yöntəm gəlişdirməliyik" deyə sözə başladı.

Savunal: Əvət, böylə yöntəmlə başaramayacağımız bəlli. Yağızlar çox yabancılaşmış, boyuzlaşmışlar. Mən milyonların bu göstəriyə qatılacağını bəkləyirdim.

Güvənal: Sorumluluğumuz daha da artacaqdır. Yağızların ölümünə nədən olacaq yöntəmlərdən vaz keçməliyik. Çox acı və ağır təcrübə oldu.

Özay: Olmuşlara üzülmənin bir anlamı yox. Bu təcrübəni yaşamasaydıq, indiki bilgilərimiz də olmayacaqdı. Ayrıca, bu tökülən qanlar yağızların oyanışında etkisiz olmayacaq, kəsinliklə etkili olacaq. Bizim gələcəkdəki işlərimizdə bu tökülən qanlar yağız oyanışına təkan verəcəkdir. Yetər ki, biz qurtuluşa olan inancımızı itirməyək.

Ülgən: Mənim bir düşüncəm var. Artıq bu yöntəmi bir yana buraxmalıyıq. Limlinin dörd yanında üslər[120] qurmalıyıq. Yağızların bu üslərə qaçmalarını yaymalıyıq. Uzun sürə içində oluşan bir işdir. Aydınlama devri və devrimi başlatmazsaq, yağızların bu düzeyi[121] ilə heç bir iş edə bilmərik. İzn versəniz düşüncəmi daha da ayrıntılı biçimdə anlatmaq istərdim.

Üç alpərən yağız bir yerdə: Buyur Ülgən, anlat, dinləyirik.

Ülgənin səs tonu dəyişmiş daha kəskin və istəncli biçimdə söyləvinə davam etdi: Arxadaşlarım, mənim özət olaraq söylədiyim budur. Özay Limlinin güneyində Güdədərədəki üssün sorumlusu olmalıdır. Güvənal Limlinin Batısında Qaravulda bir üs qurmalıdır. Savunal Limlinin doğusunda Genbacada öz üssünü qurmalıdır. Mən də Limlinin Quzeyində

[120] Üs- qərargah.
[121] Düzey- səviyə.

İşıqçıxmazda üssümü quracağam. Limlidə bu üslərin qurulduğu xəbərlərini yaymalıyıq. Yağızların bu üslərə varmalarını istəməliyik. Bu üslərdə yağızların aydınlanması üçün gərəkən hər şeyi etməliyik. Yağız bilincinə girmiş boyuzçuluğu ortadan qaldırmazsaq, qurtuluşumuz mümkün olmayacaq. Boyuzlar əsarət duyğularını yağızların ruhuna soxmuşlar. İlk addımlardan başlamaq zorundayıq. Yağız dilinə önəm verib dilimizin gözəlliyini, dərinliyini açıqlamalıyıq. Yağız dilində, özəlliklə yeniyetmə və gənc yağızları eyitməliyik. Yağızların çoxu öz dillərini unutmuşlar. Susdurulmuş yağız ruhunu, yalnız bu biçim oyada bilərik. Aydınlanma evrəsi ayrıntıları ilə başlamasa, boyuzlaşma davam edəcək və biz tarixdən silinəcəyik. Yağızcaya önəm verməliyik arxadaşlar.

Ülgən bu dəfəki danışığında daha qətiyətli danışırdı. Bu yolda Ülgənin həm atası, həm də anası özlərini fəda etmiş, sevdiyi Sevilay da tutuqlanmışdı. Bütün bu ağrılar, sanki Ülgənin iradəsinə, qətiyətinə dönüşmüşdü. Boyuzların əsarətində Sevilayın başına nə bəlalar gətirildiyini bilmirdilər. Ülgənin söylədikləri ilə başqa alpərənlər razılaşdılar. Bu arada Özay "Sevilayı necə qurtaracağıq?" deyə sordu.

Savunal: Doğru, onun qurtuluşu üçün bir işlər etməliyik.

Güvənal: Sırf Sevilayın qurtuluşu üçün bir son əməliyat gerçəkləşdirəlim. Daha sonra Ülgənin söylədiyi kimi Limlinin dörd yanında üslərimizi quralım.

Ülgən: Sevilayın harda saxlandığını bilmirik. Sayımız çox azdır. Yanlış davranışlarımızla özümüzü ölümə versək, yağızlar qurtulmayacaq. Bu üzdən də Sevilayın qurtuluşunu yağızların tam olaraq qurtulduğu günə saxlayalım. Mənim düşüncəm bu biçim. Sizlər nə düşünürsünüz arxadaşlarım?

Alpərənlər bir-birinin üzünə baxıb susdurlar, bir şey söyləmədilər. Ülgən, arxadşlarının susqunluğunu onunla anlaşdıqları anlamında görüb davam etdi: Mənim önərilərimlə razısınızsa, həmən işə başlamalıyq. Limlidə bu xəbəri yaymalı və hər kəs quracağı öz üssünə doğru yola düşməli, orda bizə sığınan yağızları eyitib örgütləndirməliyik.

Yağızlar bu ortaq qərarı içdənliklə* qəbul etdilər. Yağız dilinin qurtuluşunu yağızların tək qurtuluş yolu kimi görürdülər. Bu üzdən də özlərini bir savaşçıdan daha çox bir öyrətmən görməyə başlamışdılar. Yağızlara bir-bir də olsa, öz dillərini sevdirmək gərəkir düşüncəsində idilər. Bu düşüncə ilə ayrılıb daşın altında yuxuya daldılar. Ülgənin yuxusu gəlmirdi. Sol əli ilə sağ qoltuğunun altına toxundu. Sevilayın qılıc yarasının

* İçdənlik- səmimiyət.

izini hiss etdi. Dərindən köks ötürüb gözlərini göylərdə sayrışan sonsuz ulduzlara tikdi.

***

Limlidə yağızlar arasında xəbərlər dolaşırdı ki, alpərənlər Limlinin çevrəsində aydınlanma üsləri qurmuşlar. Güdədərədə, Qaravulda, İşıqçıxmazda və Genbacada aydınlanma üslərinin qurulduğu dildən dilə dolaşırdı. Yağızların içində gizlin çaxnaşma var idi. Boyuzlar da bu xəbəri duymuş, yağızların Limlinin dışına çıxmalarına sərt önləmlər almışdılar. Boyuzların başçısı Başalan haqqında qorxunc xəbərlər dolaşırdı. Başalanın çıldırdığı və yağızlara nifrəti üzündən yağız əti yeməyə başladığı xəbərləri dolaşırdı. Ara-sıra yağızların birdən yoxa çıxmaları bu xəbəri doğrular yöndə idi. Yağızlar iki qorxu arasında burxulub qalmışdılar. Bir yandan Başalan yağız əti yeməyə başlamışdı, başqa tərəfdən Limlinin dışına çıxacaq olanları qorxudurdular.

***

Sevilay əsir yaxalandıqdan sonra yerin altında qorxunc bir zindana aparıldı. Əl-qolunu bağlayb zindana atdılar. Boyuzların başçısı Başalan "Yağızları Gözətim Qurumunun Başqanı" Asarı Xamutla bir yerdə yanına çağırdı. Başalan qorxunc görünümü ilə qəzəbli biçimdə onlara diqqətlə baxdı. Ətrafında ətlərini yediyi yağızların sümükləri görünürdü. Sümüklərin təmizlənməsini Başalan özü istəmirdi. Çevrəsində öldürülmüş, əti yeyilmiş yağızların sümüklərini görməkdən xoşlanırdı. Başalan öncə, özəlliklə Xamuta diqqətlə baxdı. Xamut durduğu yerdə qorxusundan tir-tir titrəyirdi. Daha sonra sanki köhnəlmiş paslı qapının səsi kimi Başalanın səsi səssizliyi pozdu. "Asar və Xamut! Ən qısa zamanda alpərənlərin yaxalanmasını və onları hüzuruma gətirmənizi istəyirəm. Sən Xamut! Sən onlarla bir sürə yoldaşlıq etmişsən. Kimliklərini, amaclarını daha yaxşı bilməlisən. Onları yaxalamaq sənin üçün çətin olmamalıdır. Birini yaxalamışısnız. Onu öldürməyin! Ondan arxadaşlarının nə edəcəkləri haqda bilgi alın! Anladınızmı?" dedi. Bu zaman Başalanın yanına böyük bir əqrəb gəldi. Başalan qorxunc səslə "Mən alpərənlərlə nə edəcəyimi yaxşı bilirəm" deyib yüksək səslə güldü. Əqrəbdən yanında oturmasını rica edərək Asar və Xamuta "Gedə bilərsiniz. Gedin və mənə xoş xəbərlər gətirin!" dedi. Asar və Xamut titrək ayaqları ilə arxaya çəkilib uzaqlaşdılar. Yolda Asar "Xamut,

Sevilayın işi ilə sən uğraş. Öncə yumşaq davran. Danışmazsa, ölməyəcək qədər işkəncə edə bilərsən. Ayrıca, ona yağızlar üçün bəlli özgürlüklərin veriləcəyindən də söz et! Unutma ki, yenilsək, ilk öncə səni öz soyuna ihanətindən dolayı asacaqlar" dedi. Dönəcəkdə ayrılmaq üzrə ikən, Xamut "Mən ona nə edəcəyimi bilirəm sayın Asar, siz arxayın olun!" dedi.

Xamut birbaşa Sevilayın tutuqlu bulunduğu zindana getdi. Sevilayın əl-qolu hörümçək torları ilə bağlanmışdı. Girəcəkdə əlində süngü iki gözətçi var idi. Xamutu görər-görməz başlarını əyib sayqı duruşunda bulundular. Xaumut içəri girdi. Sevilayın üzünə diqqətlə baxdı. Sevilayın üzündə heç bir yenilgə izləri görünmürdü. Sanki əlləri- qolları bağlı olan o deyildi. Üzündə yenilgə yerinə tam savaş və uğur bəlirtiləri sezilməkdə idi. Bu, Xamutu çox rahatsız etdi. Xamut daha da irəli gedib Sevilayla üz-üzə durdu. Sevilayın gözlərində parlayan dözüm və yenilməzlik Xamutu rahatsız edirdi. Necə başlayacağını, nə deyəcəyini bilmirdi. Özünü toparlayıb "Bax Sevilay, bilirsən ki, mən də bir yağızam. Yağızların daha artıq zərər görməsini istəmirəm. Bir az öncə boyuzların başçısı Başalanla görüşdüm. Başalan yağızlara edilən basqıların ortadan qalxmasında yardımçı olacağını söylədi. Siz qorxunc işlə məşğulsunuz. Sizin bu işinizlə bütün yağızlar tarixdən silinə bilər. Mən düşünürəm ki, sən fərqli bir yol seçib yağızlara yardımçı ola bilərsən. Çünkü tutduğunuz yol yağızlara boyuzlardan daha çox zərər verir. Səndən istəyim budur ki, Ülgənin, Özayın, Güvənalın və Savunalın hədəfləri, nə etmək istədikləri və harda barına biləcəkləri haqda mənə bilgi verəsən. Sən bu işinlə bütün yağızlara xidmət etmiş olarsan" dedi.

Sevilay Xamutu dinlədi. Qonuşmaq istərkən, üzündəki zəfər ışartıları daha da parlar olurdu. Başını qaldırıb gözlərini Xamutun gözlərinə zilləyib "Bax Xamut, sən mənim dediklərimi anlaya bilməzsən. Anlaya biləcək iç evrim evrələrini keçirməmişsən çünkü. Sən bizimlə yola düşdün, ancaq yolların çətinliyi qarşısında geri dönüb daha asan, daha rahat bir yaşam biçimi seçdin. Həm də öz soyuna ihanət edərək. Sən fikrən və ruhən yenilmiş bir yağızsan. Sənə söyləyəcəklərim budur: Sevgə ən böyük devrimdir. Devrimlərin ən böyüyü sevgidir. Alpərənlərin ruhunda bu devrim gerçəkləşmişdir. Onları yeneməzsiniz. Bizlər yenilməz olmuşuq. İçimizdəki sevgi devrimi əyilməmizə, yenilməmizə əngəl olur. Sən isə, savaşmadan yenilmiş birisən. Bir alpərənin sənlə əməkdaşlıq edəcəyini düşünürsənsə, yanlımaqdasan. Bu, mənim sənə söyləyəcəyim son sözümdür. Bundan sonra alpərənliyin dözüm quralının "qonuşmama orucu"nu öz üzərimdə uyqulayacağam. Bir tək söz bilə, məndən alamazsınız" dedi. Daha sonra susdu. Xamut nə dedisə, Sevilaydan yanıt gəlmədi. Gözətçiləri çağırıb

Sevilaya işkəncə etmələrinə əmr etdi. Sevilaydan bir türlü səs çıxmadı. Sonunda Xamut Sevilayın ayaqlarına qapanıb yalvarmağa başladı: "Sevilay, yalvarıram qonuş. Arxadaşların haqqında bilgi ver. Mən yağız deyiləmmi? Qonuşmazsan məni öldürəcək Başalan, qonuş, yalvarıram qonuş!" dedi. Sevilaydan səs çıxmadı.

***

Özay Limlinin Güneyində Güdədərədə çömbəlib Limliyə tərəf baxırdı. Güdədərəni Limlidən ayıran Qurbantəpəsi adında bir təpə var idi. Qurbantəpəsindən Limlinin hər tərəfi açıqca görünürdü. Güdədərəyə gedəcək olan yağızlar burdan keçib getməli idilər. Özay Güdədərəyə vardıqdan sonra denətimlərdə bulunmuşdu. Güdədərədə savaş eyitim yerləri açacaq, Güdədərənin arxasında Sulubacada alpərənlik eyitim qurumları quracaqdı. Sulubacada iki önəmli özəllik var idi. Sulubacanın ortasında Şüştəpə adında yüksək bir dağ var idi. Alpərənlik zirvəli bir dağda daha yaxşı öyrənilirdi. Dağın ətəyində isə, bir bulaq var idi. Bu bulaqdan dolayı da bu bölgənin adı Sulubaca idi. Özay burada yeni yağız quşağının[122] eyitimi ilə uğraşacaqdı. Özayın gözlərinə Qurbantəpəsində hərəkət edən qaraltı sataşdı. Diqqətlə baxdı. Bir şey sezə bilmədi. Yalnızca hərəkət edən bir şeylər görürdü. Hərəkətdə olan qaraltı yaxınlaşdıqca Özayın üzünə gülücüklər qonmağa başladı. Yağız gənclər idi. Yağız gənclər Limlidən uzaqlaşıb alpərənlərə varmaq istəmişdilər. Hər yağız qaça biləcəyi yönü seçmişdi. Yağızların Genbacaya, İşıqçıxmaza, Qaravula, Güdədərəyə qaçışları başlamışdı. Yağızlar qorxularını yenib gizlincə alpərənlərə varmağı istəmiş, qurtuluş yolunu seçmişdilər.

Özay gənc yağızları bağrına basıb öpürdü. "Xoş gəldiniz!" deyib sevincindən nə edəcəyini bilmirdi. Yağızlar Limlidə durumun çox ağır olduğunu deyirdilər. Ayrıca, yüzlərcə yağızın Genbacaya, İşıqçıxmaza və Qaravula qaçdıqlarını da deyirdilər. Ələ düşən fürsətdə yağızlar bu dörd bölgədən birinə qaçırlar deyə həyəcanla danışırdılar.

Günlər keçdikçə, alpərənlərə qaçıb sığınan yağızların sayı artırdı. Bu dörd bölgədə on minlərcə yağız eyitim görməyə başlamışdı. Alpərənlərə sığınan yağızlar ruhi və bədən eyitimlərindən keçirdilər. Zaman keçdikçə, savaşçı yağızların sayı artırdı. Özay Şüştəpənin başında alpərənlik dərsləri keçirdi. Bunun yanısıra Güdədərədə düzənli bir ordu oluşumunun eyitimi ilə də uğraşmaqda idi. Yağızların sevimli dostu olmuşdu Özay alpərən. Onun

[122] Quşaq- nəsl.

fədakarlığı, yağızlara gözəl bir örnək oluşdurmuşdu. Özay yağızların sevimlisi olmuşdu.

Genbacadan bir yol uzanırdı İşıqçıxmaza tərəf. Bu yola Belyolu deyirdilər. Belyolu Qaravulun ətəklərindəki Elyolu ilə birləşirdi. Elyolu Güdədərəyə qədər uzanıb gedirdi. Alpərənlər bu yollarla bir-birinə göndərgədə bulunurdular. Özəl çaparlar[123] seçilmişdi. Bunların görəvi dörd üs arasında xəbər aparıb gətirmək idi. Çaparların verdiyi bilgilərə görə hər dörd bölgədə durum sanıldığından daha yaxşı imiş və on minlərcə yağız eyitimə alınmışdır. Bu xəbərlər alpərənləri və yağızları sevindirir, onlarda ruh yüksəkliyi yaradırdı. Bütün üslərdə yağız dilində oxullar açılmış, özəlliklə yeniyetmə və gənc yağızlar burada yağızcanı dərindən öyrənirdilər. Yağızcanın ölməyəcəyinə güclü bir inanc şəkillənmişdi. Bu inanc onların son savaşda uğur qazanacaqlarına da yansıyırdı. Yeni bir yağız kimliyi oluşurdu. Öz dilində düşünən, öz dilində yazan yağızlar. Öz dillərini öyrənən yağızlarda özgüvən yaranırdı. Ortaq görüş bu idi ki, yağızlar öz dillərində yazıb-oxumadıqları üçün əsarətə təslim olurlar. Yağız kimliyinin biçimlənməsində yağız dili orta dirək rolunu oynayırdı. Yağızlar yenidən doğur, yenidən var olurdular. Varlığa baxışları dəyişirdi. Daha öncə yağız dili uğrunda savaşacaqlarını heç ağıllarına gətirməzdilər. İndi isə, üslərdə eyitilən hər bir yağız üçün yağız dili yolunda savaşmaq bir şərəf sayılırdı. Yağızcılıqla yağızcacılıq eşanlamlı[124] anlayışlar kimi alqılanmaqda idi. Bə ´zən Ülgən, Savunal, Güvənal və Özay yağızların yağız dilində dərin bilgi içərikli dartışmalarını gördüklərində içləri umutla dolub-daşırdı.

Bu şəkildə zaman irəliləyirdi. Bir gün çapar yağızlar Ülgəndən özəl xəbər gətirdilər. Ülgən üslərin birinin Limliyə denəmə saldırı düzənləməsini önərmişdi. Boyuzların nə kimi hazırlıqlar etdiklərini bilmək üçün denəmə bir saldırı gərəkdiyini savunmaqda idi. Alpərənlər Ülgənin bu önərisini qəbul etdilər. Özay çaparlara söylədi ki, bu saldırını mən düzənləmək istəyirəm. Başqa alpərənlər də bu saldırya könüllü olduqlarını duyurdular. Ancaq Özayın istəyi üzərinə denəmə saldırının yapılması ona buraxıldı.

***

Özay eyitdiyi ordusunu bu savaş üçün hazır duruma gətirdi. Sulubacada olan yağızların da Güdədərəyə gəlməsini istəmişdi. Taxıl daşıyan yaşlı yağızlar, yağızca öyrənən yeniyetmə gənclər və başqa gənclər

[123] Çapar- qasid, postçu.
[124] Eşanlamlı- sinonim, mütəradif.

də toplanmışdılar. Sağlığı yerində olmayan yağızlar da Güdədərədəki toplantıya gəlmişdilər. Güdədərədəki yağızlar arasında böyük bir coşqu var idi. Yağızlar öz kimliklərini anladıqca yaşamın nə qədər gözəl olduğunu da anlayırdılar. Özgürlüyün necə bir nemət olduğunu hiss edirdilər. Yeni mutlu yağız həyatı başlamışdı Güdədərədə. Bu mutluluq içlərində dalğalandıqca Limlidəki milyonlarca yağızı qurtama görəvlərini də anlamış olur, böyük bir qurtuluş savaşına qatılmağı şərəf sayırdılar. Özay on minlərcə yağızın önünə çıxıb öncə onları diqqətlə izlədi. Yağızların üzündə dalğalanan sevinc görüntüləri Özayı məmnun edirdi. Limlidən qaçarkən, ayaqları qırılıb axsaq duruma düşmüş yağızlara özəl sayqı göstərilirdi. Özayın öndərliyində sayqılı yeni yağız mənəviyat ortamı qurulmuşdu. Dayanışma və yardımlaşma üçün hər tür fədakarlığa hazır olan yeni yağız quşağı ortaya çıxmışdı. Əsarət duyğularını varlıqlarından, dünyagörüşlərindən silib, söküb atmış özgür yağızlar. Onlar bu böyük mutluluğu Özayın fədakarlığına borcluydular. Özay yağızların yolunda böyük fədakarlıqlar etmiş, bə´zən ölümə qədər irəli getmişdi. "Alpərənlik mütləq fədakarlıq duyğuları ilə yaşamaqdır" deyirdi Özay. Bunu da davranışları ilə sərgiləyirdi. Ölüm qorxusunu varlığından silib atmış olan Özay bütün yağızların onun kimi olmasını bəkləmirdi. Bunun üçün özəl eyitimlər gərəkirdi. Etdiyi fədakarlıqları unudurdu. Bir yağız onun hansısa fədakarlığı haqqında danışmaq istərkən, "Mən anımsamıram. Bu, nə zaman olmuş?" deyə gülə-gülə sorurdu. "Alpərənlik, duyğuda və düşüncədə fədakarcasına irəliyə doğru yürüməkdir" deyirdi. Özay yağızlar üçün özgür yağız örnəyi idi. Özayın igidliyi, dürüstlüyü və fədakarlığı Güdədərədə toplanan yağızlarda qurtuluş ümidini gücləndirirdi. Özay bu qorxunc savaşa girmədən öncə Güdədərədə toplanan yağızlara bir söyləv söyləmək istəyirdi. Yağızlar Özayı dinləmək üçün toplanmışdılar. Özay bir daşın üstünə çıxıb söyləvinə böylə başladı:

Yağızlar, biz uzun zamandır Güdədərədə yağız kimliyini, yağız dilini və tarixini öyrənməkdəyik. Öyrəndiyimiz bilgilər bizi qurtuluş savaşına girməyə sövq etməkdədir. Bütün öyrəndiklərimiz boyuzlar tərəfindən unutdurulmuş gerçək kimliyimizdir. Biz yağız soyundanıq. Artıq Güdədərədə öz tarixi anılarını anımsayan on minlərcə yağız yetişmişdir. Bu öyrənmə süräci durmadan davam edəcəkdir. Buna bənzər yağız kimliyinin yüksəlişi Genbacada, İşıqçıxmazda və Qaravulda da davam etməkdədir. Bütün yağızlar bir gün Limliyə dönərək, orada indilik əsarətdə bulunan milyonlarca soydaşımızla bir yerdə öz yurdumuzda yaşayacağıq. Sevgili yağız arxadaşlarım, özgürlük, yalnızca bir tək yağız olaraq qurtulmaq deyildir. Başqaları üçün yaşaya bilmə sənətini də Güdədərədə

bulunduğumuz sürə içində öyrəndik. Bu gün Limlidə boyuzların səltənətini devirmək üçün böyük bir savaşa girəcəyik. Yurddaşlarımızın qurtuluşu üçün savaşacağıq. Bu savaşa qatılmaq istəyən varmı?

Güdədərəni on minlərcə yağızın "vaarrr" fəryadı doldurdu. Bir orta yaşlı axsaq yağız Özayın yanına daşın üstünə dırmaşdı. Bu yağız Limlidən qaçarkən, boyuzlar ayağını vurub qırmışdılar. Ayağının biri yox idi. Özay ona yardım etdi. Axsaq yağız bir əli ilə Özaya söykənib "Yağız dostlarım, ən böyük arzum bu qutsal savaşa qatılmaq olmuşdur." Dedi və sonra da üzünü Özaya tutub "Özay alpərən, mənə də bu savaşa qatılmam üçün izn verin!" söylədi. Axsaq yağızın bu qısa sözləri yağızları duyğulandırıb gözlərini yaşartdı. Özay da bərk duyğulanmışdı. Üzünü axsaq yağıza tutub "Savaşmaq, yalnızca qılıcla savaşmaq deyildir. Sənin ruhundakı böyük qurtuluş duyğuları bizim gələcəyə olan inancımızın qaynağıdır. Güdədərəyə gəldiyin müddətdə yağız kimliyi haqqında ən geniş bilgi birikdirənlərdən biri də sənsən. Bilgilərini sürəkli Limlidən güdədərəyə axışan yağızlarla paylaşıb onları eyitmən ən böyük savaşdır. Bizim savaşımız düşüncədə və duyğulardadır həm də. Sənin tarixi görəvin bu savaşa qatılmaqdan daha da yüksəkdir" dedi.

Daha sonra da axsaq yağızın daşın üstündən enməsinə yardımçı oldu. Axsaq yağızın bu davranışı yağızlarda savaş coşqusu yaratmışdı. Savaşçı gənclərdən bir ordu düzənləndi. Savaşa qatılacaq olanların dışında bütün yağızlar öz görəvlərinin başına döndülər. Özayın başçılığı ilə yağız ordusu Güdədərədən Limliyə doğru hərəkətə keçdi. Boyuzlar Qurbantəpəsində əllərində süngüləri ilə durmuşdular. Yağızların Limliyə doğru hərəkətini arxaya xəbər verdilər. Boyuzlar da savaşa hazır duruma gəldilər. Yağızlar "Yağızlara özgürlük" deyib saldırdılar. Qızğın savaş başladı. Yağızlar Limlinin ortasına doğru irəliləyirdilər. Özay daha öndə boyuzların səfini yarıb irəliləyirdi. Bu zaman boyuzlar geriyə çəkilib qaçmağa başladılar. Özay şaşırıb qaldı. Nədən savaşmadan qaçdıqlarını anlaya bilmədi. Ancaq saldırısından da vaz keçmədi. Limliyə doğru arxasındakı yağız ordusuyla irəliləyirdi. Qurbantəpəsindən Limliyə aşdıqdan sonra boyuzların nədən qaçdıqları bəlli oldu. Öncə qorxunc səslər duyulmağa başladı. Daha sonra torpağın altında bir şeylər tərpəndi. Birdən minlərcə əqrəb torpağın və daşın altından çıxıb yağızlara saldırdılar. Başalanın yanında əqrəblərin başçılarının dolaşma səbəbi indi bəlli olurdu. Boyuzlar əqrəblərlə anlaşmış onları yağızlara qarşı savaşa çəkmişdilər. Əqrəblər quyruqları ilə yağızları əzib yox edir, önlərinə gələni yeyirdilər. Özay tələyə düşdüklərini anlamışdı. Ancaq geriyə dönüş yolları da əqrəblər tərəfindən qapanmışdı. Tək yol var idi:

savaşmaq. İki qılıcı ilə savaşan alpərən Özay əqrəblərlə savaşa-savaşa Limlinin ortasına, Başalanın bulunduğu yuvaya doğru irəliləyirdi. Geriyə dönmək mümkün deyilsə, Başalanın yuvasına girib onu öldürməkdən başqa çarə qalmamışdı. Özay savaşa-savaşa böylə düşünürdü. Yağız ordusu zaman keçdikçə, əqrəblər tərəfindən yeyilib yox edilirdi. Ancaq yağızlar da yüzlərcə əqrəbi öldürüb yaralayaraq Limlinin ortasına doğru irəliləmələrinə davam edirdilər. Yağız ordusu bütünüylə məhv edilmişdi. Özay tək qalsa da, savaşına davam edirdi. Önünə qorxunc böyük bir əqrəb çıxdı. Əqrəb quyruğunu qaldırıb Özaya vurmaq istərkən Özayın qılıcları əqrəbin qarnını söküb dağıtdı. Əqrəb qorxunc səs çıxaraq yerə sərildi. Özay irəliləyişinə davam edirdi. Bu zaman qarşıda bir az kənarda Xamutu gördü. Xamut "Özayı diri istəyirəm, onu diri yaxalayın. Hörümçəklər gəlsin!" dedi. Yüzlərcə hörümçək bir anda Özayın çevrəsini aldılar. Hörümçəklər sürətlə Özayın çevrəsində tor hörməyə başladılar. Get-gedə hörümçək torları Özaya yaxınlaşırdı. Amac Özayın qollarını sararaq əsir yaxalamaq idi. Əqrəblər də kənara çəkilmiş hörümçəklərin tor hörməsini seyr edirdilər. Özay tam olaraq quşatılmışdı. Artıq qılıcı ilə bu qədər toru qırıb savaşına davam edə bilməzdi. Bu an Limlinin doğusunda çox uzaqlarda başı seyrək dumanla sarılmış Çərənbil dağına gözləri sataşdı. Özay, yalnız qalmışdı. Ancaq üzündəki umut şaşırtıcı idi. Əqrəblər, boyuzlar bir yerdə Özayın qollarının necə sarılacağına baxırdılar. Özay, hörümçək torlarının daha da yaxınlaşdığını görürdü. Bir az daha bu torlar yaxınlaşacaq olsaydı, qılıcını qullana bilməyəcəkdi. İki qılıcı əllərində idi. Qılıcından əqrəb qanı damırdı. Çevrəsini öncə diqqətlə seyr etdi. Daha sonra gözlərini Çərənbil dağına tikib "Öz...gür..lüüüük" deyə bağırdı. Özay alpərnin bu hayqırtısından hörümçəklər də diksinib geri çəkildi. Əqrəblər, boyuzlar və hörümçəklər şaşırıb qalmışdılar. Özay alpərən qılıclarını bütün gücü ilə öz qarnına soxmuşdu. Ölmək üzrə idi. Hörümçəklər də kənara çəkilmişdilər. Xamut qoşaraq Özayın yanına gəldi. Özayın qılıcları öz qarnına soxması Xamutun bütün xəyallarını bərbad etmişdi. Xamut Özayı diri yaxalayıb Başalandan müjdə alacağını düşünürdü. Özay son nəfəslərini çəkirdi. Xamut Özayın başının üstündə durmuşdu. Özayın gözləri sonsuz mavi göylərə zillənmişdi. "Alpərənlər təslim olmazlar!" deyib gözlərini qapadı.

***

Özayın ölümü alpərənləri çox üzmüşdü. Ən vəfalı yoldaşlarından birini itirmələrinin acılarını yaşayırdılar. Genbacada Savunal, İşıqçıxmazda

Ülgən, Qaravulda Güvənal çox üzügün durumdaydılar. Alpərənlərə sığınmış yağızlar Özay haqqında daha çox bilgilənmək istəyirdilər. Alpərənlər də çətin günlərinin yoldaşı olmuş Özayı yağızlara anladırdılar. Alpərənlərin ortaq qərarları üzərinə Güdədərədə yerləşən bütün yağızlar Qaravula daşındılar. Güvənal axsaq və yaralı yağızların Qaravula daşınması üçün gərəkən qolaylıqları sağladı. Özayla bir yerdə minlərcə yağız fəda olmuşdu. Alpərənlər özgürlüyün asanca əldə edilməyəcəyini yağızlara danışırdılar. Ancaq bütün bu çətinliklər bizi özgürlük savaşımızdan vaz keçirə bilməz düşüncəsini də vurqulayırdılar. Olayların dırmanışı və yağızların Limlidən alpərənlərə sığınmaq üçün dəstə-dəstə qaçmaları boyuzları daha da güclü önləmlər almağa zorlayırdı. Limlidə olağanüstü gözətim[125] durumu bərqərar olmuşdu. Özayın təslim olmayıb "özgürlük!" bağıraraq intihar etməsi Limlidəki yağızların duyğularını dərindən etkiləmiş, böyük oyanışa səbəb olmuşdu. Alpərənlərin hər türlü göndərgələrini yağızlar bir-birlərinə gizlincə çatdırırdılar. Yağızların oyanışı Özayın ölümündən sonra fədakarlıq düzeyinə yüksəlmişdi. Limlidə boyuzların hərəkətlərinə diqqət edən yağızlar boyuzlaşmış yağızların da davranışlarını gözdən qaçırmırdılar. Bir neçə yağız bir gün Yağılın Başalanın yanından gizlincə çıxdığını görmüşdülər. Yağıl bir neçə boyuzla birlikdə son vaxtlar yağız haqlarından gizlin-gizlin danışmağa başlamışdı. Daha sonra Yağılın bir neçə arxadaşı ilə bir yerdə Limlini tərk edib Güvənala qatıldığı xəbəri yayıldı. Yağızlıq bilincinə varmış yağızlar Yağılın bu davranışından çox əndişəli idilər. Yağılın Güvənala zərər verəcəyindən qorxurdular.

Alpərənlik qurallarına görə onlara sığınan bütün yağızlara sayqı ilə davranılmalı idi. Güvənal bir zamanlar onlarla yolun yarısına qədər yol yoldaşı olmuş, daha sonra yolun çətinliklərindən dolayı Xamutla birlikdə geri dönmüş olan Yağılı qəbul etdi. Əski günlər haqqında əsla bir söz dilə gətirmədi.

Bu arada alpərənlər Limli ilə Qaravul arasında yerləşən Çuxurdan yeralətı Limliyə doğru tunel qazmağı düşünmüşdülər. Bu tunel Limlidə əqrəblərin və hörümçəklərin toplu yaşadıqları yerə qədər davam etməli idi. Güvənalın Batıdan, Savunalın Doğudan saldıracağı gün əqrəblərlə hörümçəklərin barınaqları yerin altından uçurulacaqdı. On minlərcə yağız Çuxurdan Limliyə tərəf uzanan tuneldən dışarıya torpaq daşıyırdılar.

***

[125] Gözətim- nəzarət.

www.BayBak.com üçün PDF formasına salınmışdır

Savunal Genbacada yağız kimliyinin yüksəlişi qonusunda oxullar düzənləmişdi. Gecəsini gündüzünə qatıb yağız dili, yağız kimliyi haqqında yağızları bilgiləndirirdi. Bir yandan yağızların düşüncələri, duyğuları eyitilir, bir yandan da savaş fənləri öyrədilirdi. Genbacada gənc yağızların alpərənləşmələri yolunda Savunal bütün yaradıcı gücünü səfərbər etmişdi. Genbacada qaynaşan yağızlarda yeni bir coşqu oluşmuşdu. Sanki dünyaya yenidən gəlmişlərcəsinə, mutlu idilər. Yeni bilgilər onlara yeni kimlik qazandırırdı. Savunalın dürüstlüyü, hər bir yağıza sanki özbəöz qardaşı kimi davranması yeni kimlikləri ilə şərəflənən yağızlar üçün yaxşı örnək oluşdurmaqda idi. On minlərcə yağız yeni kimlik qazanımı yolunda çabalamaqda, Savunalı dinləməkdəydilər. Bir kərəsində Savunal "Yağızlar, əslində qazandıqlarınız yeni kimlik deyil, unutdurulmuş kimliyimizdir. Var olan kimliyimizi bilincli biçimdə alqılayışımız onu bizə yeni göstərir. Biz öz varlığımızı anlamaq və özümsəmək sürəcini yaşamaqdayıq. Yaradılış fitrəti əsasında yaşamaq bizə içgüvən verməkdədir. Biz yağız olaraq yaradılmışıq. Yağızsızlaşmaq və boyuzlaşmaq ruhumuza tərsdir. Bu üzdən də içgüvənimizi bireysəl və toplumsal sahədə itirmişdik. Öz kökümüz və dəyərlərimiz üzərində yaşamaq içimizi güvənlə və yaşamaq sevgisi ilə doldurmaqdadır. Boyuzların əsarətində olduğumuz zaman həyat bizim üçün bezdirici idi. İndi isə, yaşamaq istəyirik. Özgürlük yoxdursa, yaşayışın heç bir anlamı olmaz. Biz indi, yalnız yaşamaq deyil, həm də savaşmaq istəyirik. Limlidə özgür yaşam nemətindən yoxsun buraxılan soyumuzu qurtarmaq istəyirik. Böylə bir qutsal savaş üçün yaşayışımızı düzənləməzsək, bu kəz də özümüz özümüzü əsarətə məhkum edərik. Bir tək yağız bilə, əsarətdə qalmamalıdır. Boyuzların bu tutumunu və davranışlarını tarixə gömməliyik. Onlar özlərini üstün bilirlər. Biz isə, eşitlik yolunda savaşırıq. Çünkü sizlərə anlatmış olduğum tariximizdəki alpərənlik ilkələri bizi eşitliyə çağırmaqdadır. Biz qazanacağıq, çünkü artıq alpərənlik düşüncəsi yağızlar içində bir törəyə dönüşmüş, minlərcə yağız alpərənliyin nə olduğunu, alpərənlərin necə davranması gərəkdiyini bilməkdədir." dedi.

Qoşabaca Genbacanın arxasında yerləşirdi. Savunal yanında bir neçə yağızla birlikdə Qoşabacada çocuqlar və yeniyetmə gənclər üçün yağız dili oxullarına baş çəkib savaş fənlərini öyrətdiyi Genbacaya doğru dırmaşırdılar. Qoşabacanı genbacadan ayıran yüksək bir təpə idi. Bu təpə Doğuya doğru uzandıqca alçalıb dərələrə qovuşurdu. Dərələrdə Söyüdlüdərəsi adlanan bir dərə var idi. Bu dərədə bir çox söyüd, qələmə və çinar ağacları var idi. Ağacların başı yüksəlmiş, Qoşabaca ilə Genbacanı ayıran təpənin başından da görünürdü. Savunal çevrəsi ilə bir yerdə təpənin

başında idi. Genbacaya enmək istərkən, Limlidən yenicə Genbacaya gəlmiş bir gənc yağız "Savunal, kimliyimizin yüksəlişindən sürəkli danışırsan, bu yüksəliş necə olur?" deyə sordu. Yağızlar bu gənc yağıza dönüb baxdılar. Maraqlı soru sormuşdu yağızlara görə. Savunalın cavabı onlar üçün də önəmli idi. Gerçəkdən nə imiş bu kimlik yüksəlişinin ana ilkələri? Savunal otların arasından təpədə bir daşın üstünə çıxdı. Yanındakı yağızlarda eyni daşın üstünə dırmaşdılar. Savunal Söyüdlü dərəsindən başları görünən çinar ağacları, qələmə və söyüdləri göstərdi. Yayın yavaşça əsən küləyi Söyüdlüdərəsindəki ağacların yaşıl başlarını dalğalandırırdı. Savunal "O ağacları görürsünüzmü?" deyə sordu.

Soru soran gənc yağız: Əvət görürük.

Savunal: O ağaclar o qədər yüksəlmişlər ki, başları uzaqlardan da görünür. Ən aşırı tufanların qarşısında da belləri qırılmadan dirənərlər. Nədən bilirsinizmi?

Yağızlar bir səslə: Nədən?

Savunal: Çünkü onların kökləri çox dərinlikdədir. Kökləri dərinlikdə olmayan bir ağac yüksələ bilməz. Yüksəlmək üçün dərinləşmək gərəkir. Yüksəliş və dərinlik bir-birini tamamlayan olqulardı. Yağızların kökləri var. Bu köklərin dərinliyinə enmədən yağız yüksəlişi mümkün ola bilməz. Boyuzlar bizi öz kökümüzdən uzaqlaşdırıb boyuzlaşdırmaq istəmişlər. "Ot öz kökü üstündə bitər" demişlər dədələrimiz. Biz boyuz kökü üzərində yüksələ bilmərik. Boyuzlar o kök üzərində yüksələ bilər, biz deyil. Bizim dilimiz və kimliyimiz boyuzlardan fərqlidir. Biz yağız qarışqalarıq, onlar boyuz. Tanrı bizi ilk gündən yağız, onları da boyuz yaratmış. Bu fərqliliklərdə dərin hikmət var. Bu fərqliliklər yox edilməməlidir. Bu fərqliliklərə ehtiyac olmasaydı, doğa bizləri yağız deyil, boyuz yaradardı. **B**u fərqlilikləri ortadan qaldırmaq doğanın yaradıcılıq ilkələrinə ziddir. Yağız musiqisi, yağız dili, yağız keçmişi çox sevimlidir bizim üçün. Bizim "Yağız Oyanışı" olaraq tanımladığımız da budur. Bizim boyuzlara qarşı düşmənçilik duyğumuz yox. Alpərənlik kültüründə düşmənlik duyğusu yoxdur. Düşmən olduğumuz boyuzların varlığı deyil, onların başındakı yağızlara qarşı düşüncələridir. Bu düşüncələrindən vaz keçsələr, savaşa da ehtiyac qalmaz. Ancaq vaz keçməzlər. Alışmışlar bu düşüncəyə. Tərk edə bilməzlər. Bu üzdən biz də öz özgürlüyümüz və kimliyimiz yolunda savaşıb uğur qazanmalı və zorla da olsa, onların bu qorxunc yağız düşmənliklərini yenməliyik. Böylə savaşlar da qansız olmur nə yazıq ki. Ancaq boyuzlar qorxaqdırlar. Alpərənlikdə bildiyiniz kimi, qorxaqlıq duyğusu yoxdur. Yağızlar da qorxu duyğusunu öz içlərindən silmişlər. Qorxaq olmasaydı

boyuzlar əqrəbləri və hörümçəkləri Özayla savaşmaq üçün yardıma çağırmazdılar. Özay nə etdi? Qorxmadı. Son nəfəsinə qədər savaşdı və sonra da öz intiharı ilə Limlidəki yağızlarda özgürlük düşüncəsini və duyğularını alovlandırdı. Budur alpərənlik. Özayın savaşı və intiharı yağız azadlıq hərəkətini gücləndirdi. Bunun adı yüksəlişdir. Özay öz soyumuzun dərinliklərinə enmişdi. Yağız kimliyinin dərinlikləri əsasında yüksəlmişdi. Böylə dərinliklərə enərək, yüksəlmiş olan alpərənlər əsarəti heç bir biçimdə qəbul etməzlər.

Savunal, Özay haqqında danışarkən, özəlliklə həyəcanlanırdı. Gözlərini gizlin duyğusallıq sarırdı. Gözlərindən yaş axmasa da, gözlərini doldurmuş göz yaşları gözlərdən qaçmırdı. Təpədən Genbacaya doğru enirdilər. Savunalın yanındakı yağızlar duyğulu bilgilərlə dolub daşmışdılar. Genbacada yağızlar savaş fənni öyrənirdilər. Dəstə-dəstə savaş təlimi keçirirdilər. Savunal çoğanın[126] kölgəsində bir neçə yağızın toplaşıb dartışdıqlarını gördü. Çoğana doğru irəlilədi. Yağızların dartışmalarına qatılmaq istəyirdi. Çoğanın dibində Limlidən yeni gəlmiş bir yağız gənc atəşin sözlər və şeirlər söyləyirdi. Çevrəsindəki yağızlar da diqqətlə dinləyirdilər. “Limlidə milyonlarca yağız bizim qurtuluş savaşına başlamamızı bəkləyir arxadaşlar!” deyirdi. Savunal da başqa yağızlarla bir yerdə gənc yağızı dinləyirdi. Gənc yağıza “Sənin adın nədir?” deyə sordu.

Gənc yağız: Mənim adım Arpaydır, Arpay.

Başqa bir yağız: Qonuşmana davam et Arpay!

Ikinci yağız: Çox yaxşı danışırsan.

Üçüncü yağız: Yağız dilini bu qədər gözəl necə öyrəndin?

Arpay: Doğasında sənət ruhu daşıyan yağızlar yağız dilini çox tez öyrənə bilərlər. Yağız dili mənim eşqimdir, sevgimdir. Boyuzların anbarına arpa daşıdığım zamanlar bilə, ordan-burdan yağız dilində şeirlər tapıb əzbərləyirdim. Yaşlı yağızların bildiyi şeirləri, bayatıları dinləyib əzbərləyirdim. Sonunda boyuzlara arpa daşımaqdan vaz keçib qurtuluş savaşına qatılmağa qərar verdim. Limlidən Genbacaya qaçarkən, çox acılar çəkdim. Çoxları da deyirdi ki, getmə, yolda səni tutub öldürəcəklər.

Dördüncü yağız: Haqlısan Limlidən qaçış çox zorlanmış. Boyuzlar hər tərəfi gözətim altına almışlar. Qaçışları önləmək üçün əqrəblərlə də anlaşmışlar. Limlinin çevrəsində əqrəblər də dolaşmağa başlamış.

Arpay: Əvət, öylədir. Çox çətindir. Çoxları Limlidən qaçarkən, yolda öldürülmüş, əqrəblərə yem olmuşlar. Onları biz unutmayacağıq. Mən öz

[126] Çoğan- bitki adıdır. Əskilərdə kəndlərdə sabun olmazdı. Çoğanı suda qaynadıb qıcqırdardılar. Çoğanın qıcqırmış suyu ilə paltar yuyar, çimərdilər.

qaçış macəramı Genbacaya gəldikdən sonra bir şeirlə açıqladım. İzn versəniz bu şeirimi sizə oxumaq istərdim.

Savunal: Oxu, Arpay, oxu görək necə yazmısan?

Arpay:

"Bu yolun ən sonu çox qorxuludur "dur!" dedilər
Getmə gil, qəlbini ağlınla buluşdur dedilər
Köksümü sarmış olan gizli dilək çağlayışın
Söndürüb, başqa diləklərlə doluşdur dedilər
Mən qaranlıqlara təslim olamam bilmiş olun!
Bu qaranlıq ki, qədim bir quruluşdur dedilər
Bu qaranlıqlara qarşı çıxanın aqibəti
Təpədən dırnağa dək tam soyuluşdur dedilər
Ya, bu azadlığın eşqiylə yanan köksüm var
O da bir dadlı xəyal, uyduruluşdur dedilər
Çox uzaqlar mənə bir çağrı yapırmışcasına
Arpayın bağrı bu çağrıyla vurulmuş dedilər."

Arpayın bu şeiri yağızları coşdurmuşdu. Arpayı uzunca alqışladılar. Arpay şeirini həm də çox dərin həyəcanla oxuyurdu. Savunal dərin fikrə dalmışdı. Bu gənc yağızın şeiri Savunalı çox etkiləmişdi. Yağızların içindən biri "Arpay, Limlini geri aldığımızda bu şeirlərini orda bütün yağızlara oxuyarsan" dedi.

Arpay: Mən də o günün ümidi ilə yaşayıram.

Savunal: Çox gözl şeir yazır və gözəl də oxuyursan. Şeirin oxunuşu çox önəmlidir. Şeirin iç musiqisini kəşf edib ona görə oxumaq onun etkisini artırır. Şeirin iç musiqisi kəşf edildikdən sonra yazması da asan olur. Əski yağız şeir uzutunda bu iç musiqini kəşf etmək çox önəmli olmuş. Şeir varlığı özümsəmənin ən gözəl yöntəmidir. Şeirdə varlıq gizəmli və bütün gözəlliyi ilə yuvalanır. Varlığı içdən anımsama musiqi və şeirlə bir yerdə daha da dərindən mümkün olur. Çox maraqlıdır. Gerçəkdən şeirin iç musiqisi qədər önəmli bir şey yoxdur. Mutluluq etkənidir. Şeirin iç musiqisi həm də rəqs icad edər. Rəqs mutluluğun dışa vuruşu və paylaşılmasıdır. Şeir, musiqi və rəqs yağız törəsində ruhun aydınlatıcı etkənləridir. Üçü bir yerdə bir bütün olaraq. Yağız rəqsləri şeirin dərinliyindən yoğrulan musiqinin davranışa yansımasıdır. Şeirin iç musiqisinin kəşfidir. Şeirin iç musiqisinin kəşfi ilə yağız ruhu genişlər və aydınlanma ortamında varlıq yağız ruhuna doğru hərəkət edər. Mənim diqqətimi bu qonu hər zaman çəkmişdir. Böylə ruh halını içində barındıran yağız qorxmaz olar və özgürlük amacından vaz keçməz. O, gerçək bir savaşçıdır. Alpərənliyə doğru öz içində yolçuluğa

başlar. Özgürlük yolunda savaşmaq iç mutluluğun ürünüdür. Şeir də mutlu olmanın, mutlu etmənin bir aracıdır. Bizim qurtuluş savaşımızda şeirin üzərinə böyük sorumluluq düşməkdədir. Yağız dilində, yalnız yağız dilində şeirlər yağız oyanışını genişlədər. Yağız dilinin nə qədər sevimli dil olduğunu göstərər. Bu duyğular və düşüncələr yağız dilində sürəkli ürətilməlidir. Ruhumuzu aydınlığa qovuşduran yağız dilidir. Dilimiz şeir dilidir.

Savunalın qonuşması Arpayı çox etkiləmişdi. Arpay bir az susdu. Daha sonra Savunala "Söylədiklәriniz mənim yaradıcılıq görüşümü etkilədi. Söylədiklәriniz üzərində dərindən düşünməm gərəkir" dedi

Savunal: Sən yaxşı yazırsan Arpay. Yazmalarına davam et. Qazandığın yaradıclıq denəyimləri səni yüksəldəcək. Yağız dilinin sənin kimi yaradıcı gənclərə çox ehtiyacı var. Siz burda dartışmanıza və şeir oxumanıza davam edin mən başqa öbəklərə də baş çəkməliyəm.

Savunal çoğanın dibində dartışan yağızları tərk edib başqa savaş məşq edən yağız dəstələrinə doğru yola düşdü. Arxadan Arpayın yüksək səslə oxuduğu bir şeir eşidilirdi:

"Çox zaman başqaların yansıdacaq ay oldum
Dəniz eşqiylə coşub, daim axan çay oldum
Qeyrə bağlanmağı idrak edərək, dandı könül
Ən sonunda dönərək kəndimə Arpay oldum"

***

Qaravul və çevrəsində yağızların sürəkli artışı gözə çarpmaqda idi. Qaravulun ətəklərindən Limliyə doğru yeraltı tunelqazma işləri durmadan davam edirdi. Bu uzun tunelin Limliyə, əqrəblərin barındıqları yerin altına az qala çatdığını söyləməkdə idilər. Tunel əqrəblərin barındığı yerin altında genişləyəcəkdi. Amac, geniş saldırı zamanı əqrəblərin bulunduqları məkanı çökərtmək və onların təhlükəsini ortadan qaldırmaq idi. Tunelqazma işi bütün sürəti ilə davam edirdi. Güvənalın bu ortamda yağızlara sonsuz güvəni diqqətləri çəkməkdə idi. Güvənal, aydınlanma və yağız kimliyini onarma yolundakı çabaları heç də tunelqazmaqdan daha aşağı bir iş olaraq görmürdü. "Biz tuneli də kimliyimizin qurtuluşu yolunda qazırıq. Savaşlarımız da kimliyimiz üçündür. Kimliyimizi ayrıntıları ilə bilmək bizim aydınlanma yolundakı ana amacımızdır" deyirdi. Kimikəz güvən qonusunda Güvənala sorular sorulurdu. "Güvənilir yağız qalmışmı, ya da güvənilir yağız bulunurmu?" kimi sorular yağızların qafasında dolaşırdı. Bu sorulara Güvənal böyük bir dözüm və təmkinlə cavab verirdi:

Güvənilir yağız aramaq boşuna bir çabadır. Güvənilir yağız aramaq deyil, güvənilir yağız olmaq gərəkir. Güvən qonusu hər bir yağızın öz içindən başlamalı. Özünün güvənilirlik olanaqlarını üzə çıxarmalıdır. Güvən çox önəmli və çox dərin bir anlamdır. Güvən itirildiyində yağızlar arasındakı dayanışma dayanaqları[127] da ortadan qalxar. Alpərənlik genəldə[128] güvən üzərində qurulmuş əxlaq düzənidir. Sizlərə anlatdığım yeddi alpərənlik ilkələri, yalnız güvən ortamında yaşantıya dönüşə bilər.

Tunelin qazımı ilə ilgili sürəkli Güvənala bilgi verilirdi. Güvənal isə, bilgiləri alaraq yağız oymaqları içində dolaşıb onların sorularını yanıtlayırdı. Bir çox yağız öbəkləri Qaravulun yan-yörəsində qılıc eyitimi alırdılar. Başqa öbəklər yağız dilinin yazı qurallarını öyrənir, yağız kimliyi və tarixi haqda dartışırdılar. Bu zaman bir kaldarın[129] başına çıxmış çögürünü bağrına basıb mahnı söyləyən bir ozanın xoş səsi yağızların diqqətini çəkdi. Yağız ozan öyləsinə içdən oxuyurdu ki, gözəl səs çevrədə dəyişik işlərlə uğraşanları oraya dinləməyə çağırırdı. Yağızlar sürü-sürü ozanın oxuduğu yerə tərəf axınırdılar. Otların altından kaldarın bulunduğu yerə yağız axını başlamışdı. Ozan yağız kaldarın başında dayanmış çögürü bağrında çalıb oxuyurdu. Çox yüksəklikdə durduğundan bütün yağızlar onu rahatca görə bilirdilər. Ozan yağızın sevimli səsi çevrəyə yayılırdı:

“Bir gün gələcəyəm əlimdə günəş
Qaranlıq ruhlara nur səpəcəyəm
Sönmüş fikirlərdə yaxacam atəş
Qurtuluş şərqisi söyləyəcəyəm

*

Özgürlük şarabın doldurub cam-cam
Yorğun könüllərə deyəcəyəm: iç!
Oyan, durğunluğa ver bir sərəncam
Yürü, yurdu sarmış qaranlıqdan keç!

*

Getmə, gəl, yanımdan uzaqlaşma sən
Ozan öyüdünü həvəslə dinlə!
Mənim varlığımda danışır vətən
Sevgimlə, sözümlə və çögürümlə

*

Zaman durmaz oldu, yürüyüb getdi
Fələklər fırlandı, seyr eylədi ay

[127] Dayanaq- söykənəcək, əsas.
[128] Genəldə- ümumiyətlə.
[129] Kaldar- yüksəkliyi 1-2 metr arasında olan yastı geniş yarpaqlı bitkidir.

Qaranlıq üzündən yurdu tərk etdi
Sanma, yurddan uzaq mutludur Güntay.”

*

Yağızlar ozanın mahnılarını zövqlə dinləyirdilər. Dinləyici yağızların içini gizəmli sevgi və sayqı doldurmuşdu. Mahnı yağızların ruhlarının dərinliklərində geniş dünya kəşf edirdi sanki. Yağız mahnıları, yağızların mahnı səsi çox çəkici və sevimli görünürdü. Uzun illər boyu yasaqlanmış yağız səsinin bu qədər sevimli olacaqlarını öncədən düşünməmişdilər oraya toplanan yağızlar. Yağızların içində güvən duyğusunu oluşdururdu sevimli yağız mahnıları, yağız ozan səsi. Yağızlar özlərinə dalğınca içdən-içə bu savaşa qatılmalarında nə qədər yaxşı iş gördüklərini düşünürdülər. Onların üzündəki umut və açıqca sezilən güvən bunun göstərgəsi idi. Bu arada yalnız Yağıl bir neçə arxadaşı ilə gərgin görünürdürlər, mutlu görünmürdülər. Güvənal da yağız qalabalığı ilə bir yerdə ozanı dinləyirdi. Ozanın mahnısı bitmişdi. Ancaq yağızlar dağılmaq istəmirdilər. Yenə də mahnı dinləmək istəyi keçirdi içlərindən. Güvənal kaldarın başına dırmaşdı. Əlində çögür tutmuş ozan yağızı alqışladı. Çevrəyə baxdı. Saysız yağız dəstələri çevrəni doldurmuşdu. Üzlərindən də sevinc və mutluluq yağırdı yağızların. Güvənal da çox mutlu idi. Bir şeylər danışmaq istəyirdi Güvənal. Ancaq o qədər duyğulanmışdı ki, hardan başlayacağını bilmirdi. Sonunda gülümsəyib və “Yağız dostlarım, mən də o qədər mutluyam ki, nə söyləyəcəyimi bilmirəm. Görürsünüz nə gözəl mahnılarımız var. Yasaq edilmiş mahnılarımız. Sağ olsun ozan dostumuz. Bizi yağız kimliyinin gözəllikləri ilə tanış etdi. Bu an hər tək-təkimizin ruhumuzda aydınlıq və sevgi dalğalanmaqdadır. Çünkü bu səs həm içimizdən gəlir, həm də dışımızdan. Çox dərinliklərdən gəlir” dedi.

Aşağıda bir qazayağının[130] üstündə əlində qılıcı oturmuş gənc bir yağız üzünü Güvənala tutub “Bir az bu yağız mahnı uzutu,[131] yağız səs uzutu haqda bilgi verə bilərsinizmi?” deyə sordu.

Güvənal “Səs sənətini özümsəmənin ən doğru yolu daha çox dinləməkdir məncə” dedi.

Bir başqa yağız: Səs uzutu ilə yağız tarixinin ilişkiləri qonusunda bir şeylər anlada bilərsinizmi?

Güvənal: Yağız kimliyi yağızların uzun tarixi sürəc içində oluşdurduqları olqular bütünüdür. Bu bütünlük içərisində səs çox önəmli bir yerə sahibdir. Mahnılarımızda yağız kimliyinin gizlin qatları saxlıdır. Tariximizi uzut ölçüləri ilə anlamanın yollarından biri də səsimizdir. Gözəl

[130] Qazayağı- bitki adıdır. Qazayağından yaxşı yeməklər də düzəlir. Qaynadıb kətə düzəldərdilər.
[131] Uzut- sənət.

səs. Olquların uzut ölçüləri ilə görülüb duyulması səsdə daha olanaqlıdır. Bu açıdan bir çox unutdurulmuş yağız kimliyinin önəmli sirləri səsimizdə qorunmaqdadır. Alpərənliyin gizəmli törələri də səsimizdə saxlanmaqdadır, yağız boğazında. Yağız boğazından çıxan gözəl səsdə. Mahnılarımızdan dərin zövq alışımızın nədəni də bu olsa gərək. Çünkü bu zövq dolayısıyla biz günümüzün darısqallığından qurtulub keçmişə uzanır və gələcəyə boylana bilirik. Mahnı uzutunda yağız ruhu və kimliyi özünü seyrə dala bilir. Varlığı səslə özümsəmə olaraq alqılayalım bunu. Mahnıda səsin özünü anlamlaşdırma denəyimi çox əskilərə uzanmaqdadır. Səsin duyğu və düşüncədə özləmli[132] sevincli zövqə və anlayışa dönüşməsi minillərə dayanmaqdadır. Bizim səsə bu qədər içdən bağlı olmağımızın da nədəni burda saxlı olmalı. Biz səsə əyilimliyik. Çünkü səsdə əski nəfəslərin yaşamlarından gizəmli anlam və məna qalıtımı[*] saxlanmışdır. Bəlkə də sonsuz varlığın bir yerində səs sonrasızlığa[133] qədər barınıb qalır. Səsi ahəngə, hörütə, təsvirə, duyğuya və düşüncəyə dönüşdürmə çabaları yağızların ən əski uyqar[134] çabalarından biri və ən önəmlisidir. Səs də bu dönüşüm sürəcində öz gəlişim evrələrini yaşamışdır. Bir çox dönəmlərdə səsimiz yabancı inancların gözətimində olmuşdur. Bu gün yağız mahnıları özgürlük savaşımızın bayraqdarıdır. Boyuzların gözətimlərinə qarşın,[135] səsimiz sürəkli qurtuluşu çağrışdırmışdır.

Güvənalın bu qonuşması çox dərin olduğu üçün bir çox yağız bir şeylər anlaya bilmədi. Anlaya bilməsələr də Güvənalın yağız kimliyi və yağız mahnıları ilə ilgili önəmli şeylər söylədiyinə inanırdılar.

Günəş Qaravulun arxasında süzülüb qızılı buludların içində ərimək üzrə idi. Ozanın səsindən, Güvənalın sözlərindən ruhları dolmuş olan yağızlar yuvalarına çəkilirdilər.

***

Limlidə yurd dışına qaça bilməyən yağızlar da bir neçə kərə savaş girişimində bulunmuşdular. Bir dəstə yağız bir gün Başalanı öldürmək istəmişdilər. Başalanın bulunduğu yuvaya saldırı düzənlədilər. Bir neçə yağız ölsə də, Başalanın yuvasına girməyi başarmışdılar. Bu sırada Başalanı qaçırıb yuvanı uçurdular. Saldırı düzənləyən bütün yağızlar torpağın altında

[132] Özləm- kədər.
[*] Qalıtım- miras.
[133] Sonrasızlıq-əbədiyət.
[134] Uyqar- mədəni.
[135] Qarşın, rəğmən, baxmayaraq.

qalıb öldülər. Boyuz üst düzey yetkililəri özəl qorunma üsulları gəlişdirmişdilər. Özəlliklə də Başalanın güvənliyini qorumaq üçün özəl önləmlər alınmışdı. Başalanın bulunduğu bütün yuvaları uçurulur duruma gətirmişdilər. Yağızların yuvaya saldırdığı durumlarda Başalanı qaçırıb yuvanı uçurma yöntəmi gəlişdirmişdilər. Başalanın bulunduğu yuvalara qarğıdan və qamışdan dirək taxmış, üstünü turpək,[136] biyan[137] və başqa otlarla örtüb sonra da incə torpaqla yuvanı basdırmışdılar. Yuvaya saldırı zamanı bu dirəkləri söküb yuvanı çökərdirdilər. Limlidən dışarıya qaça bilməyən yağızların saldırısı bir kərə bu biçim önlənmiş, saldıran yağızlar öldürülmüşdü. Ancaq gün keçdikcə boyuzların əqrəb və hörümçəklərlə birləşərək yağızlara qarşı tutumları dözülməz olmaqda idi. Bir çox yağızın bu basqılar qarşısında intihar etdiyi xəbəri dolaşmaqda idi. İntihar xəbərləri alpərənlərə çatdığında savaş hazırlıqlarını daha da gücləndirirdilər. Yağızlar artıq boyuzlar üçün taxıl daşımaq istəmirdilər. Daşıdıqları taxıldan yararlanma haqqına sahib deyildilər. Limlidə acından ölən yağızların da xəbəri dolaşmaqda idi. Yaşlanmış və heç bir güvəncəsi olmayan yağızlar məsxərə edilirdilər. Bütün bu bilgilər alpərənlərə ulaşmaqda idi. Alpərənlər böyük dözümlə qurtuluş savaşını düşünürdülər. Limlinin çevrəsi savaşçı boyuzlarla və qurumacı əqrəb və hörümçəklərlə donatılmışdı. Alpərənlərin saldırma olasılığı boyuzlar tərəfindən düşünüldükçə, Limlini qoruma önləmləri də ona görə artmaqda idi.

***

Çuxurdan Limliyə doğru qazılan tunel bitmişdi. Əqrəblərin barındıqları yerlərin altı qazılmışdı. Yağızlar əqrəblərin barındıqları yeri daha dərin və geniş qazmış, dirəklər taxmışdılar. Tikanlara, daşlara ilişmiş keçilərin qəzilini, qoyunların yununu əyirib uzun ipliyə dönüşdürmüşdülər. İplikləri əqrəblərin bulunduğu yerin altında yerə sapladıqları dirəklərə bağlamışdılar. Saldırı günün bəlli zamanda ipliyi çəkib əqrəblərin barınaqlarını batıracaqdılar. Tuneldə hər şey hazırdı. Güvənal tunel işinin bitimini Ülgənə və Savunala çatdırdı. Yayın son ayının orta günü Limliyə saldırı düzənləmə qonusunda anlaşdılar. Savunal Doğudan, Güvənal Batıdan saldıracaqdı. Saldırıdan bir sürə sonra Ülgənə xəbər veriləcək, o da öz savaşçı yağız ordusuyla son zərbəni vurmaq üçün saldırya keçəcəkdi. Tunelin ağzındakı yağız bəkçilər ipliyi çəkib, əqrəblərin barınaqlarını

[136] Turpək- bitki adı.
[137] Biyan- bitki adı.

çökərtdikdən sonra Ülgənə qoşub xəbər verəcəkdilər. Bu xəbərdən sonra Ülgən saldırıya keçəcəkdi. Anlaşma bu şəkildə idi.

Yayın son ayının orta günü idi. Günəş doğmadan öncə Savunal və Güvənal ordu birimləri ilə Limlinin qovşaq sınırlarına çatmışdılar. Boyuzlar yağızların Limliyə doğru dırmaşdıqlarını mərkəzə xəbər verdilər. Tam bu an Qurbantəpəsində və başqa yerlərdə əqrəblərin barınaqları batırılmalı idi. Savunal və Güvənal təşvişlə Qurbantəpəsinə baxdılar. Heç bir batırılma partlaması yox idi. Əqrəblər Qurbantəpəsindən dəstə-dəstə yağız ordularına tərəf aşa-aşa yürüməyə başlamışdılar. Özəlliklə Güvənal Qurbantəpəsinin batırılmamasından dolayı çox əndişəli idi.

Savunalın və Güvənalın Qurbantəpəsinin batırılmasını bəklədikləri an tuneldə nələr olurdu? Güvənal kiçik bir dəstəni bəlli edilmiş zamanda dirəklərin iplərini çəkib Qurbantəpəsini batırmaqla görəvləndirmişdi. İplərin çəkilməsinə dəqiqələr qalmışdı. Tam bu an silahlı bir dəstə saldırıya keçib orada bulunan bütün yağızları qılıcdan keçirdilər. Artıq nə əqrəblərin barınaqları batırılacaqdı, nə də Ülgənə xəbər çatdırılacaqdı.

Savunal və Güvənal olumsuz gəlişmələrə qarşın, irəliləməkdəydilər. Güvənal bir uğursuzluğun olduğunu kəsinləşdirmişdi. Ama nə olduğunu təxmin edə bilmirdi. Yağızlar durmadan Limliyə doğru irəliləyirdilər. Süngülü boyuzlar Güvənalın və Savunalın orduları önündə Limliyə bitişik sınırlarda səf çəkmişdirlər. Bir tərəfdə qorxu duyğusunu içindən silmiş yağızlar, qarşı tərəfdə içləri qorxu ilə dolu olan boyuzlar. Yağızların irəliyə doğru qorxmadan yürüşü sürməkdəydi. Tam qarşı-qarşıya durmuşdular. Yağızların duruşundakı özgüvən və qorxmazlıq boyuzları qorxutmaqda idi. Yağızlar öz qurtuluşlarına inanır, boyuzlar öz üstünlüklərinə. İki fərqli içərikli inanc. Biri özgürlük savaşçısı, başqası özgürlükləri boğan. Yağızların inancı doğurqan, boyuzların inancı durağan. Yağızların inancı özgürlük, boyuzların inancı əsarət və üstünlük. Yağız və boyuz qarşıdurması, iki inancın qarşıdurması idi. Doğru ilə yalanın. Özgürlüklə əsarətin. Eşitliklə zülmün.

Savunal Doğudan, Güvənal batıdan saldırı buyuruğu verdi. Qurbantəpəsini batıra bilməsələr də, artıq bu qədər hazırlıqdan sonra geri dönməməkdə qərarlıydılar. Boyuzlara iki cəbhədən saldırı başladı. Yağız orduları Limlinin ortasına doğru irəliləməkdə idilər. Savunal və Güvənal alpərənlik əxlaqı doğrultusunda boyuz qarışqaları öldürmür, yalnız onların silahlarını vurub salıb yaralayırdılar. Ancaq yağız ordusu boyuzları öldürürdülər. İki alprən ordusu Doğudan və Batıdan Limlinin ortasına doğru uğurla irəliləyirdilər. Boyuzlar yağızların böylə qorxusuz savaşları

qarşısında şaşırıb qalmışdılar. Ordular iç-içə girmiş savaş davam edirdi. Savaş davam etdikçə, öldürmə duyğusu da şiddətlənirdi. Ölən yağızların və boyuzların fəryadları çevrəni sarmışdı. Limlinin ortasına az qala çatmaq üzrə ikən, boyuzlar kənara çəkildilər. Boyuzların arxasından qorxunc görünümləri ilə əqrəblər göründülər. Əqrəblər Güvənalın və Savunalın ordularının önünə çıxdılar. Minlərcə əqrəb yağızlara saldırmağa başladı. Savunalın hayqırtıları* eşidilirdi. Savunal öylə yüksəkdən bağırıb danışırdı ki, söylədikləri Güvənalın da ordusunda eşidilirdi. Savunalın "Yağızlar özgürlüyümüz yolunda qarşımıza çıxan bütün əngəllərlə savaşacağıq. Yılmadan savaşacağıq. Yaşasın yağızların özgürlüyü" hayqırtıları yağızlara can verdi. Ancaq eşit olmayan güclər bir-biri ilə savaşırdı. Əqrəblər yağızları param-parça edir, vurub öldürürdülər. Yaralanmış yağızları boyuzlar əsir olaraq yaxalayırdı. Güvənalın və Savunalın gözləri önündə yağızlar dəstə-dəstə öldürülürdülər. Ancaq heç bir yağız təslim olma davranışı göstərmirdi. Savaşaraq ölümü seçmişdilər yağızlar. Bir neçə əqrəbin qarnını söküb dağıtdılar. Əqrəblərin bağırtılarını eşidən Asar və Başalan hörümçəkləri devrəyə soxdular. Minlərcə hörümçək yağızların çevrəsini hörüb əsir olaraq yaxalayıb boyuzlara buraxırdılar. Limlinin tam ortasında, suquyusunun yanında Güvənalın arxası bir yağıza toxundu. Dönüb baxdığında arxasında Savunalı gördü. Arxa-arxaya savaşırdılar. İki alpərən yağız. İki dost. İki çətin gün yoldaşı. Hər ikisi də alpərənlərə özgü biçimdə iki qılıcları ilə savaşırdılar. Saldırı gücləndikçə, alpərənlər artıq silahsızlandırmanın yerinə öldürməyə keçmişdilər. Boyuzları və əqrəbləri qılıcdan keçirirdilər. Savaşın qışqırtıları sürməkdə idi. Savunal "Güvənal, yaxşısanmı?" deyə bağırdı. Güvənal ona saldıran iki əqrəbin qarnını söküb bağraraq "Yaxşıyam Savunal. Savaşdıqca yağız özgürlüyünün yaxınlaşdığını düşünürəm" dedi.

Savunal: Güvənal, qurtuluşumuz yaxınlaşır.

Güvənal: Əvət, özgürlüyümüz, qurtuluşumuz yaxındır. Bəlkə yarından da yaxın...

Savunal və Güvənal böyləsinə bir-biri ilə dialoq edərək savaşırdılar. Yağız ordularının düzəni dağılmışdı. Böyük bir qismini geri püskürtmüşdülər. Böyük bir qismini öldürüb yaralamışdılar. Əqrəblər və boyuzlar iki alpərəni quşatmışdılar. Alpərənlər bir yerdə onlara qarşı saldırıb önlərinə çıxanları yox edirdilər. Yandan ağzını açıb Savunalı gəmirmək istəyən bir əqrəbin qarnını Güvənal sökdü. Əqrəbin bağırtısı yüksəldi, çabalayıb torpağa uzandı. Alpərənlər bir-birindən ayrılmadan, bir yerdə bir-birlərini qollayaraq əqrəblərə qarşı savaşırdılar. Yüzlərcə əqrəbi qanlarına

* Hayqırtı- fəryad.

buladılar. Bu zaman hörümçəklərin onlara qarşı hücumu başladı. Bir neçə hörümçək Güvənalın ətrafına tur hörüdü. Bu zaman Savunal bir atılışla Güvənalın yanına düşüb hörülmüş torları qılıcları ilə qırdı. Hörümçəklərin qarnını sökdü. Güvənal da bu şəkildə bir neçə kərə Savunalın çevrəsinə hörülmüş torları qılıcları ilə kəsərək hörümçəklərin qarınlarını dəlik-deşik etdi. Güvənal "Savunal, Başalanın yuvasına saldıralım. Onu yuvasında yaxalayıb öldürə bilsək, bu gün uğur bizim olacaq" dedi. Savunal hücuma keçən bir hörümçəyin başını bədənindən ayıraraq "Haqlısan Güvənal. Başalanın yuvasına saldıralım" deyə cavab verdi. Alpərənlər Başalanın yuvasına tərəf saldırıya keçdilər. Savaşı seyr edən Başalan Alpərənlərin ona doğru əqrəb və hörümçək ordularını yararaq yürüdüklərini gördüyündə yuvasına çəkildi. Alpərənlər əqrəblərin qarnını sökə-sökə irəliləyirdilər. Başalanın yuvasının önünə tam olaraq çatmaq üzrə idilər. Bu zaman ehtiyatda olan boyuz orduları da Asarın komutanlığında alpərənlərin önünü kəsdi. Alpərənlərin əqrəblərlə və boyuzlarla savaşlarının daha sərt evrəsi başlamışdı. Yuvanın ağzında qanlı savaş gedirdi. Asarla Savunal qarşı-qarşıya gəldi. Asar "Təslim olun, quşatılmışsınız. Qurtuluşunuz yoxdur" deyə bağırdı. İki alpərən bir-birinə baxıb gülümsədi. Güvənal "Asar, sən alpərənliyin nə olduğunu anlamazsan. Alpərənlər təslim olmazlar" dedi. Savunal "Asar, alpərənliyi tarixdən silə bilmədiniz. Alpərənlik artıq yağızların yaşam biçiminə dönüşmüş, səltənətiniz çökmək üzrədir" söylədi.

Asar əmrində olan boyuzlara "Yaxalayın!" deyə bağırdı. Yuvanın ağzına yaxınlaşdıqca savaş boyuzlar və alpərənlər arasında gedirdi yalnız. İri əqrəblər kiçik dar ortama sığmırdılar. Bu üzdən də hörümçəklər və əqrəblər alpərənlərlə boyuzların savaşına seyirci olaraq kənardan baxırdılar. Alpərənlər irəliləməkdəydilər. Yuvanın tam ağzında qanlı savaş gedirdi. Yüzlərcə boyuzu alpərənlər öldürdü. Asar Güvənalla qarşı-qarşıya gəldi. Asar süngüsünü Güvənalın qabırğasına soxmaq istərkən, arxadan belinin ortasına sancılan Savunalın qılıcı ilə yerində donub qalaraq bağırmağa başladı. Asar süngüsünü buraxıb torpağa düşdü. Asar qanına bələşmiş can verirdi. Belinin ortasından fışqıran qan bir neçə boyuzun gözlərinə sıçradı. Artıq qarşıda önəmli əngəl qalmamışdı. İki alpərən boyuzların başçısı Başalanın yuvasına təpildilər. Qaranlıq yuvada irəlilədilər. Kimsə yox idi. Daha da irəlilədilər. Yuva bom-boş idi. Savunal "Başalan burda deyil" dedi. Güvənal "Əvət, haqlısan, qaçırmışlar. Bu bir tuzaqdır. Sanıram yuvanı uçuracaqlar" dedi. İki alpərən ölümlə qarşı-qarşıya olduqlarını hiss etdilər. Güvənal Savunala baxdı. İkisi də bir-birinə baxıb nə qədər güclü olduqlarını gördülər. Ölüm qorxusu sifətlərində görünmürdü. Ancaq yenə də qurtulmaq

və savaşmaq lazım idi. Geri dönmək istədilər. Yuvanın ağzı qapanmışdı. Dışarıda yağızların dağınıq savaşları böyük inanc gücü ilə davam edirdi. Yağızlar təslim olmur, təslim zamanı intihar edirdilər. Bu zaman suquyusunun yuxarısında yerləşən Başalanın yuvası çökməyə başladı. Yuva tam olaraq yerin dibinə batıb getdi. Qorxunc toz çevrəni bürüdü. Alpərənlərdən xəbər çıxmadı. Yuvanın sağ tərəfində bir neçə əqrəbin əhatəsində durmuş Başalanın qəhqəhələri yüksəlirdi. Yağızlar əqrəblər tərəfindən vəhşicə saldırya uğrayıb məhv edildilər.

***

Ülgən saldırıya keçmək üçün xəbər bəklərkən, Savunalla Güvənalın yenilgi xəbərini duydu. Heç bir şey söyləyəmədən donuxub qaldı. İşıqçıxmazda yağızlar dərin bir kədərə batmışdılar. Kimsə başqası ilə qonuşacaq halda deyildi. Alpərənlərin ordularıyla bir yerdə öldürülmələri hər yağızı dərin üzüntüyə daldırmışdı. Yaşlı yağızların gözyaşı axırdı. Qadın yağızlar hönkürtü ilə ağlayırdılar. Ülgən də göz yaşlarını zorla tutmuşdu. Ən güvənilir dostlarını itirmənin acısı içini yandırıb-yaxmaqda idi. Bu zaman bir neçə yağız Ülgənə yaxınlaşıb "Tuneldə baltalama olayını gerçəkləşdirənləri yaxalamışıq" dedilər. Yaxalanları gətirdilər. Öndə Yağıl idi. Ülgən Yağılı gördüyündə nə edəcəyini unutdu sanki. Söyləməyə söz tapa bilmirdi. Üzüntü içində boğulmuş yağızlar "Satqınlar, alçaqlar" deyə göz yaşlarını silərək sözlər söyləyirdilər. Yağızlar Ülgənə "Bunları öldürəlimmi?" deyə sordular. Ülgən heç bir şey söyləmədi. Susqunca durmuşdu. İçindəki üzüntü bütün vücudunu və ruhunu sarmışdı. Çərənbil dağında Güvənal və Savunalla qılıc eytimi günləri gəlirdi gözləri önünə. Çətin yolların yol yoldaşları. Bir sürə susqunluqdan sonra Yağıla "Səni öldürməyəcəm, ölümə layiq deyilsən. Ancaq sənin Limliyə dönüşünə də izn verməyəcəm" dedi və əli ilə İşıqçıxmazdan görünən Tomar ölkəsini göstərib davam etdi "Tomardan o tərəfə susuz çöllükdür. O böyük ovalığın sonunda Qotursuyu adında acı suyu olan bulaq var. Gedib o acı sulu bulağa çatsan orda təkbaşına yaşarsan, çata bilməsən də susuz çöllükdə ölərsən" söylədi.

Yağıl heç bir şey söyləmədi. Ülgənin buyuruğu üzərinə Yağılı İşıqçıxmazdan çox uzaqlarda görünən Qotursuyuna tərəf apardılar. Bir neçə yağız Yağılı və onunla bir yerdə yaxalanan yağızları susuz ovalıqda buraxıb geri döndülər.

Gün batmaq üzrə idi. Göyün diblərində uzaq dağların arxasında süzülüb yox olan günəş də, sanki üzüntülü görünürdü. Taxıl daşıyan işçi

yağızlarda yorğunluqla üzüntü bir-birinə qarışmışdı. Yağızlar gün batdıqdan sonra yerin altına yuvalarına çəkilirdi. Yağızlar yuvalarına çəkildikdən sonra Ülgən İşıqçıxmazın yastı təpəsinə doğru dırmaşmağa başladı. Burda tam olaraq yalnız idi. Artıq burda hönkürtü ilə ağlaya bilərdi. Alpərənlər yalnızlıqda ağlamalı idilər. Ülgən bir əvəliyin üstünə çıxıb hönkür-hönkür ağlamağa başladı. Yanından keçən böcəklər Ülgənin ağlamasına şaşırırdılar. Gün tam olaraq batmış, ay doğmuşdu. Ulduzlar da göylərdə parıldaşırdılar. Çevrədə cırcıralar toplu şəkildə mahnı söyləməkdəydilər. Ülgənin hönkürtü ilə ağlaması onların bir qismini susdurmuşdu. Bir bölümü də söylədikləri mahnıların səsindən dolayı Ülgənin ağlamasını duymadıqlarından mahnılarına davam edirdilər. Ülgən ağlayırdı. Daha sonra bu ağlama yavaş-yavaş yerini sözlərə buraxdı. Ülgən göz yaşları içində "Bayatı-Türk" muğamında bu qəzəli oxurudu:

"Həsrətindən ürəyim, durmadan ağlar bu gecə
Gözlərimdən sel olub axdı bulaqlar bu gecə
Yoxluğun çox ağır imiş, bunu mən bilməz idim
Sanki yüklənmədədi köksümə dağlar bu gecə
Ağrılardan ürəyim dərd içində çırpınaraq
Bu acı, ömrümü hər ləhzə oraqlar bu gecə
Mən dedim bəlkə yaxınlar mənə dar gəlmədədir
Yox, itirmiş dəyərin həm də uzaqlar bu gecə
İndi yaz fəslidi, hər yerdə yaşıllıq görünür
Nə edim, əsmədə köksümdə sazaqlar bu gecə
Həsrətin mənliyimi sarsıdaraq əldən alıb
Qap-qaranlıq görünür Güntaya ağlar bu gecə"

Ülgənin zil Bayatı-türkdə oxuduğu bu qəzəli bütün varlıq dinləyirdi. Bir sürü yağız yuvalarından çıxmış təpənin ətəyində Ülgənin Bayatı-türkə yüklənmiş ağrılarını, acılarını və içini yaxan üzüntüsünü dinləyirdi. Çevrədəki bütün cırcıralar susmuş, Ülgəni dinləyirdilər. İşıqçıxmazdan yayın son ayında uzaylara Ülgənin iniltiləri yüksəlirdi. Təpənin ətəyində yağızlar Ülgənin yalnızlığına əngəl olmamaları üçün Ülgəni dinləyib səssizcə için-için ağlayırdılar. Yağız kütləsində üzüntü ilə umutsuzluq bir-birinə qarışmışdı. İki alpərənin ölümü bir çox yağızda uğur ümidini söndürmüşdü. Göylərin sonsuzluğundan bir neçə ulduz ard-arda süzülüb yox olurdular. Ülgənin iniltiləri davam edirdi.

***

www.BayBak.com üçün PDF formasına salınmışdır

Yay bitmiş, payız girmişdi. Qarşıdan gələn qış üçün yağızlar özəl hazırlıq görür, İşıqçıxmazda dəyişik yerlərdə yuva qurmuşdular. Yazda və yayda daşıdıqları taxılları yerin altında düzənli anbarlama işi ilə uğraşmaqda idilar. Qaravulda və Genbacadaki yağızlar da İşıqçıxmaza daşınmışdılar. Güvənalla Savunalın ölümlərinin acıları yavaş-yavaş unudulur, yerini başqa şeylərə buraxırdı. Ağrıları, acıları unutmaq da doğanın bir yasası. Yoxsa uzun sürəli ağrılar yaşamı öz axarından çıxara bilər. Yaşam hər zaman özünü öz içindən yenilər, yeni mutluluqlar, sevinclər və kədərlər gətirər. İşıqçıxmazda da yağızların həyatı bu biçim davam etməkdə idi. Ülgən yağızların öndə gələn denəyimliləri ilə savaş qonusunu ələ almış və son qurtuluş savaşını yazın orta ayında başlatmağı qərarlaşdırmışdılar. Bu üzdən də səkkiz ay İşıqçıxmazda yaşamalı, oranı keçici olaraq özlərinə yurd etməliydilər. İşıqçıxmazdakı hazırlıqlar buna görə edilməkdə idi.

Bir gün Ülgən İşıqçıxmazın təpələrinin birindən üzərinə bir arpa almış yuvaya daşımaqda idi. Yanında bir neçə yağız da var idi. Üç balarısı Ülgənin önündə durub onunla qonuşmaq istədilər. Ülgən və yanındakılar çiyinlərindəki yüklərini yerə buraxıb balarılarını dinləməyə hazırlandılar. Balarılarının söhbəti bir az vızıltılı olduğu üçün çətin anlaşılırdı. Ancaq yavaş-yavaş nə demək istədikləri aydın olurdu.

Balarıları: Əsənliklər yağız qarışqalar!

Yağızlar: Əsənliklər arılar!

Birinci balarısı: Bağışlayın, sizi yolunuzdan qoyuruq, ancaq izn versəniz sizinlə önəmli bir qonunu qonuşmaq istərdik.

Ülgən: Buyurun qonuşun, nə imiş bu önəmli qonu?

İkinci balarısı: Biz bilirik ki, yağızlar boyuzlarla savaş durumundalar.

Ülgən: Sanıram yanlış bilmişsinizdir. Biz boyuzlarla savaş durumunda deyilik. Boyuzlar bizimlə savaş durumundalar.

Üçüncü balarısı: Yəni aranızda anlaşmazlıq var və sizin dəyərli dostlarınız bu yolda canlarını fəda etmişlər. Yağızların özgürlük savaşı verdiklərinin bilincindəyik.

Birinci balarısı: Əslində sizin savaşlarınız bizi ilgiləndirməz. Bizlər başqa tür yaratığıq. Ancaq bizim düşmənlərimiz əqrəblərdir.

İkinci balarısı: Əvət, əqrəblər bizim yavlağımız.[*] Güllərin üstünə qonub dadlı-dadlı çiçəklərin şirəsini əmdiyimiz yerdə arıları ovlayırlar.

[*] Yavlaq- düşmən (Altun Yaruq sözlüyü).

Üçüncü balarısı: Bilirik ki, boyuzlar əqrəblərlə yağızlara qarşı birləşmişlər. Hörümçəklərin də boyuzlarla birləşdiklərini bilirik. Ancaq bizim düşmənimiz əqrəblərdir.

Birinci balarısı: Sizin boyuzlara qarşı savaşınız davam edərsə, biz də sizinlə birləşib başqa bir cəbhədən əqrəblərə saldıra bilərik. Sizə gərəkən bilgiləri gətirə bilərik.

İkinci balarısı: Biz uça bildiyimizdən onların bütün hərəkətlərini gözətib sizlərə gərəkən bilgiləri gətirə bilərik.

Üçüncü balarısı: Bizim nə demək istədiyimizi anladığınızı sanırıq. Gəlin biz də onların üçlü birləşməsinə qarşı ikili birlik cəbhəsi quralım. Yağız-arı cəbhəsi. Bundan həm siz yararlı çıxarsınız, həm də biz. Biz əqrəbləri yenərik, siz də boyuz və hörümçəkləri. Hörümçəklər çox da savaşçı deyillər. Boyuzların rüşvətləri qarşısında onlar yağızlara qarşı savaş açmışlar. Ancaq yağızların tək başlarına əqrəblərlə savaşacaqlarına inanmaq zordur. Gəlin birləşəlim.

Ülgən və yanındakılar balarılarını diqqətlə dinlədilər. Ülgənin yanındakı yağızların üzünə sevinc qonmuşdu. Düşünürdülər ki, bu fürsəti qaçırmamaq gərəkir. Arılar uça bildiklərindən onlara hər türlü xəbərlər gətirə biləcəklər. Arılar onların uğur qazanmasını kəsinləşdirə bilərlər. Bu düşüncələr Ülgənin yanındakı yağızların ağlından keçdiyi üçün sevincli görünürdülər. Arılar yağızlardan cavab bəkləyirdilər. Ülgən düşüncəli görünürdü. Çevrəsindəki arxadaşlarının üzünə baxıb düşünürdü. Üzünü cavab bəkləyən arılara qarşı tutub "Arı dostlarım, mən sizlərin dərdini yaxşı anlayıram. Dərdiniz bizimkinə bənzərdir. Sizin əqrəblərə qarşı duruşunuzu da alqışlayırıq. Haqqınız yolunda savaşmalısınız. Ancaq biz yabancı güclərin yardımı ilə uğur qazanmaq istəmirik. Bu bizim bağımsızlıq və qurtuluş savaşımızdır. Ya bu yolda yağızlar olaraq öləcəyik, ya da özgürlüyümüzü özümüz qazanacağıq. Bizim özgürlük savaşımız tarixdə qalıb-qalmayacağımız sorunudur. Öz istəncimizlə bu savaşı qazanmazsaq, yenə də bəlli tarixi dönəmdə əsir ola bilərik. Bəlkə bu dəfə boyuz əsarəti olmaz, bir başqası ola bilər. Yağızlar bütün özveriləri ilə qurtuluş savaşına başlamışlar. Sizlərin yardımı bizim özgürlük qazanımımızı qolaylaşdıra bilər. Ancaq biz özgürlüyə ulaşmanın çətin yollarından keçməzsək, qazandığımız özgürlüyün arxasında yağız birliyinin istənci durmaz. Bu savaş hər bir yağızı bireyləşdirməkdə, həm də yağız amacları ilə özdeşləşdirməkdədir. Ən dəyərli yağızların bu yolda ölmələrinə baxmayaraq, bu savaş bizim üçün, bizim tariximiz və yağız kimliyimiz üçün

bir fürsətdir. Bu savaş sürəsincə biz yağızlaşacağıq. Yağızlaşmadan uğur qazansaq, qazanılacaq olan uğurun anlamı və dəyəri olmaz" dedi.

Birinci arı: Söylədikləriniz doğru, ancaq hər bir savaşın bir sonucu olmalıdır. Sonucunu öncədən təxmin etmədən bir savaşa girmək nə qədər doğru ola bilər? Gerçəkdən də siz əqrəblər üzərinə uğur qazanacağınızımı düşünürsünüz?

Ülgən: Biz bu qonuda ağlımızla deyil, qəlbimizlə düşünürük. Bəzi qonular var ki, orada ağılla deyil, ürəklə düşünmək lazım. Çünkü biz uğur qazanacağımıza inanırıq. Bizim inancımıza dönüşmüş bu savaşın sonucu. İnanc bilgiləri də beyin işi deyil, ürək işidir. Bu üzdən də sizlər üçün bizim əqrəbləri yenəcəyimiz çətin, ya da mümkünsüz görünə bilər. Ancaq biz buna tam olaraq inanmaqdayıq. Bizim savaşımızın bir yönü boyuzların əsarətindən qurtulmaq, bir başqa yönü də bu savaş sürəsincə içimizi sarmış olan öz aymazlıqlarımızdan[138] arınmaqdır. Zaman axışı bu sorunları yağızlar üçün çözəcək. Yağız qurtuluş hərəkəti başladığı gündən dilimiz, kimliyimiz bilinməyə, gəlişməyə başlamış. Yağızlarda yağız dilinə və kimliyinə içdən sarılma zərurəti ortaya çıxmış. Bu istək bizim üçün çox önəmlidir. Biz yağız kimliyi və yağız istəkləri yolunda savaşırıq. Bunu başqalarının yardımı ilə çözərsək, bu zərurət yağızlarda tarixi bilinc durumuna gəlməz. Bilinclə özdeşləşməzsə, bu savaşın heç bir anlamı olmaz. Özgürlük böyük bir özveriliklə bir yerdə qazanılmalıdır. Çox üzgünük, ancaq sizin bu xoş niyyətinizi qəbul edə bilməyəcəyik. Sizə öz savaşınızda uğurlar diləyirik.

Ülgənin bu sözləri yanındakı yağızları şaşırtmışdı. Arıların yardım və birləşmə istəklərinin geri çevriləcəyini kimsə ağlına gətirmirdi. Arılar bir-birinə baxa qalmışdılar. Nə deyəcəklərini düşünürdülər sanki. Birinci arı köks ötürüb "Söylədikləriniz doğru ola bilər. Ola bilsin bu doğruları biz anlamaq üçün daha da gəlişməmiz lazım olacaq. Yəni arıların bilinclənməsi bu qonuda çox önəmli" dedi.

Ülgən: Məncə də. Siz ilk öncə arıları bilincdə və bilgidə əqrəblərə qarşı savaşa hazırlamalısınız. Özgürlük sizlərdə bilinc düzeyinə daşınmazsa, qurtuluşunuz mümkün olmayacaq. Biz bütün yağızları bilincləndirmə çabaları içinə girdik. Çünkü əsarətə səbəb olan, yalnızca boyuzların irqçilik düşüncələri deyil, həm də yağızların bilincsizliyi və öz kimliklərini yadırqamalarıdır. Bu sorunun ikisini də bir yerdə çözmək gərəkir.

İkinci arı: Əvət, haqlsınız. Bu yöndə biz heç düşünmədik. Düşünmədən öncə savaşmaq üçün yabancı güclər aramaq fikrində olduq.

[138] Aymazlıq- cəhalət.

Üçüncü arı: Sizin söylədiyiniz bu yöntəm çox önəmlidir. Düşüncələriniz çox etkiləyicidir. Bu görüşməmiz çox yaxşı oldu. Bəlkə sizdən savaş üçün yardım ala bilmədik, ancaq düşüncə yardımı aldıq. Bu yardım hər tür yardımların ötəsində. Umarıq ki, savaşınızda uğur qazanarsınız.

Ülgən: Sağ olasınız. Sizə də uğurlar olsun!

Arılar sağ ollaşıb uçub getdilər. Yağızlar yüklərini alıb yuvaya doğru irəliləməyə başladılar. Yolda Ülgənin arxasınca gələn gənc yağızlar üzüyoxuşu dırmaşa-dırmaşa danışırdılar.

Birinci yağız: Ülgənlə arıların danışığı mənim düşüncəmi alt-üst etdi. Mən, yalnızca boyuzlarla savaşdığımızı sanırdım. Özümüzdə də sorun varmış demək.

İkinci yağız: Mən də öylə sanırdım. Demək ki, bizim bir düşmənimiz də öz içimizdə imiş. Öz aymazlığımız da bir başqa düşmənmiş və onunla da bilinclənmə yoluyla savaşmalıymışıq.

Üçüncü yağız: Ancaq bu düşüncə çox doğrudur. Yağızların arasında dayanışma olmamışdır genəldə. Günümüzdə aramızda dayanışmanı sağlayan iki etkən var. Biri öz bilinclənməmiz, biri də boyuzlarla savaş niyyəti. Bunlar ikisi bir yerdə bizi aydınlatmaqdadır. Yağızlar bilinclənməzsə, savaş da olmaz. Əskidən olduğu kimi, köləcə yaşamımız davam edər və gecə gündüz boyuzlara taxıl daşıyarıq.

Ülgən arxada yağızların dartışmalarını eşidir və içində sevinc baş qaldırırdı. Çünkü Ülgən bir düşüncə, bir amac yolunda savaşmaq üçün yağızları hazırlamağa çalışırdı. Alpərənlik yağızların içində böyləcə dərindən-dərinə kök salmaqda idi.

Ülgən arxasındakı yağızlarla bir yerdə yuvaya girdilər. Havalar get-gedə soyumaqda idi. Qış üçün hər tür ayrıntılı hazırlıq işləri görülürdü. Ancaq bunların ötəsində Ülgənin başında savaş tasarımı da da var idi. Ülgən bütün payız və qış sürəsincə yerin altında yazdakı savaşa hazırlıq işlərinin getməsini istəyirdi. Payız günəşi yuvanın dəliklərindən içərini aydınlatmaqda idi. Yerin altında milyonlarca yağız çalışmaqdaydılar. Hər yağız öz işi ilə uğraşmaqdaydı. Yağızlar çalışa-çalışa qarşıda savaşa da hazır olmaları gərəkdiyinin bilincində idilər. Ülgən və yanındakılar yüklərini anbara buraxıb yerin altında yağızların toplaşdığı böyük bir meydana getdilər. Burada saysız-hesabsız yağız var idi. Öbək-öbək yağızlar dəyişik qonurla ilgili dartışırdılar. Qalabalıq gənc yağız dəstəsinin arasında qızğın dartışma gedirdi. Gənc yağızlar yağız dilinin özəllikləri haqqında danışırdılar. Bir az kənarda “dil və kimlik” qonsunda dartışma gedirdi. Bir

başqa böyük dəstə, yağız tarixi haqqında dartışırdı. Yağız toplumu güclü biçimdə bilinclənmə eyləmi içinə girmişdi. Ülgən də bu dartışmalara qatılmaq istədi. Ülgənin gənc yağızlara qatıldığını görən başqa yağızlar oraya axın etdilər. Ülgən bir alpərən idi. Ən son alpərən olaraq atası Bilay bügüdən alpərənlik dərsi almışdı. Ülgənin bulunduğu yerə qoşdular yağızlar. Ərənol adında savaşçı gənc bir yağız bu dartışmalarda daha çox gözə çarpmaqda idi. Ərənolun yağızlar arasında böyük hörməti var idi. Alpərənlik ilkələrinə ən çox uymağa çalışırdı. Özəlliklə onun ustaca qılıc qullanması çox diqqət çəkici idi. Yaşlı yağızlar Ərənolu övürdülər. Ərənol "Ülgən, bizim savaşımız "dil və kimlik yolundadır" qonusunda dartışırdıq. Bu haqda sizin görüşləriniz nədir?" deyə sordu.

Ülgən: Dartışmalarınız çox önəmli. Bu dartışmalar bizim savaşamızın düşüncə qatmanını oluşdurmaqdadır. Bunlar böyüyən yağız düşüncəsinin göstərgəsidir dostlarım. Ancaq sorunuza gəlincə yağız dili haqqında yağızlar içində bu qədər həssasiyətin ortaya çıxması çox önəmlidir. Bu bilgilər yolunda savaşırıq əslində. Dil varlığın güzgüsüdü. Varlığın özünü anlamlandırdığı tək məkan dildir. Bütün bu savaşlar və fədakarlıqlar dil yolundadır. Varlıqla ilişkilərimiz dillə qurulur. Dilin ötəsindəki anlamları da dil yoluyla qavraya bilirik. Bu üzdən də yağız dili varlığı anlamamızın ana açarıdır. Beyinimizdə aydınlanma qığılcımı sözlərlə sağlanır. Ancaq yağızcanın içi boşaldırmışdır. Dilimiz düşüncə dili olmaqdan yoxsun buraxıldığından yağızcanın önəmi azalmışdır. Yağız oyanışı və savaşı yağızcanın dirilişinə və yüksəlişinə olanaq sağlamışdır. Yağızlar yağız dilinə önəm verirlər. Bu yolda ölüm-dirim savaşına qalxırlar. Çünkü doğruya ulaşmanın tək yolu dildir. Yağızların doğrusu, yağızların həqiqəti nə yerin altındadır, nə yerin üstündədir, nə də göydə. Bizim doğrularımız yağız dilindədir. Doğrunu, yalnız dildə aramaq gərəkir. Çünkü beynimizi devindirən sözlərdir. Hər bir yağızın başqa yağızla ilətişimini[139] sağlayan yağızcadır. Yağızca ilə əski və gələcək zaman anlayışları birləşmiş olur. Anılarımız yağızcaya yüklənərək gələcəyə daşına bilər. İndiki zamanda yağızca dolayısıyla keçmişi anladığımız kimi, bu gün də yarının keçmiş zamanı olacağından yarınkı quşaqlar bizi bu dillə anlayacaqlar. Dündən gəlib bu gündən keçib yarına uzayışı sağlayan etkən yağız dilidir. Böylə anlaşılır ki, dil bizim deyil, biz dilinik. Bizi bu şərəfli savaşlara yönləndirən də dildir, ana dilimiz. Boyuzlarla bizim kimlik sınırımızı bəlli edən də yağız dilidir. Yağız dili yox olduqdan sonra ortada bir sınır qalmaz. Boyuzlaşıb gedərik. Bütün varlığımızla yağız dilinin yaşaması üçün çalışacağıq,

[139] İlətişim- irtibat.

düşünəcəyik və savaşacağıq. Göz yaşlarımız bilə, yağız dilinə xidmət etməlidir.

Ülgənin bu coşqulu və anlamlı qonuşması yerin altında meydana toplanmış yağızları həyəcanlandırmışdı. Gənc bir yağız "Ülgən, nə zaman savaşacağıq?" deyə bağırdı. Ülgən sanki bu sorunu bəklərcəsinə, bütün yağızlara xitabən bu qonuda bir söyləv söyləmək istədi. Gənc yağızın sorduğu soru çox önəmli idi. Bütün yağızlar Ülgən alpərənin bu soruya verəcəyi cavabı bəkləyirdi. Ülgən köksünü ötürüb sözünə davam etdi:

Yağız dostlarım, bu, bizim son savaşımız olacaq. Ya yeniləcəyik, ya da şərəfli bir uğur qazanacağıq. Ancaq bu yolda canlarını fəda etmiş yağız dostlarımızın xatirələrini unutmadan onların niyətləri yolunda savaşacağıq. Savaşacağımız gün daha sonra bəlli olacaq. Ancaq bu gündən başlayaraq savaşa hazır olmalıyıq.

Yaşlı bir yağız qalabalığın içindən bağıraraq "Necə hazır olmalıyıq, hazırlığın qoşullarını açıqlarsınızmı?" dedi.

Ülgən: Qarşımızda yaxlaşıq səkkiz ay zaman var. Bu səkkiz ay içində İşıqçıxmazdan Limliyə dörd dəyişik tunel qazmalıyıq. Bilirəm çox uzun bir məsafədir. Ancaq başqa çözgəmiz yoxdur dostlarım. Limlini və Limlidəki yağızları, yalnız bu yolla qurtara bilərik. Əqrəbləri və hörümçəkləri yox etmədən boyuzlarla savaşa bilməyəcəyik. Bu eyləmə qatılmaq istəyən varmı?

Milyonlarca yağız bir yerdə "vaaaarrrr" deyə bağırdı. Yerin altındakı yağız hayqırtıları yerin üstündə torpağı devindirdi. Torpağın üstündə sürünən qurtlar dəprəm olduğunu düşünüb həyəcanlandılar. Yağızların ortaq istənci sərgilənirdi. İşıqçıxmazdan Limliyə doğru dörd dəyişik yerdən tunel qazılacağı qərarlaşdırıldı. Ordaca iş bölümü yapıldı. Milyonlarca yağız dörd böyük öbəklərə ayrılıb dörd yöndən Limliyə tərəf tunelqazma işini tasarladılar. Ülgən özü də bəlli edilən bir yöndən Limliyə tərəf qazılacaq tuneldə işə başladı. Yağızlar böyük həyəcanla tunelqazma əməliyatına girişirdilər.

Tunelqazma əməliyatı başlamışdı. Payızda tunel işi asanca irəliləyirdi. Qışda daha çətin olmuşdu. Hər tərəfi qar bürümüşdü. Yağızlar qarı dəlib ağızlarında daşıdıqları torpağı dəlikdən çıxarıb yuvanın kənarında yellərə buraxıb geri dönürdülər. Geri dönərkən, qarşıdan ağzında torpaq daşıyan yağıza "Dışarı çox soyuqdur. Diqqətli ol külək aparmasın səni" söyləyib gülüşürdülər.

Böyləcə səkkiz ay yağızlar durmadan İşıqçıxmazdan Limliyə doğru tunelqazma işlərinə davam etdilər. Limlinin altında artıq get-gəl edirdilər. Əqrəblərin yataq yerləri altında dərin quyular qazmışdılar.

***

Payız və qış gəlib keçmişdi. Novruz bayramında yağızlar bolluca əylənib, şərqi söyləyə hazırlanmışdılar. Limlidə Novruz bayramının Boyuzlar tərəfindən yasaqlanmasına qarşın, İşıqçıxmazda ilk dəfə olaraq yasaqlanmış bayramlarını bu qədər mutluluqla yaşamaqdaydılar. Dərələrdə novruzgülünün qarşısında mahnı söyləyən sarıköynək quşunu görən ozan bir yağız qopuzunu bağrına basmış yağız topluluğuna gördüklərini böylə anladırdı:

“Novruzgülü qardan boy atıb güldü bizə
Yaz gəldi də vardıq yenə biz kəndimizə
Bir gül yanağından öpücük dərmək üçün
Gördüm sarıköynək əyilib çökdü dizə”

Başqa bir ozan yağız qopuzu ilə rəqs edərək, şölənə rəng qatırdı. Ilk yaz günəşi doğanı isitdikçə, yağızlar daha da coşurdu. Ortada dolaşan ikinci ozan yağız birinci ozan yağıza yaxınlaşıb onun oxuduğu kökdə davam etdi:

“Gördüm ki, üzərlik daşın altında durub
Yemlik sarı güldən başına xeymə qurub
Çırtdıq* da yamacdan baxar olmuş uzağa
Pıtraq** dolaşıb dilqanadanla*** oturub.”

Birinci ozan:

“Baxdım şüvərənlikdə parıldar şüvərən[140]
Bir yanda durub naaz eləyir boymadərən[141]
Çox şaşqın idim çün, əvəlikdən[142] sordum:
Kimdir bu gözəllikləri yerlərdə sərən?”

Savaşçılığı ilə fərqlənən Ərənol da qılıcının yerinə qopuz basmışdı köksünə. Ərənol yağız kimliyinə və yağız dilinə çox bağlı olduğundan ona “Yağız Ərənol” deyirdilər. O da bu ada alışmışdı. Ancaq ilk günlər etiraz edirdi. “Bütün yağız kimliyini mən təkbaşıma təmsil edə bilmərəm. Bu ləqəb

* Çırtdıq- kötüyündən saqqız düzəldib çeynənirdi. Saqqızı ilə qadınlar qaşlarını da alardılar. Çırtdığın saqqızını sapa bələşdirib üzlərindəki tükləri təmizlərdilər.
** Pıtraq- yumuru tikanları paltara suvaşan bitki.
*** Dilnqanadan- 4-5 santım uzunluğunda olan bitki. Dilə yavaşça iki kərə sürtərkən dili qanadar.
[140] Şüvərən- uzunluğu 40-50 santım olan sarı güllü bitki.
[141] Boymadərən- uzunluğu 10-15 santım olan ağ güllü bitki.
[142] Əvəlik- yastı yarpaqlı bitki. Yaxşı dovğa düzəldərdilər əvəlikdən.

çox böyük ləqəbdir. Ona layiq ola bilməzsəm, yağızlıq zərər görə bilər" deyirdi. Ancaq kimsə onun bu etirazına aldırış etmədi və o, "Yağız Ərənol" adı ilə tanındı. Zaman keçdikcə özü də buna alışdı. Artıq ona Yağız Ərənol deyilirdi. Yağız Ərənol köksündə bir qopuz yenə də ağlındakı düşüncələrinə uyğun bir mahnı sözləri ilə ozanların səsinə səs verdi:

"Bağlar bizi varlıqlara, bağlar dilimiz
Min türlü bilik, düşüncə sağlar dilimiz
Varlıq və uzay dildə tanımlar özünü
Evrənlə bütünləşər də çağlar dilimiz."

Yağızlar ozanları alqışlayırdılar. Çevrədə dolaşan bir sürü böcəklər də yağızların şölənino baxıb gülüşürdülər.

Yaşlı və axsaq bir yağız qalabalığın içindən şölən meydanına girib gənc ozanların qopuz çalmalarından coşmuşdu. Ayağını sürüyə-sürüyə içində çağlayan sevinci sözlərə tökürdü:

"Bir yaşlı yağız, kökləyərək çaldı qopuz
Kökləndi də göylərdə məkan saldı qopuz
Biz dinləyər olduqda uçar oldu könül
Gizlin səs olub köksümüzə doldu qopuz.

*

Gəl ol da mənim ruhuma bir güzgü qopuz
Gəl-gəl bu əzik könlümə qıl çözgə qopuz
Doğmaz, doğamaz köksümə sənsiz ulu aşq
Gəl, qoyma doluşsun içimə özgə, qopuz."

Yaşlı axsaq yağızın coşqusu yağızların sevincinə sevinc qatdı. Milyonlarca yağız yaşlı yağızı alqışlayırdı. Yaşlı yağızın yenidən mahnı söyləməsi üçün "Bir daha, bir daha" deyə yağızlar bağrışırdılar. Yaşlı yağız bu qədər alqışın qarşısında özünü daha da mutlu hiss edirdi. Alqışlar davam edirdi. Qaş-gözü ilə gənc ozan yağızların qopuzlarını çalmalarına işarə edib mahnısını bu sözlərlə uzatdı:

"Yovşan[143] qoxusundan içərim dolmuş idi.
Uçmaqda[144] könül kəndisini bulmuş idi.
Varlıqla vücudum uyum iiçində ikən,
Sandım ki, könül tam alpərən olmuş idi."

Yağızların sevinc fəryadları İşıqçıxmazdan göylərə yüksəlirdi. Yazın ilk günəşi göylərin sonsuzluğunda Batıya doğru süzülürdü. Yağızlar

[143] Yoşan- qışdada kötüyü ocaqlarda yandırılan çox gözəl qoxulu bitkidir.
[144] Uçmaq- cənnət.

oxuyub-oynamaqdan yorulmurdular. Gecə yarsına qədər aydınlıqda da musiqli şölənləri davam etdi.

***

Ülgən savaş gününün nə zaman olacağını kimsəyə söyləmirdi. Ancaq bütün yağızlar savaşın yaxınlaşdığının bilincindəydilər. Limlidə boyuzlar da yağızların saldıracaqlarından əndişəli olduqlarından hər türlü savunma hazırlığı etmişdilər. Ülgən, Yağız Ərənolla bir yerdə savaşçı bir neçə yağızla tunellərin durumunu və doğrultularını diqqətlə yoxladı. Ülgən hər şeyin yerində olduğunu bilmək istəyirdi. Savunalla Güvənalın başına gələnlər təkrarlanmasın deyə ən güvənilir yağızlardan tunel qonusunda yardım alırdı. Yoxlama bitdikdən sonra Ülgən tam bir içgüvənlə dərindən nəfəs alıb və kimsə duymadan öz-özünə "Sevilay, səni azad edəcəyəm gün yaxınlaşır" deyə pıçıldadı. Ülgən tuneli yoxlarkən, tunellərin Limlinin altında haralara qədər uzandığını da gözdən keçirdi. Əqrəblərin əsas yatağı olan Qurbantəpəsinin altında dərin quyular qazılmışdı. Burada əqrəblərin işini bitirmək gərəkəcəkdi. Minlərcə əqrəbi bu quyularda basdırmaq tasarlanmışdı.

Ülgən yoxlamaları bitirib geri döndü. İşıqçıxmazda gecənin aydılığında bütün yağızların toplanmasını istədi. Yağızlar savaş durumuna keçib toplandılar. Ülgənin yanında Yağız Ərənol sağ tərəfdə durmuşdu. Əlindəki qılıcı ilə milyonlarca yağıza işarə edib səssiz olmalarını istədi və "Ülgən danışmaq istəyir, dinləyin!" dedi. İşıçıxmazda milyonlarca yağız sırayla düzülmüş səbirsizliklə Ülgənin nə söyləyəcəyini bəkləyirdilər. Ülgən kiçik bir qayacığın üstünə çıxdı. Burdan bütün yağızlar görünürdü. Diqqətlə yağızların durumunu izlədi. Sonra da "Yağızlar, görürəm ki, üzünüzdə böyük sevinc dalğalanır. Bu, çox yaxşıdır. Özgürlük savaşına sevinclə getmək lazımdır. Çox danışmaq istəmirəm. Burada bulunduğumuz zaman içində bir-birimizi yaxşı tanıya bildik. Amacımızın nə olduğunu anladıq. Limlidə milyonlarca yağızın bizə möhtac olduğunu anladıq. Yurdumuzu qurtamanın zamanı gəlmişdir. Yarın gün doğar-doğmaz Limliyə saldıracağıq. Bu, bizim son savaşımız olacaq. Tariximiz üçün, gələcəyimiz üçün son savaş olacaq. Bu savaşla da biz özgürlük nədir sorusuna qanımızla və canımızla cavab verəcəyik. Bu yolda canlarını verənlərin unudulmadıqlarını isbat edəcəyik. Bu savaşda uğur qazanmalıyıq. Çünkü uğur bizim olmazsa, tarixdən silinə bilərik. Yurdumuzun qurtuluşu üçün son savaşa hazırmısınız?" söylədi.

Yağızların özgürlük duyğularının coşmasından gözləri yaşarmışdı. Milyonlarca yağız bir səslə bağrışdılar: Əvət, hazırıq...

Ülgən: Bütün savaş alayları bəlli edilmiş yolları ilə Limliyə doğru hərəkətə başlasın. Yarın gün doğuşu zamanı saldırı başlayacaqdır.

Yağız savaşçı alayları Limliyə doğru hərəkətə başladı. Limliyə dörd yöndən saldırı düzənlənəcəkdi. İşıqçıxmazda ən güvənilir yağızlar tunelin ağzında bəkləməkdəydilər. Tunel qonusunda yenidən ihanət olsaydı, yağızların yenilgəsi qaçınılmaz olacaqdı. Bu yenilgə ilə də yağızlar tarixdən silinə bilərdilər. Bu nədənlə də özəlliklə daha yaşlı yağızlar tunel sorumluluğuna gətirilmişdi. Evladları orduların içində Limliyə savaşmağa gedən yaşlı yağızlar.

Dan ulduzu Limlinin doğusunda parlayırdı. Yağızlar Limlinin çevrəsini tamamən sarmışdılar. Dan yeri ağararkən, birdən Qurbantəpəsində böyük dəprəm oldu. Qurbantəpəsi, sanki bütünüylə yerin altına batarcasına yerindən oynadı. Toz-torpaq havaya yüksəldi. Əqrəblərin bağrtıları yüksəlirdi. Bir neçə əqrəbin "Yağızlar bizi məhv etdi" səsləri eşidildi. Bu durumu görən boyuzlar dərhal savaş durumuna keçdilər. Əqrəblərin əsas barınaqları dağdılıb yox edilmişdi. Yalnız bir neçə əqrəb Başalanın qorumacıları kimi qalırdı, bir də hörümçəklər. Bunlarla da savaşacaqdılar. Ülgənin "Saldırın!" hayqırtısı yüksəldi. Yağızlar dörd yandan Limliyə saldırdılar. Limlinin çevərsində savunmada bulunan boyuzlar yağızların önünü kəsdilər. Savaş başlamışdı. Yağızlar savunma cəbhəsini yarıb Limlinin ortasına doğru irəliləyirdilər. Bu zaman Başalanın əmri üzərinə hörümçəklər və bir də onun qoruyucu əqrəbləri yağızlara saldırdılar. Hörümçəklər sürəkli tor hörüb yağızların əl-qollarını bağlayırdılar. Əl-qolları bağlanmış yağızları boyuzlar süngüləri ilə dəlik-deşik edirdilər. Limlidə yük daşımaqdan bezmiş olan yağızlar da öz soydaşlarının savaşlarına qatıldılar. Ancaq onların savaş denəyimləri olmadığından tez yenilir, əqrəblərə yem olurdular. Qanlı savaş davam edirdi. Günortaya doğru minlərcə yağız və boyuz ölmüşdü. Yüzlərcə hörümçək də öldürüldü. Hörümçəklərin sayı azaldıqca umutsuzlaşırdılar. Özəlliklə yağızların bu savaşdan geri çəkilməyəcəklərini, ölüm-dirim savaşına qatıldıqlarını sezdikcə hörümçəkləri qorxu bürüyürdü. Bir neçə hörümçək bir dəstə yağızı hörüdükləri torları ilə əsir yaxalamışdı. Yağız Ərənol bu dəstəyə yaxınlaşıb hörümçəklərin qarnını söküb dağıtdı. Hörümçəklər Yağız Ərənolu əsir yaxalamağa çalışırdılar. Ancaq hördükləri bütün torları savaşçı Yağız Ərənol qılıcı ilə söküb dağıdırdı. Onlarca hörümçəyi Yağız Ərənol öldürüb irəliləyirdi. Hörümçəklərin başçılarının fəryadı eşidildi. "Hörümçəklər,

yağızlar imana gəlmişlər. Onlar artıq yenilməzlər. Biz qaçalım, yoxsa hamımızı öldürəcəklər" deyirdi. Hörümçəklər qaçmağa başmışdılar. Qaçan hörümçəklərə kimsə toxunmurdu. Çünkü alpərənlik yasasına görə qaçanı arxadan vurmaq yasaq idi. Hörümçəklərin qaçdıqlarını görən Ülgənin səsi yüksəldi: Yağızlar, düşmən düşüncə və duyğularında yenilmişdir. Uğur qazanmaq üzərəyik. Savaşın!

Ülgənin səsi yağızları həyəcanlandırıb canlılıq gətirdi. Yağızların savaşı hörümçəklərin qaçması ilə qolaylaşmışdı. Ülgən boyuzları kəsə-kəsə Başalana tərəf yaxınlaşırdı. Savaş Limlinin tam ortasında davam edirdi. Yağız Ərənol da Ülgənə qovuşmuşdu. İki yağız savaşçı bir yerdə Başalanın barınağına doğru irəliləyirdi. Başalanın özəl savunucuları olan əqrəblər yağızlara saldırdı. Yüzlərcə yağızı öldürdülər. Ülgən və Yağız Ərənol əqrəblərlə qarşı-qarşıya gəlmişdilər. Bir əqrəb Ülgənin üzərinə atılmaq istərkən, Yağız Ərənol qılıcı ilə onun qarnını sökdü. İki savaşçı Başalana tərəf irəliləyirdi. Çevrədə isə, yağızlarla boyuzların bir-birini öldürməsi davam edirdi. Ülgən və Yağız Ərənol daha az qan tökülsün deyə, Başalanı yaxalamaq istəyirdilər. Çünkü Başalan yaxalandıqdan, ya da öldürüldükdən sonra boyuzların təslim olmaqdan başqa çarələri yox idi. Bu üzdən də iki savaşçı yağız Başalana tərəf irəliləyirdilər. Bir neçə əqrəb qalmışdı. Onlarda da savaş halı qalmamışdı. Yağızların yenilməz saldırısını görən bir neçə əqrəb Başalanı buraxıb qaçıb yerin dəliyinə girdilər. Artıq ortada heç bir yabancı güc qalmamışdı. Yağızlarla boyuzların savaşı başlamışdı. Ülgən və Yağız Ərənol Başalanı qorumacı boyuzlarla bir yerdə quşatdılar. Başalan da süngüsünü çıxarmış savaşa hazır idi. Ülgənin "Başalan təslim ol!" sözünü Başalan dinləmədi. Ülgən və Yağız Ərənol saldırdılar. Başalanın bütün qurumacılarını qılıcdan keçirdilər. Ülgən, Yağız Ərənola "Sən kənarda dur, bununla başbaşa savaşacağam" dedi. Ülgənin bütün qılıc saldırılarını Başalan uzaqlaşdırdı. Başalan bir saldırısı ilə Ülgənin ayağını yaraladı. Ancaq Ülgən bu kiçik yaraya aldırış etmədi. Saatlarca başalan və Ülgən arasında savaş davam etdi. Bu zaman Başalanın yardımına qoşan boyuzları Yağız Ərənol qılıcdan keçirirdi. Tam bu sırada qorxunc bir səs yağızları və boyuzları yerindəcə dondurdu. Bir bağırtı, qorxunc bir bağırtı. Başalanın bağırtısı idi. Ülgənin qılıcı Başalanın köksünə saplanmışdı. Köksünə qılıc saplanmış olan Başalan ard-arda bir neçə kərə bağırdı. Sonra da iri gövdəsi ilə yerə düşdü.

Bu durumu görən bütün boyuzlar silahlarını buraxıb təslim oldular. Yağızlar uğur qazandıqlarına inanmırdılar. Yenik boyuzlar başlarını aşağı salmışdılar. Limlidən dışarı çıxa bilməyən, alpərənlik ilkələrinin nə

olduğunu anlamayan bir sürü yağız, təslim olmuş boyuzları öldürüb intiqam alırdılar. Kölə yağızlar azad olduqlarına inana bilmirdilər. Ülgən suquyusuna doğru irəliləyib orada yağızlara bir söyləv söyləmək istəyirdi. Daşın üstünə çıxıb danışmaq istərkən gözləri Yağız Ərənola toxundu. Qılıcından qan daman Yağız Ərənol yaralı Sevilayı çiyninə almış Ülgənin bulunduğu yerə doğru gətirirdi. Ülgən Sevilayı görcək gözləri sevincdən yaşla doldu. Onlara tərəf qoşdu. Ülgən və Yağız Ərənol iki tərəfdən Sevilayın qoltuğunun altına girib onu zəfər meydanının ortasına daşıdılar. Sevilay yaralı olsa da, üzündə yenilməzlik var idi. Ancaq çox çətin danışırdı. Ülgənin qulağına "Ülgən, məni çox işkəncə etdilər. Ancaq mən dözdüm, təslim olmadım" dedi. Sevilayın bu pıçıltısını Yağız Ərənol da eşitdi. Ülgənin gözlərindən yaş axırdı. Uğur qazanmanın sevinci ilə Sevilayı görmənin sevinci bir-birinə qarışmışdı. Ülgən və Yağız Ərənol Sevilayı daşın üstünə çıxardılar. Sevilay yaralı bədəni ilə çevrəyə baxdı. Boyuzlardan xəbər yox idi. Yağızların üzündə zəfər sevinci dalğalanırdı. Özünü toparlayıb əzik səsi ilə "Yağızlar, uğurunuz qutlu olsun!" dedi. Daha sonra Yağız Ərənola dayanıb durdu. Sevilayın bu qutlamasına yağızlar "Huraa" ilə cavab verdilər. Sevilayın başı Yağız Ərənolun güclü qollarına söykənmişdi. Sağ əlində qılıcından qan damırdı Yağız Ərənolun. Sol əli ilə yaralı Sevilayı tutmuşdu. Sevilay, Yağız Ərənola yorğun gözlərini tikib və öz-özünə "Yeni alpərən" deyə pıçıldadı. Ülgən yağızlar üçün qonuşmağa hazırlanırdı. Bu zaman yağızların arasından örtüklü biri quşqulu şəkildə Ülgənə doğru irəliləyirdi. Başının üstündə bir bənövşə yarpağı tanınmasını önləyirdi. Örtüklü yağız qalabalığın içindən yavaş-yavaş Ülgənə doğru irəliləyirdi. Ülgənin tam arxasına çatmışdı.

Ülgən söyləvinə başladı:

Yağızlar bu şərəfli savaşımızın sonucu olaraq özgürlüyümüzü qazandıq. Bu qədər qan verdik. Artıq bu qanla qazandığımız özgürlüyümüz heç bir zaman tariximizi tərk etməyəcək., ancaq...

Sözü ağzında yarımçıq qaldı. Arxadan belinin ortasından girən süngü öndən qarnını dəlib çıxdı. Ülgənin bağırtısı yüksəldi. Sağ əlindəki qılıcı ilə geri dönüb arxadan onu vuranı vurmaq istədi. Gözləri Xamuta sataşdı. Xamut süngüsünü Ülgənin belinə soxmuşdu. Ülgən ağrılar içində qılıcını Xamutun qarnına soxmaq istərkən qılıcının üstündə ildırım çaxdı. İldırımların arasından Bilay dədənin surəti göründü. Bilay dədə qılıcın üzərindəki ildılrımların içində "Yağız öldürməyəcəksən" deyib yox oldu. Ülgənin qılıcı əlindən düşdü. Xamut qaçmaq istərkən yağızlar tərəfindən yaxalandı. "Məni öldürməyin deyə" yalvarırdı Xamut. Ülgənin ağrılar içində qıvrılan səsi yüksəldi: Öldürməyin onu, buraxın getsin, o artıq bir ölüdür.

Ülgəni dinləyən olmadı. Yağızlar Xamutu param-parça etdilər. Ülgən Sevilayın yanına uzandı. Süngünün soxulduğu yerdən qan fışqırırdı. Ülgən, Yağız Ərənola "Məni Sevilaya yaxınlaşdır!" söylədi. Yağız Ərənol Ülgəni Sevilaya yaxınlaşdırdı. Yaralı Sevilay Ülgənin başını qucağına aldı. Ülgənin qanı axdıqca sifətinin rəngi dəyişirdi. Sevilay göz yaşlarını tuta bilmirdi. Əllərini Ülgənin bədənində dolaşdırırkən sağ qolunun altındakı yara izinə toxundu. Sevilayın Çərənbil dağında yaraladığı yer idi. Yaranın izi silinməmişdi. Halı yerində olmayan Sevilay yara izini gördükdən sonra hönkürtülərinin qarşısını ala bilmədi. Bir sürü xatirələr gözləri önündə canlanmışdı. Limlinin doğusunda başında bir parça bulud olan Çərənbil dağına gözləri sataşdı. Hönkürtülərini durdura bilmirdi. Sonunda hönkürtülərinin arasından "Səni sevirəm Ülgən" söyləyə bildi. Sevilayın bu sözləri ilə ölməkdə olan Ülgənin üzünə acı ilə qarışıq bir gülücük qondu.

Ülgən "Sevilay, yağızlar özgür oldu" dedi və gözlərini qapadı. Sevilayın hönkürtülərinə bütün yağızlar qatılmışdı. Yağızlar ağlaşırdılar. Sevilayın əlləri ilə Ülgənin əlləri bir-birinə sarılmışdı. Sevilayın hönkürtüləri bitmişdi. Səs çıxmırdı Sevilaydan. Yağız Ərənol, Sevilayı səslədi. Ancaq cavab vermədi. Əyilib Sevilayı qaldırmaq istərkən onun da öldüyünü gördü. Sevilay ölmüşdü. Bir əli Ülgənin əlinə sarılı, başqa əli Çərənbildə yaraladığı yaranın üstündə idi.

Yağız Ərənolun göz yaşları sel olub axmaqda idi. Yağızlar yas içindəydilər. Sevilayla Ülgənin əllərini bir-birindən ayrmadan yağız gələnəyinə uyğun olaraq yaxdılar...

Bu zaman ağlama ilə qarışıq bir səslə Yağız Ərənolun hayqırışı yüksəldi: Mən, alpərən Yağız Ərənol yağızların əbədi qurtuluşunu duyururam. Yağızlar qurtulmuşdur...

***

Daha sonra nələr oldu?

Daha sonra alpərənlik quşaqdan quşağa daşındı. Öncəsiz və sonrasız[145] zaman içində öykülərə dönüşdü...

08.03.2011

[145] Öncəsiz və sonrasız- əzəli və əbədi.